№34 • İYUL 2024

# BİZNES HƏYATI

Azərbaycan Sahibkarlar Konfederasiyası
ASK
Azerbaijan Entrepreneurs Confederation

ASK-nın dövri jurnalı



Azərbaycan Sahibkarlar Konfederasiyası
ASK
Azerbaijan Entrepreneurs Confederation

25 il
1999-2024

SAHİBKARLARLA BİRLİKDƏ, SAHİBKARLAR ÜÇÜN!



Missiyamız:

Azərbaycanda bütün sahibkarların (işəgötürənlərin) səsinə və onların ən yaxın tərəfdaşına çevrilmək, sahibkar-dövlət, sahibkar-işçi münasibətlərinin tənzimlənməsi üçün dialoq qurmaq və ölkədə sahibkarlığın dayanıqlı inkişafına dəstək olmaqdır.

Dəyərlərimiz:

Müstəqillik | İnklüzivlik | Şəffaflıq | Əməkdaşlıq | Komanda işi | Müxtəliflik

+994 12 465 76 92/93 www.ask.org.az office@ask.org.az



İqtisadiyyat naziri cənab Mikayıl Cabbarovun Sahibkarlar Günü və Azərbaycan Sahibkarlar Konfederasiyasının fəaliyyətinin 25 illiyi ilə əlaqədar MÜRACİƏTİ 8



20 IOE-nin İcraçı direktoru: "Yaşıl bacarıqlara tələbin artımı təklif artımını üstələyir"



30 "Yaşıl biznes"in iqtisadiyyata təsiri



46 "Yaşıl iqtisadiyyat" və iqlim dəyişiklikləri ilə mübarizə Azərbaycan startaplarının diqqətində



36 AQSİA sədri: "Qadın sahibkarların qurduqları bizneslər daha çox inkişaf yönümlüdür"

İYUL, 2024
N°34

**Redaksiya şurası:**
Məmməd Musayev
Şahmar Mövsümov
Azər Əmiraslanov
Tahir Mirkişili
Ziyad Səmədzadə
Vüsal Qasımlı
Niyazi Səfərov
Anar Kərimov
Orxan Məmmədov
Ədalət Muradov
Aliyə Əzimova
Camal Yanqın
Bəxtiyar Ağayev
Vüqar Zeynalov

**Baş redaktor**
İlhamə Abdullayeva

**Art dizayner**
Niyazi Quliyev

Xəbər bloklarının hazırlanmasında www.ask.org.az saytının materiallarından istifadə edilmişdir.
Müəllif mövqeyi redaksiyanın mövqeyilə üst-üstə düşməyə bilər. Reklam materiallarının məzmununa görə redaksiya məsuliyyət daşımır.
Jurnal Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) tərəfindən təsis edilmişdir.

Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1010
Nizami küç. 90 A, Landmark III, II mərtəbə
Tel: (+99412) 465 76 92/93
E-mail: office@ask.org.az
iabdullayeva@ask.org.az
www.ask.org.az





# Bizim MEHRİBAN

Türk tarixi boyunca qadınlar kişilərlə bərabər həyatın hər bir sahəsində aktiv iştirak edərək əsl həyat və əqidə yoldaşı olublar.

Türk dastanlarında, əfsanələrində, hekayələrində kişilər döyüşə gedərkən evini, övladlarını, obasını xanımlarına əmanət ediblər. Ziyafətlərdə, dini, siyasi, humanitar və inancla bağlı tədbirlərdə xanımları ilə birlikdə görünüblər.

Türk qadınının ictimai və siyasi arenada oynadığı rol baxımından ömürgün yoldaşı ilə çiyin-çiyinə mübarizəsi bütün dünya qadınlarına bir nümunədir.

Azərbaycan xanımlarının simvolu olan, birinci xanım, Azərbaycan Respublikasının vitse-prezidenti Mehriban Əliyevanı düşününcə bu keyfiyyətlər göz önünə gəlir. Gözəl ana, müzəffər Ali Baş Komandanın sadiq dostu, bütün taleyüklü məsələlərin həllində dövlət başçısı ilə çiyin-çiyinə verən Mehriban xanım öz vətənsevərliyi, bacarıqlı dövlət xadimi kimi fəaliyyəti, zərifliyi, gözəl qəlbi, incə zövqü ilə dünyadakı birinci xanımlar arasında daim seçilib, sevilib və rəğbətlə qarşılanıb.

Vətən müharibəsi zamanı onun qazilərimizə xüsusi qayğısı, şəhid anaları, şəhid övladlarına münasibəti hamımız üçün bir örnəkdir. İnsanların Vətənlərini sevmə şəkli, özünü ifadə tərzi fərqli olur və Azərbaycan xanımı kimi Mehriban xanımın Vətən müharibəsindəki qayğılı, eyni zamanda qürurlu duruşu hamımıza dəyanətli olmaq mesajını verirdi. Tarixi ədalətin bərpa olunması üçün Prezident İlham Əliyevin atdığı cəsarətli addımların arxasında birinci xanımın da qələbəyə inamı, danılmaz rolu vardı.

Ölkəmiz üçün belə tarixi əhəmiyyətli günlərdə birinci xanımın Azərbaycan xalqına xitabən dediyi “Sizin MEHRİBAN” imzası özündə bir doğmalıq, işıqlı, pozitiv, inamlı bir gələcəyə böyük bir ümid vardı. Bu ümidlərin reallığa çevrilməsi üçün Mehriban xanım həmişə xalqının yanındadır, öz nüfuzu, bacarıqlı idarəetmə xüsusiyyətləri ilə həm də Azərbaycan qadının güclü, savadlı, gözəl olduğunu dünyaya göstərməkdə davam edir. Milli ornament və naxışlarla bəzədilmiş, təkrarolunmaz libasları ilə Qarabağı, qədim Azərbaycan torpağının milli dəyərlərini tanıdan Azərbaycanın birinci xanımı milli motivləri və etnik elementləri Avropa klassikasına elə məharətlə uyğunlaşdırır ki, dərhal diqqəti cəlb edir, həm yerli, həm də dünya şöhrətli moda mütəxəssislərinin, eləcə də ictimaiyyətin sonsuz rəğbətini qazanır.



**Bizim MEHRİBAN xanımın dosyesi çox zəngindir:**

26 avqust, 1964-cü ildə Bakı şəhərində anadan olub. 1981-ci ildə Bakı şəhər 23 nömrəli orta məktəbi qızıl medalla bitirərək Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub.

1988-ci ildə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirib. 1988-1990-cı illərdə İ.M.Seçenov adına Birinci Moskva Tibb İnstitutunda "Göz xəstəlikləri" ixtisası üzrə kliniki ordinatura keçib. 1990–1995-ci illərdə Moskvada Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləyib.

1995-ci ildə Azərbaycan Mədəniyyət Fondunu təsis edib və hazırda onun rəhbəridir.

1996-cı ildə Azərbaycan mədəniyyətinin geniş təbliği məqsədi ilə üç dildə (Azərbaycan, ingilis və rus) nəşr olunan "Azərbaycan – İrs" jurnalını təsis edib.

2002-ci ilin oktyabrında Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib.

2004-cü ildən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin zəngin siyasi irsinin öyrənilməsi və milli dövlətçilik ideyalarının təbliği məqsədi ilə yaradılmış Heydər Əliyev Fonduna rəhbərlik edir.

2004-cü ilin avqustunda Azərbaycan şifahi xalq ədəbiyyatı və milli musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsində xidmətlərinə görə UNESCO-nun Xoşməramlı səfiri adına layiq görülüb.

2004-cü ilin dekabrında Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilib.

2004-cü ildən Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2013-cü ildən isə Partiyanın sədr müavinidir.

2005-ci ildə fəlsəfə üzrə fəlsəfə doktoru alimlik dərəcəsi alıb.

2005, 2010 və 2015-ci illərdə üçüncü, dördüncü və beşinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı seçilib.

Humanitar sahədə genişmiqyaslı fəaliyyətinə, o cümlədən sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına, İslam mədəni irsinin təbliğinə və qayğıya ehtiyacı olan uşaqların problemlərinin həllində böyük dəstəyə görə 2006-cı ilin noyabrında ISESCO-nun Xoşməramlı səfiri adına layiq görülüb.

2016-cı ilin iyununda Bakıda keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayında Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü seçilib.

2017-ci il fevralın 21-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilib.

Ailəlidir, iki qızı, bir oğlu və beş nəvəsi vardır.



Onun həm rəsmi, həm də qeyri-rəsmi tədbirlərdə Birinci Xanımın milli üslublu libaslara üstünlük verməsi həmişə diqqətləri cəlb edib. Dövlətinə, onun milli dəyərlərinə, tarixi irsinə olan sevgisini həm qəlbində, ruhunda həm də cismində şərəflə və xüsusi şərafətlə daşımaq onu unikal, bənzərsiz edir.

Müslüm Maqomayevin 80 illiyi münasibətilə təşkil edilən tədbirdə birinci xanımın on yeddinci əsrə aid Şirvan xalçasından götürülən naxışlarla bəzədilmiş libası, ona uyğun aksesuarları füsunkarlığı ilə göz oxşayırdı.

Eləcə də Qarabağ xalçaçılıq nümunələri və Qarabağın simvolu olan Xarıbülbül naxışları ilə bəzədilən qiyafətləri inamlı və zərif obrazı ilə təqdim etməyi əvəzolunmaz bir fəxarət hissi yaradır.

Mehriban xanım Əliyeva indi prezidentimiz İlham Əliyevlə birlikdə o torpaqların dirçəldilməsinə, dünyanın cənnət guşəsi Qarabağın xoşbəxt gələcəyə qovuşması uğrunda əzmlə çalışır.

Azərbaycan Vətən müharibəsi nəticəsində 30 illik işğal dövrünə son qoydu və uğurlu antiterror əməliyyatımızla beynəlxalq hüquqla tanınmış sərhədlərimiz üzərində nəzarəti bərpa edərək ərazi bütövlüyü və suverenliyimizi tam bərpa etdik. Qarabağda düşmənin basdırdığı minalar təmizlənir və onun yerində bağ-bağat salınır, həyat yenidən başlayır. Biz Şuşada, Xankəndində, cənnət Qarabağımızın hər yerində eyni şövq, eyni inamla torpağımızın çoxdan gözlədiyi xoş gələcək üçün yorulmadan işləyirik. Qarabağ "Yaşıl enerji" zonası elan edilib, regionda ilk "Ağıllı kənd", "Ağıllı şəhər" konseptinin həyata keçirildiyi, nəhəng





infrastruktur layihələrinin qurulduğu bir mərkəz statusu almaqdadır. Qoyulan hər bünövrədə isə müdrik prezidentimizin və Mehriban xanımın iştirakı var.

"Heydər Əliyev" ordeni (Azərbaycan Respublikası), "Şərəf Legionu" ordeni (Fransa Respublikası), "Dostluq" ordeni (Rusiya Federasiyası), "Xidmətlərə görə" Böyük Xaç Kavaleri ordeni (İtaliya Respublikası), "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeni (Polşa Respublikası), "Hilal-e Pakistan" ordeni (Pakistan İslam Respublikası), "Sreten" ordeni (Serbiya Respublikası), "Macarıstanın Xidmətlərə görə Komandor Xaçı" ordeni, II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni (Rus Pravoslav Kilsəsi), "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeni (Rusiya Federasiyası), UNESCO-nun "Qızıl Motsart" medalı, BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının qızıl medalı, Krans Montana Forumunun Qızıl medalı və "Prix de la Fondation" mükafatı, Avropa Olimpiya Komitələrinin Ali Ordeni, Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin "Xüsusi xidmətlərə görə" medalı, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin qızıl medalı, Küveyt Dövlətinin Fəxri diplomuna layiq görülüb.

Heydər Əliyev Mükafatı, Ümumdünya Səhiyyə Təşkilatı İcraiyyə Komitəsinin mükafatı, "Qızıl ürək" beynəlxalq mükafatı, Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatı, Türk-Alman Dostluq Federasiyasının fəxri mükafatını daşıyır.

Rusiya Federasiyasının İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb



Universitetinin Fəxri professoru, Bolqarıstanın Müqəddəs Kiril və Mefodi adına Veliko Tırnovo Universitetinin fəxri doktorudur.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva daim sosial məsələlərin həllinə xüsusi diqqət göstərib, mühüm təşəbbüslərlə çıxış edib. Onun təşəbbüsü ilə genişmiqyaslı və ictimai əhəmiyyətli layihələr müvəffəqiyyətlə həyata keçirilir.

Mehriban xanım Ümummilli Lider Heydər Əliyevin unudulmaz xatirəsinə böyük ehtiramının ifadəsi olaraq Ulu Öndərin adını daşıyan Fondun prezidenti kimi müqayisəyəgəlməz fəallıq və təşəbbüskarlıq nümayiş etdirir. Birinci vitse-prezidentimizin Vətənə, xalqa bağlılığı, daim qurub yaratmaq həvəsi, xeyirxahlıq və humanizmi Fondun həyata keçirdiyi layihələrin əsas qayəsini təşkil edir. Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz dəyərli - layiqli töhfəsini verir.

"Yeniləşən Azərbaycana yeni məktəb" proqramı uğurla davam etdirilir, paytaxt Bakıda və regionlarda çoxsaylı uşaq bağçaları, körpələr evi, xüsusi təyinatlı uşaq müəssisələri əsaslı şəkildə və yüksək səviyyədə təmir olunub, bütün növ avadanlıqlarla təchiz edilib.

Mehriban xanım həm də mədəniyyətimizin, incəsənətimizin, tarixi irsimizin böyük hamisi və təbliğatçısıdır. Təsadüfi deyil ki, onun rəhbərliyi ilə Heydər Əliyev Fondu, eyni zamanda, milli mədəniyyətimizin qorunması və inkişafı istiqamətində genişmiqyaslı fəaliyyət göstərir, eləcə də Azərbaycanın zəngin tarixi və mədəni irsi dünya ictimaiyyətinə çatdırılır.

Azərbaycan bu gün beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi çıxış edir. Bunu göstərən mühüm amillərdən biri ölkəmizdə mötəbər beynəlxalq tədbirlərin keçirilməsidir. Bu məqamda vurğulamaq yerinə düşər ki, Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq bacarığı sayəsində Azərbaycan mötəbər beynəlxalq tədbirlərə, o cümlədən mədəniyyət və idman tədbirlərinə uğurla ev sahibliyi edib. Məsələn, nüfuzlu "Eurovision-2012" beynəlxalq mahnı müsabiqəsi Bakıda ən yüksək səviyyədə keçirilib, bu, ölkəmizin dünyada tanıdılması işində xüsusi rol oynayıb. Eyni zamanda, 2015-ci ildə paytaxtımızda keçirilən ilk Avropa Oyunları zamanı Mehriban xanım Əliyevanın rəhbərliyi ilə çalışan "Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsinin yüksək əzmkarlığı sayəsində Azərbaycan Avropa Oyunlarının standartlarını müəyyənləşdirdi. Oyunların möhtəşəm açılış və bağlanış mərasimləri dünyaya Azərbaycanın güclü potensialını, eləcə də yüksək nüfuzunu və qüdrətini bir daha nümayiş etdirdi. 2017-ci ildə paytaxt Bakıda keçirilən IV İslam Həmrəylik Oyunlarının Təşkilat Komitəsi də Mehriban xanım Əliyevanın rəhbərliyi ilə uğurla fəaliyyət göstərdi, nəticə etibarilə, Azərbaycan IV İslam Həmrəylik Oyunlarına da müvəffə-



qiyyətlə ev sahibliyi etdi. Beləliklə, Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq bacarığı sayəsində ölkəmizdə uğurla keçirilən tədbirlər Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına müstəsna töhfələr verib. 2024-cü ildə, bir neçə aydan sonra isə ölkəmiz COP-29 kimi nüfuzlu bir beynəlxalq tədbirə evsahibliyi etməyə hazırlaşır və Azərbaycanın birinci xanımı bu mühüm hadisənin də uğurla həyata keçirilməsində öz təşəbbüskarlığı ilə seçilir.

Mehriban xanımın fəaliyyətinə ən böyük və səmimi qiyməti Prezident İlham Əliyev verib: “Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır”.

Bütövlükdə, Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti Azərbaycan xalqının və dövlətinin mənafeyinə xidmət edir. Azərbaycanın Birinci vitse-prezidenti ayrı-ayrı sahələrdə qarşıya qoyulmuş məqsədlərin gerçəkləşdirilməsinə, milli maraqlardan irəli gələn strateji əhəmiyyətli vəzifələrin reallaşdırılmasına xidmət edən səmərəli fəaliyyəti ilə xalqımızın dərin rəğbətini və sevgisini qazanıb.

Birinci vitse-prezident təyin olunduqdan bir neçə gün sonra “Rossiya 1” telekanalının “Vesti nedeli” proqramına müsahibəsində yeni təyinatın üzərinə qoyduğu böyük məsuliyyət barədə danışan Mehriban Əliyeva “Mən Prezidentin etimadını, ən başlıcası isə mənə inanan, ümid bəsləyən insanların etimadını doğrultmalıyam”, - dedi.

Əminliklə söyləmək olar ki, o, buna müvəffəq olub. Başqa sözlə, Mehriban xanım Əliyeva xalqımızın firavanlığı və qüdrətli dövlətimizin tərəqqisini naminə çoxşaxəli fəaliyyəti ilə Prezident İlham Əliyevin və ona inanan, böyük ümidlər bəsləyən insanların etimadını doğrultmağı bacarıb.

Bugün Azərbaycan qadını Mehriban Əliyeva ilə, onun nüfuzu ilə haqlı olaraq fəxr edir. Çağdaş Azərbaycan tarixinə onun adı artıq modern qadın rəhbər, qadın lider kimi yazılıb. Mehriban xanım təkcə Azərbaycan deyil, türk, müsəlman dünyasının və Yaxın Şərqin tanınmış xanım liderlərindən biridir.

Dünyamızda geosiyasi risklər və münaqişələr artıb. Bu çətin dönəmlərdə Azərbaycan qalib bir ölkə kimi bölgədə yeni bir nüfuz qazanıb, taleyüklü məsələlərdə öz dövlət maraqlarını qorumaqla yanaşı, həm də diqtə edə bilir.

Bu şərəfli və çətin işlərində Mehriban xanım Əliyevaya Ulu Tanrıdan möhkəm cansağlığı, uzun ömür və xoşbəxtlik diləyirik. Allah Azərbaycan xalqını, dövlətimizi Vətənimizi qorusun!

**İlhamə Abdullayeva,**
**"Biznes Həyatı" Jurnalının baş redaktoru**

# İqtisadiyyat naziri cənab Mikayıl Cabbarovun Sahibkarlar Günü və Azərbaycan Sahibkarlar Konfederasiyasının fəaliyyətinin 25 illiyi ilə əlaqədar **MÜRACİƏTİ**

*Hörmətli tədbir iştirakçıları!*
*Əziz sahibkarlar!*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə artıq 9 ildir ki, Azərbaycanda "Sahibkarlar Günü" qeyd olunur. Fürsətdən istifadə edərək bu münasibətlə biznes nümayəndələrini təbrik edirəm. Eyni zamanda, Azərbaycan Sahibkarlar Konfederasiyasının fəaliyyətinin 25 ili tamam olub. Özəl sektorun təşkilatlanması və maariflənməsi istiqamətində səmərəli iş aparan Konfederasiyaya fəaliyyətində uğurlar arzulayıram.

22 il öncə məhz 25 apreldə Ümummilli Lider Heydər Əliyevin sahibkarlarla keçirdiyi görüş xüsusilə məhsuldar keçmiş və həmin günün ölkəmizdə "Sahibkarlar günü" kimi qeyd edilməsi sahibkarların fəaliyyətinə, biznesin inkişafına göstərilən qayğının bariz nümunəsidir. Hər bir ölkənin sosial-iqtisadi inkişafı özəl sektorun inkişafı ilə birbaşa əlaqəlidir. Müstəqil Azərbaycanın da iqtisadi nailiyyətləri sahibkarlığın güclənməsi ilə müşayiət olunur. Görülən işlərin nəticəsidir ki, iqtisadi sferanın müxtəlif sahələri, o cümlədən, biznes fəaliyyəti üzrə artım göstəriciləri ildən-ilə nəzərəçarpacaq dərəcədə yüksəlir. Bu mənzərə doğru yolda olduğumuzu göstərir.

Dövlət-biznes münasibətlərində nail olduğumuz qarşılıqlı etimad və inam bizi daha yüksək nəticələrə aparacaq. Dövlət daim sahibkarın yanındadır, vicdanlı vergiödəyicisinin etibarlı tərəfdaşıdır. Bu, tətbiq olunan güzəştlərdə, stimullarda və digər dəstək mexanizmlərində aydın şəkildə əks olunur. Vətənini, xalqını sevən, sosial məsuliyyəti əsas prinsiplərdən biri kimi qəbul edən sahibkarlarımız da dövlətimizin tərəqqisi naminə sıx birləşib. Pandemiya və Vətən müharibəsi zamanı bütün ictimaiyyət bu birliyi bir daha müşahidə etdi.

Mən pandemiyadan əvvəlki - 2019-cu ilə qayıtmaq istəyirəm. 2019-cu ildən bü günə qədər biz cənab Prezidentin yaratdığı şərait sayəsində sizlərlə birlikgə çalışaraq özəl sektorda 385 mindən çox iş yeri yaratmağa nail olmuşuq. Bu, həqiqətən böyük nailiyyətdir və mən bir daha sizi həm təbrik edirəm, həm də təşəkkürümü bildirirəm.

Bu gün isə qarşımızda daha bir ümdə vəzifə durur. İşğaldan azad edilmiş ərazilərimizin dirçəldilməsinə töhfə vermək hər birimizin mənəvi borcudur. Biz bugünkü günlərin arzusu ilə yaşamışıq. Ona görə də bu prosesdə sahibkarlarımızın aktiv iştirakı xüsusilə önəmlidir.

Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda qısa müddətdə həyata keçirilən irimiqyaslı bərpa-quruculuq işləri dünya ictimaiyyətinin də diqqətini cəlb edir. Bu ərazilərdə fəaliyyət göstərən, yenidənqurma işlərində əməyi olan sahibkarlarımıza təşəkkür edirik və biznes nümayəndələrini Qarabağın və Şərqi Zəngəzurun iqtisadi reinteqrasiyasında daha aktiv fəaliyyətə səsləyirik.

Siz bilirsiniz ki, bu istiqamətdə dövlət tərəfindən çox böyük və geniş vergi güzəştləri və digər dəstək tədbirləri təqdim edilir. Bu yaxınlarda biz Qarabağda və Şərgi Zəngəzur iqtisadi rayonlarında sahibkarların layihələrini dəstəkləyən xüsusi investisiya mənbələrinin və əlavə güzəştli kreditlərin sistemini hazırlayıb təqdim etmək niyyətindəyik. Hər birinizi bu alətlərdən həm faydalanmaq, həm də ki, təşəbbüskarlıq göstərərək istər artıq fəaliyyət göstərən iki sənaye parkında, istərsə də bütün digər bölgələrdə fəaliyyətinizi qurmağa dəvət edirik.

Azərbaycanın dünyada öz layiqli mövqeyini qoruması, xalqımızın rifahı üçün sahibkarlarımız fəal təşəbbüslərə davam etməli, dövlətin artan dəstəyi fonunda şəffaflıq və intizam prinsiplərinə daim sadiq qalmalıdırlar. Bu yolda hər birinizə uğurlar arzulayır, ölkəmizdə fəaliyyət göstərən bütün sahibkarları bir daha səmimi qəlbdən təbrik edirəm.





# Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevin Sahibkarlar Günü və Azərbaycan Sahibkarlar Konfederasiyasının fəaliyyətinin 25 illiyi ilə əlaqədar **TƏBRİKİ**

Azərbaycan Respublikası  Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının yaradılmasının 25 illiyi münasibətilə konfederasiyanın rəhbərliyini və kollektivini səmimi qəlbdən təbrik edirəm. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasəti ölkəmizin dinamik tərəqqisini təmin edərək dövlətin daimi dəstəyi ilə əlverişli biznes mühitində özəl sektorun sürətli inkişafına təkan verib.

Zəfər dövrünü yaşayan Azərbaycanda milli iqtisadiyyatın dayanıqlı inkişafı, qeyri neft sektorunun genişlənməsi, sahibkarlığın iqtisadiyyatda və eyni zamanda məşğulluqda rolu ən önəmli fəaliyyət istiqamətlətimizdəndir. Çoxsaylı sahibkarlıq subyektlərini özündə birləşdirən Sahibkarlar Təşkilatı Milli Konfederasiyası bu prosesdə sahibkarlığın inkişafının dəstəklənməsində, iş adamlarının maraqlarının müdafiəsində daim fəal iştirak edir, mühüm xidmətlər göstərir. Son illər aparılan geniş miqyaslı islahatlar prosesində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi olaraq konfederasiya ilə fəal əməkdaşlıq edirik. Əmək qanunvericiliyinin təkmilləşdirilməsi, aktiv məşğulluq proqramlarının icrası, korporativ sosial məsuliyyət çərçivəsində həssas qruplara dəstək göstərilməsi və digər istiqamətlərdə bizim uğurlu sosial tərəfdaşlığımız bunu bir daha təsdiq edir.

Yekunda bir daha konfederasiya rəhbərliyini və kollektivini ürəkdən təbrik edirəm, sahibkarlığın, milli iqtisadiyyatın inkişafına verilən mühüm töhfənin konfederasiyanın fəaliyyətində yeni-yeni uğurlarla təcəssüm olunmasını arzu edirəm.

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyevin Sahibkarlar Günü və Azərbaycan Sahibkarlar Konfederasiyasının fəaliyyətinin 25 illiyi ilə əlaqədar
# TƏBRİKİ

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyasının yaranmasının 25 illik yubileyi münasibətilə qurumun Prezidenti, hörmətli Məmməd Musayevi, Konfederasiyanın bütün əməkdaşlarını, eləcə də üzv təşkilatların rəhbərlərini və kollektivini həmkarlar ittifaqlarının üzvləri və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edir, şərəfli və məsuliyyətli işlərində böyük nailiyyətlər diləyirəm.

Əminliklə deyə bilərik ki, özündə 7000-dən çox sahibkarlıq subyektini, o cümlədən 70-ə qədər iqtisadi və sosial yönümlü assosiasiya və ittifaqı birləşdirən Azərbaycan Sahibkarlar Konfederasiyası fəaliyyət göstərdiyi bu illər ərzində Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasına, ölkəmizin sosial-iqtisadi problemlərinin həllinə ləyaqətlə dəstək vermişdir. Qurum işəgötürənlərin hüquqlarını, əmlak və digər qanuni mənafelərini ən ali səviyyədə müdafiə edir, respublikamızda bazar infrastrukturunun daha da möhkəmlənməsinə və sahibkarlığın inkişafına yaxından kömək olur.

Məlumdur ki, ölkəmizin iqtisadi inkişaf strategiyasının mərkəzində sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin yaradılması dayanır. Dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sağlam sahibkarlıq mühitinin formalaşması istiqamətdə aparılan ardıcıl və məqsədyönlü tədbirlərin nəticəsidir ki, bu gün sahibkarlıq ölkə iqtisadiyyatının əsas aparıcı hissəsinə çevrilib.

Azərbaycan həmkarlar ittifaqları ilə də Sahibkarlar Konfederasiyası arasında səmərəli əməkdaşlıq mühiti mövcuddur. Biz qarşılıqlı əmək və sosial-iqtisadi münasibətlərin əsasını sosial tərəfdaşlıq çərçivəsində imzalanan Baş Kollektiv Sazişin müəyyən etdiyi öhdəliklərin yerinə yetirilməsində görürük.

Ümidvaram ki, Azərbaycan Sahibkarlar Konfederasiyası müasir inkişafın reallıqları və günümüzün çağırışlarına əsaslanaraq bundan sonra da öz işini daha peşəkar səviyyədə təşkil edəcək, sahibkar-dövlət, sahibkar-işçi münasibətlərinin tənzimlənməsinə, ölkəmizdə sahibkarlığın dayanıqlı inkişafına dəstək olacaqdır.

Mən bir daha Konfederasiyaya fəaliyyətində yeni-yeni uğurlar və bol nailiyyətlər arzulayıram.




the Republic of Azerbaijan
KOBİA
KOBİA
Small and Medium Business
Development Agency of
the Republic of Azerbaijan
KOBİA

# Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədovun Sahibkarlar Günü və Azərbaycan Sahibkarlar Konfederasiyasının fəaliyyətinin 25 illiyi ilə əlaqədar **TƏBRİKİ**

Azərbaycan Sahibkarlar Konfederasiyasını 25 illik yubileyi münasibəti ilə KOBİA ailəsi olaraq təbrik edir, fəaliyyətlərində uğurlar arzulayırıq.

Dövlət və özəl sektor arasında tərəfdaşlığın keyfiyyətcə yeni mərhələyə yüksəldiyi dövrdə məsuliyyətin tərəflər arasında optimal paylaşdırılması müasir dünyanın çağırışlarındandır. Bu mənada ölkəmizdə dövlət və özəl sektor arasında səmərəli əməkdaşlığın bugünkü inkişafı təqdirəlayiqdir.

Minlərlə sahibkarı sıralarında birləşdirən Azərbaycan Sahibkarlar Konfederasiyası da dövlət-özəl dialoqunun inkişafına öz töhfəsini verən qurumlardandır. Ötən 25 ildə konfederasiyasının bu sahədəki səmərəli fəaliyyəti diqqətəlayiqdir. KOBİA dövlət-özəl tərəfdaşlığı, eləcə də sahibkarlıqla bağlı bir sıra istiqamətlər üzrə Azərbaycan Sahibkarlar Konfederasiyası ilə sıx əməkdaşlıq edir, müxtəlif tədbirlər və layihələr həyata keçirir.

Əminik ki, bu əməkdaşlığımız bundan sonra ölkəmizdə sahibkarlığın davamlı inkişafına öz müsbət töhfəsini verəcəkdir.


AZƏRBAYCAN
RESPUBLİKASININ
İQTİSADİYYAT
NAZİRLİYİ
ASK

# "Sahibkar günü"nə və Azərbaycan Sahibkarlar Konfederasiyasının yaranmasının 25 illiyinə həsr olunmuş "Azərbaycanın sosial-iqtisadi inkişafının yeni dövrü" mövzusunda keçirilən Konfransda Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti cənab Məmməd Musayevin çıxışı

Hörmətli Konfrans iştirakçıları, xanımlar və cənablar!

Sizi Azərbaycan Sahibkarlar Konfederasiyası adından ürəkdən salamlayıram!

Azərbaycan Respublikasının hazırkı dayanıqlı inkişafı və hərtərəfli tərəqqisinin əsası xalqımızın ümumilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Ümummilli liderin sahibkarlarla keçirilən görüşləri, üzləşdikləri problemlərin nədən ibarət olduğunu bilavasitə onların öz dilindən eşitməsi və bunların qısa müddət ərzində həlli üçün konkret tapşırıqlar, Fərman və Sərəncamlar verməsi, dövlət proqramlarının qəbul edilməsi özəl sektorun təmsilçilərinə yüksək diqqətin təzahürü idi.

Belə görüşlərə nümunə kimi 2002-ci ilin 25 aprel tarixində yerli və 14 may tarixində xarici iş adamları ilə keçirilən görüşləri göstərmək olar. Bu görüşlərdə sahibkarlığın inkişafı yolları araşdırılmış, bu inkişafa mane olan əngəllərin aradan qaldırılması üçün konkret tədbirlər müəyyənləşdirilmiş, növbəti illər üçün Azərbaycanda sahibkarlığın inkişafı ilə bağlı Dövlət Proqramları təsdiq olunmuşdur.

Məhz bu görüşlərin Azərbaycan sahibkarlığının inkişafında mühüm tarixi əhəmiyyətini, habelə ölkənin iqtisadiyyatında sahibkarların artan rolunu, məşğulluğun təmin olunmasında sahibkarlığın inkişafının müstəsna əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 aprel 2016-cı il tarixli Sərəncamına əsasən hər il aprelin 25-i Azərbaycanda "Sahibkarlar Günü" kimi qeyd olunur.

Ötən illər ərzində Azərbaycanda iqtisadiyyatın dayanıqlığı üçün sahibkarlığın inkişafı prioritet istiqamət kimi ölkə Prezidentinin diqqət mərkəzində olmuş və bu sahədə mühüm uğurlar əldə edilmişdir.

Azərbaycanda biznesin, sahibkarlığın inkişafı, biznesə münbit şəraitin, dövlət təşviq mexanizmlərinin yaradılması, xüsusən də 44 günlük Vətən müharibəsindəki və 23 saatlıq lokal antiterror əməliyyatındakı qələbəmiz biz sahibkarların işləmək əzmini daha da artırıb.

Heydər Əliyev siyasi və iqtisadi kursunu uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyev milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək, ölkənin bütün potensialını intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etmişdir.

Ölkə Prezidenti çıxışlarının birində yerli sahibkarlara müraciət edərək demişdir: "Mən çalışacağam ki, sizə maksimum dərəcədə sərbəstlik verilsin. Maksimum dərəcədə imkanlar yaradılsın ki, siz sərbəst, azad, rahat şəkildə öz fəaliyyətinizi davam etdirəsiniz". Bu gün biz deyə bilərik ki, Azərbaycan sahibkarları bunu öz gündəlik işilərində daim hiss edirlər.

Belə ki, son illərdə dünya iqtisadiyyatında qeyri-müəyyənliklər və resessiya riskləri daha da artmışdır. Təchizat zəncirində yaranmış problemlər, həmçinin enerji daşıyıcılarının və ərzaq məhsullarının qiymətlərinin artması qlobal inflyasiyanın yüksək səviyyəyə qalxmasına səbəb olmuşdur. Qeyd edilən proseslər fonunda Azərbaycan iqtisadiyyatında yüksək artım dinamikası davam etmişdir.

Dövlət başçısının həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir ki, 2024-cü ilin ilk üç ayında ölkədə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4 faiz çox ümumi daxili məhsul istehsal olunmuş, xüsusilə iqtisadiyyatın qeyri neft-qaz sektorunda 7 faizə yaxın artım müşahidə olunmuşdur. Bu dövrdə qeyri neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi 4,8 faiz artmış, əsas kapitala yönəldilmiş investisiyaların 80 faizini daxili investisiyalar təşkil etmişdir ki, bu da ölkədə sahibkarlığın inkişafının real göstəricisidir.

Ölkədə aparılan genişmiqyaslı işlər nəticəsində sahibkarlar ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilmişdir. Sahibkarlığa dövlət dəstəyi tədbirlərinin həyata keçirilməsi nəticəsində mühüm nailiyyətlər əldə edilmiş, dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, sahibkarlığın dövlət tənzimlənməsi sisteminin formalaşması, iri şəhərlərlə yanaşı regionlarda da sahibkarlığın inkişafına münbit şərait yaranması nəticəsində özəl bölmənin Ümumi Daxili Məhsulda payı 83,5 faiz, məşğulluqda payı isə təqribən 78 faiz təşkil etmişdir.

Sahibkarlığın inkişafı sahəsində həyata keçirilən sistemli tədbirlər nəticəsində 2023-cü ildə də nüfuzlu beynəlxalq qurumların reytinqlərində Azərbaycan iqtisadi göstəricilərinə görə yuxarı sıralarda yer almışdır.

Belə ki, beynəlxalq kredit reytinq agentliyi (Fitch Rating) Azərbaycan Respublikasının uzunmüddətli yerli

və xarici valyutada reytinqini müsbət qiymətləndirərək, proqnozun "sabit"dən "pozitiv"ə doğru yüksəldiyini bildirmişdir.

Məlum olduğu kimi, bu ilin fevral ayında keçirilmiş növbədənkənar prezident seçkilərində Azərbaycan sahibkarları öz seçimini etmiş və seçkilərdə birmənalı olaraq cənab İlham Əliyevə səs vermişlər.

Çünki keçən 20 il sübut etdi ki, İlham Əliyev hər bir Azərbaycan vətəndaşının Prezidenti olmaqla, Azərbaycan sahibkarlarının sonsuz məhəbbət bəslədiyi və daim əvəzolunmaz lideri kimi tanıdığı, etimad və etibar ünvanı saydığı rəhbərdir.

Prezident seçkiləri başa çatdıqdan sonra cənab İlham Əliyev andiçmə mərasimindəki çıxışında ölkəmizdəki biznes mühiti barədə qeyd etdi ki, "Müstəqillik dövründə əhalimiz 3 milyon artıb və artan əhalisi olan ölkələrdə işsizlik bir qayda olaraq ciddi problemdir, o cümlədən bizim üçün. Biz hər il 10 minlərlə yeni iş yeri yaratmalıyıq. Bunun üçün əlbəttə ki, daxili resurslar kifayət deyil. Xarici sərmayəyə ehtiyac var və iqtisadi islahatlar, o cümlədən biznes mühitinin yaxşılaşdırılması, rəqabətlə bağlı, inhisarçılığa qarşı olan tədbirlər bu biznes mühitini yaxşılaşdıracaq. Əlbəttə ki, Qarabağ və Şərqi Zəngəzur bizim iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi olacaqdır. O bölgələrdə həm kənd təsərrüfatı, həm bərpaolunan enerji ilə bağlı layihələr, turizm layihələri qeyri-neft sektoruna böyük dəstək verəcəkdir."

Bütün bunlar ölkəmizdə sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyinin bariz nümunəsidir.

Öz ətrafında minlərlə sahibkarlıq subyektini, iqtisadi və sosialyönümlü assosiasiya və ittifaqları birləşdirən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ölkəmizdə sahibkarlığın inkişafı istiqamətində öz qüvvə və imkanlarını səfərbər etmişdir.

Konfederasiya 15 daimi komissiya, xarici ölkələrdəki 26 nümayəndə və respublika üzrə 48 rayonda olan nümayəndə ilə təmsil olunur.

Azərbaycan Sahibkarlar Konfederasiyası, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə birlikdə ölkənin sosial-iqtisadi siyasəti üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyətlərini müəyyən edən Baş Kollektiv Saziş bağlayır. Hökumətin tərəfdaşı kimi, Azərbaycan Sahibkarlar Konfederasiyası üzərinə götürdüyü öhdəlikləri yerinə yetirir.

*Hörmətli tədbir iştirakçıları,*

Məlum olduğu kimi, iqtisadiyyatın dayanıqlı inkişafı üçün ölkədə aparılan işlər arasında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçirilməsi xüsusi uğur kimi qiymətləndirilir. Cənab Prezident İlham Əliyevin Sərəncamı ilə Təşkilatda özəl sektoru Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası təmsil edir.

Təsadüfi deyil ki, dövlət və özəl sektor arasında səmərəli tərəfdaşlığın keyfiyyətcə növbəti mərhələyə yüksəldilməsi və risklərin, məsuliyyətin dövlət və özəl sektor arasında optimal paylaşdırılması müasir dünyanın ən mühüm çağırışlarından biridir. Bu dayanıqlı inkişaf üçün mühüm alətlərdən hesab olunur və əsas məqsədi müvafiq investisiya mühitinin təkmilləşdirilməsi yolu ilə bu sahədə beynəlxalq investisiyaların ölkəmizə axınının stimullaşdırılmasından ibarətdir.

Odur ki, ölkə başçısının sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmiş və 2022-2026-cı illər üzrə tədbirlər planı təsdiqlənmişdir.

Bu hədəflərə nail olunmasında isə özəl sektorun üzərinə böyük məsuliyyət və öhdəliklər düşür və Azərbaycan sahibkarlar Konfederasiyası bu missiyanı uğurla icra etməkdə biznesə dəstək verməyə hazırdır.

Sahibkarların qarşılaşdığı məsələlərin operativ şəkildə həllinə nail olmaq üçün yaradılan əlverişli mexanizmlərdən biri də Əməkdaşlıq Şuralarıdır. Hazırda Konfederasiyanın Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Azərbaycan Mərkəzi Bankı, Dövlət Gömrük Komitəsi ilə Əməkdaşlıq Şuraları fəaliyyət göstərir. Bu Şuralar sahibkarların qaldırdıqları məsələlərin həllində müstəsna rola malikdir və dövlət-özəl dialoqunun ən işlək mexanizmlərindən biridir.

Bütün bunlarla yanaşı, Azərbaycan Sahibkarlar Konfederasiyası hər il beynəlxalq əlaqələr sahəsində işini təkmilləşdirir və müxtəlif beynəlxalq təşkilatlarla əlaqələr yaratmaq imkanlarından istifadə edir. Belə ki, Konfederasiya Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq İşəgötürənlər Təşkilatı, Türk Ticarət və Sənaye Palatası, İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Sənayeçilərin və Sahibkarların Beynəlxalq Konqresi və digər təşkilatlarda yüksək səviyyədə ölkəmizi təmsil edir.

Hörmətli Konfrans iştirakçıları,

Bu il yaranmasının 25 illik yubileyini qeyd etdiyimiz Azərbaycan Sahibkarlar Konfederasiyası olaraq ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında yeni-yeni iqtisadi uğurlara nail olacağımıza inanırıq.

Əminik ki, işğaldan azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda ən yeni texnologiyaların tətbiqi, yeni iş yerlərinin yaradılması, bərəkətli torpaqlarımıza yenidən həyatın qayıtması, əhalinin rifah halının yaxşılaşdırılmasında ümumilikdə isə iqtisadiyyatımızın inkişafında mühüm rol oynayacaqdır. Bu istiqamətdə qət edəcəyimiz yolda dövlət-özəl birliyi öz töhfəsini verməkdə davam edəcəkdir.

Hər birinizi Sahibkarlar günü və 25 illik yubileyimiz münasibətilə ürəkdən təbrik edirəm.

Diqqətinizə görə təşəkkür edirəm!



COP29
Baku
Azerbaijan

# Yaşıl dünya naminə həmrəy olaq!

BMT-nin İqlim Dəyişmələri üzrə
Çərçivə Konvensiyasının
Tərəflər Konfransının 29-cu sessiyası

United Nations
Climate Change

COP29
Baku
Azerbaijan




MƏQALƏ

BİZNES HƏYATI

**Roberto Suarez Santos**
Beynəlxalq İşəgötürənlər Təşkilatının İcraçı direktoru

# IOE-nin İcraçı direktoru: "Yaşıl bacarıqlara tələbin artımı təklif artımını üstələyir"

2023-cü ilin dekabrında Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində daha çox COP28 kimi tanınan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına (UNFCCC) üzv olan 198 ölkə (prosesin rəsmi dilində Konvensiyaya üzv olan ölkələr) Tərəflərin 28-ci Konfransında görüşdülər. Bu, indiyədək ən böyük COP idi və qeyri-dövlət maraqlı tərəfləri, ev sahibi Hökumət tərəfindən bir çox mühüm qərarlar, layihələr və təşəbbüslər, eləcə də rəsmi danışıqlar qərarları (məsələn, 2030-cu ilə qədər qlobal miqyasda bərpa olunan enerjinin üç dəfə artırılması) ilə nəticələndi. Əhəmiyyətli olan odur ki, üzv ölkələr də razılaşdılar və Azərbaycanın 11-22 noyabr 2024-cü il tarixlərində Bakıda keçiriləcək iqlim dəyişikliyi üzrə növbəti COP29 toplantısının Sədrliyi və ev sahibi olacağını bildirdilər.

COP29 Azərbaycan Sədrliyinin planı iki əsas fəaliyyət sütununa əsaslanır. Birincisi - ambisiyaları artırmaq - bütün tərəflərin iddialı milli planlara və şəffaflığa sadiqliyini təmin etmək üçün əsas elementlərə diqqət yetirir. İkincisi - fəaliyyətə imkan vermək - ambisiyaları fəaliyyətə çevirmək və emissiyaları azaltmaq üçün əsas amil olan maliyyənin roluna əsaslanır. COP29 artıq maliyyə COP-u adlandırılıb, çünki o, gələcək

beynəlxalq iqlim maliyyələşdirilməsi üçün çərçivə yaradacaq mühüm və çətin Yeni Kollektiv Kəmiyyət Məqsədi (NCQG) ilə bağlı danışıqlar aparmalı olacaq.

150-dən çox üzvü olan Beynəlxalq İşəgötürənlər Təşkilatı (IOE) Azərbaycanda ASK kimi təşkilatlar şəbəkəsi ilə ÇNL konfranslarında rəsmi müşahidəçi təşkilat kimi qlobal işəgötürənlər cəmiyyətini fəal şəkildə cəlb edir və təmsil edir. IOE-nin COP28-də iştirakı əhəmiyyətli idi və COP27 fəaliyyətlərinə əsaslanaraq əhəmiyyətli bir mərhələ oldu. IOE Deloitte, MEDEF (Fransa Müəssisələr Hərəkatı), LinkedIn, Volvo Group və Cargill ilə birgə Mavi Zona daxilində ilk İşəgötürənlər və Yaşıl Bacarıqlar Pavilyonunu keçirdi.

Pavilyon IOE-nin qlobal işəgötürənlər cəmiyyəti üzvləri və tərəfdaşları üçün xüsusi bir məkan rolunu oynadı, yaşıl bacarıqların inkişafının vacibliyini təbliğ etdi, yeni əlaqələr və əməkdaşlıq imkanları yaratdı, eləcə də iqlim fəaliyyəti və özəl sektorun prioritetləri kontekstində müxtəlif məşğulluq, əmək bazarı və ədalətli keçid aspektlərinə yönəlmiş bir çox əlavə tədbirlərə ev sahibliyi etdi. IOE, ABŞ Beynəlxalq Biznes Şurası (USCIB), Hindistan Sənaye Konfederasiyası (CII) və İspaniya Biznes Təşkilatları Konfederasiyası (CEOE) ilə əməkdaşlıqda rəsmi UNFCCC yan tədbiri də daxil olmaqla, Pavilyonunda 10-dan çox tədbir təşkil etdi.

IOE və onun üzvləri həmçinin Ədalətli Keçid İş Proqramı üçün işəgötürənlərin prioritetləri ilə bağlı əsas müzakirəçilər və hökumətlərlə fəal şəkildə məşğul olmuş və iqlim fəaliyyətində müəssisələrə məşğulluğun və dəstəyin əhəmiyyətini təşviq etmək üçün BƏT ilə işləmişdir. IOE COP-da biznes dairəsində, xüsusən də Ədalətli Keçid İş Proqramında aparıcı rol oynamışdır.

COP29-da müzakirə ediləcək əsas mövzulardan biri 2025-ci il üçün yeni Milli Müəyyənləşdirilmiş Töhfələrin (MDM) hazırlanmasıdır. MDM emissiyaları azaltmaq və iqlim təsirlərinə uyğunlaşmaq üçün milli iqlim fəaliyyət planıdır. Paris Sazişinin hər bir Tərəfindən MDM yaratmaq və onu hər beş ildən bir yeniləmək tələb olunur. Planlar hədəflərə necə çatmağı müəyyənləşdirir və ölkənin karbonsuzlaşdırma məqsədləri üçün normada qalması üçün tərəqqi izləmək və yoxlamaq üçün sistemləri işləyib hazırlayır. MDM-lər arasında çox dəyişkənlik var, müxtəlif ölkələr müxtəlif prioritetlərə diqqət yetirir və bir sıra elementlər və prioritetləri ehtiva edir. MDM-lər ardıcıl, hərtərəfli olmalı və ölkənin iqlim fəaliyyətinin bütün aspektləri üzrə planlarını necə həyata keçirəcəyini izah edən konkret tədbirlər və siyasətləri ehtiva etməlidir. Beləliklə, onlar olduqca mürəkkəb ola bilər, inkişaf etdirmək və tətbiq etmək üçün əhəmiyyətli imkanlar, təcrübə və resurslar tələb edir. Beynəlxalq Əmək Təşkilatı (BƏT), BMT İnkişaf Proqramı (UNDP), eləcə də çoxtərəfli inkişaf bankları kimi bir çox beynəlxalq təşkilatlar MDM-in inkişafı üçün texniki yardım və potensialın yaradılmasını təmin edir.

Azərbaycan həmçinin yeni MDM hazırlayır və ona bir çox əlavə elementlər və gücləndirilmiş məqsədlər daxil ediləcək. Özəl sektorun bu layihəyə daxil edilməsi və konsultasiyası əsas element olmalı, müəssisələrə dəstək, bacarıqların inkişafı və iqtisadiyyatın şaxələndirilməsi siyasətləri kimi biznes prioritetləri diqqət mərkəzində olmalıdır.

2019-cu ilə qədər MDM-lər üçün BƏT müəyyən edib ki, “ölkələrin üçdə ikisi öz MDM-lərində potensialın inkişafı və iqlim dəyişikliyi üzrə savadlılığın vacibliyini qəbul edir, lakin qlobal miqyasda MDM-lərin 40%-dən az hissəsi onların həyata keçirilməsini dəstəkləmək üçün hər hansı bacarıqların təlimi planlarını əhatə edir və 20%-dən çoxu insan kapitalı ilə bağlı heç bir fəaliyyət planlaşdırmır”. İddialı iqlim fəaliyyətinə imkan verilməsinə gəldikdə, bizim bütün sektorlarda işi görmək üçün bacarıq və işlərə malik

> 50-dən çox üzvü olan Beynəlxalq İşəgötürənlər Təşkilatı (IOE) Azərbaycanda ASK kimi təşkilatlar şəbəkəsi ilə ÇNL konfranslarında rəsmi müşahidəçi təşkilat kimi qlobal işəgötürənlər cəmiyyətini fəal şəkildə cəlb edir və təmsil edir.

işçi qüvvəsinə ehtiyacımız var. MDM-lərin bu növbəti raundunda bacarıqların inkişafının əhəmiyyətinin tanınması və investisiya qoyuluşu əsas element olmalıdır.

LinkedIn araşdırmasına görə, dünyada hər səkkiz işçidən yalnız biri bir və ya daha çox yaşıl bacarıqlara malikdir. Başqa sözlə, hər səkkiz işçidən yeddisində bircə dənə də olsun, yaşıl bacarıq yoxdur. Yaşıl bacarıqlara tələbin artımı təklif artımını üstələyir: 2022-2023-cü illər arasında işçi qüvvəsində yaşıl istedadların payı median 12,3% artıb, ən azı bir yaşıl bacarıq tələb edən iş elanlarının payı isə iki dəfə sürətlə artıb — orta hesabla 22,4%. 2018 və 2023-cü illər arasında beş illik illik artım tempi oxşar tendensiyanı ortaya qoyur. Yaşıl istedadların payı həmin dövr ərzində ildə 5,4%, ən azı bir yaşıl bacarıq tələb edən işlərin payı isə 9,2% artıb. Bundan əlavə, yaşıl bacarıqlara sahib kişi və qadınların konsentrasiyası arasında əhəmiyyətli və artan bir boşluq var.

Keçidlər zamanı bərpa olunan enerji, elektrik nəqliyyat vasitələri, eyni zamanda davamlı kənd təsərrüfatı,



binalar və infrastruktur kimi sektorlarda yaradılacaq iş yerləri, iqlim siyasətləri səbəbindən tədricən ləğv ediləcək və itiriləcək işlərdən fərqli olaraq, çox vaxt fərqli yerlərdə və fərqli vaxt çərçivələrində olur. Bu, bu pozulmaları idarə etmək və minimuma endirmək zərurəti ilə əlaqədar ölkələr və iqtisadiyyatlar üçün əhəmiyyətli problem yaradır. İqtisadiyyatın diversifikasiyası, sənaye siyasəti, bacarıqların inkişafı, müəssisələrə dəstək, innovasiya və texnologiyaya çıxış və xüsusi maliyyələşdirmə rəqabət qabiliyyətini və dayanıqlı iqtisadiyyatlar yaradan uğurlu keçidi təmin etmək üçün inkişaf etdirilməli və uyğunlaşdırılmalı olan mühüm elementlərdir. Bir çox risklər var və yanlış idarə olunan iqlim siyasəti də iqlim fəaliyyətinə inamı sarsıdan və pozucu sosial-iqtisadi nəticələrlə nəticələnən gözlənilməz nəticələr yarada bilər. IOE-nin son təhlili bu məsələlərlə bağlı daha ətraflı məlumat verir və işəgötürənlər və hökumətlər üçün tövsiyələr verir.

McKinsey Qlobal İnstitutuna görə, keçid 2050-ci ilə qədər qlobal miqyasda təxminən 200 milyon qazanc və təxminən 185 milyon birbaşa və dolayı iş yerinin itirilməsi ilə nəticələnə bilər. BCG İqlim Miqrasiya Modelinə əsasən, yaşıl iqtisadiyyatda bacarıq boşluğu 2030-cu ilə qədər 7 milyona çatacaq. Bu, eyni zamanda həm problem, həm də fürsətdir; dünya üzrə biznes və hökumətlər iş yerləri yarada, iqlim dəyişikliyinin təsirlərini azalda və dayanıqlı iqtisadiyyatları təmin edə bilən layihələr, fəaliyyətlər və xidmətlər həyata keçirir və birgə təşəbbüslər həyata keçirir. İşəgötürənlər və bizneslər bu kontekstdə əsas oyunçulardır və bir çoxları artıq iqlim dəyişikliyinin, eləcə də iqlim siyasətlərinin öz əməliyyatlarına əhəmiyyətli təsirlərini qəbul edirlər.

IOE nəşrlər, müzakirələr, seminarlar və Yaşıl Bacarıqlar üçün İşəgötürənlər Alyansı kimi təşəbbüslər vasitəsilə bu məsələlər üzrə üzvlərlə fəal işləyir. İşəgötürənlər təşkilatları siyasətin qəbulu proseslərinə cəlb edilməli və məsləhətləşmələr aparmalı və onlar həmçinin öz üzvlərinə məsləhət, rəhbərlik və texniki yardım göstərməlidirlər. 2023-cü ildə BƏT ədalətli keçidlə bağlı Qətnamə və bir sıra nəticələr qəbul etdi ki, bu da işəgötürənlərlə masa arxasında müzakirə olunub və hökumətlər üçün yüksək səviyyəli təlimat və tövsiyələr təqdim edir. BƏT bu məsələ üzərində fəal işləyir və fəaliyyətə dəstək verə biləcək çoxlu resurslara malikdir.

Bakıda COP29 ilə bağlı çoxlu gözləntilər var və bir çox iştirakçı Azərbaycan sədrliyindən liderlik və iqlimin maliyyələşdirilməsi və MDM inkişafının əsas məsələləri üzrə irəliləyiş axtarmaq üçün gələcək. Yeni qəbul edilmiş Ədalətli Keçid İş Proqramı IOE-nin diqqət mərkəzində olan sahələrdən biri olacaq və iqlim fəaliyyətinin əmək bazarına təsirlərini müzakirə etmək üçün çərçivə təmin edəcək. Bu, həmçinin ASK və Azərbaycan işəgötürənləri üçün bərpaolunan enerji, kənd təsərrüfatı və şəhər inkişafı kimi sektorlarda prioritetləri, çətinlikləri və irəliləyişləri haqqında məlumatlılığı artırmaq üçün bir fürsət olacaq. COP29 həmçinin biznesin inkişafı, beynəlxalq əməkdaşlıq və yeni tərəfdaşlıqlar, müxtəlif maraqlı tərəflərlə əlaqə üçün imkanlar yarada bilər. IOE ASK ilə güclü tərəfdaşlığı və COP29-un bacarıqların inkişafı, təlim və gözləməyə, bizneslər, xüsusən də KOM-lar və inkişaf etməkdə olan iqtisadiyyatlar üçün əlverişli mühitə, Azərbaycanın biznes prioritetlərinə və davamlı inkişafa güclü diqqət yaratmasını təmin edəcək birgə fəaliyyətləri səbirsizliklə gözləyir.

Növbəti günlərdə COP29 Sədrliyi prioritet sahələr və ölkə üçün əsas fəaliyyət sahələrini vurğulayacaq COP29 üçün gündəlik gündəliyi olan tematik proqramını elan edəcək. IOE və ASK istənilən suallar, maraq ifadələri üçün əlçatandır və noyabr ayına qədər fəaliyyətləri haqqında onlayn yenilikləri təqdim edəcək.



ARTICLE

BİZNES HƏYATI

**Roberto Suarez Santos**
Secretary-General
INTERNATIONAL ORGANISATION OF EMPLOYERS (IOE)

# Secretary-General of IOE: "Growth in demand for green skills is outpacing the increase in supply"

In December 2023 in Dubai, United Arab Emirates, the 198 countries (Parties to the Convention in the official language of the process) that are members of the United Nations Framework Convention on Climate Change (UNFCCC) met at the 28th Conference of the Parties, better known as COP28. This was the largest COP so far and sparked many landmark decisions, projects and initiatives by non-State stakeholders, the host Government, as well as the official negotiation decisions (like tripling renewable energy globally by 2030). Importantly, member countries also agreed and announced that Azerbaijan will be the Presidency and host of the next meeting on climate change, COP29, to be held in Baku, 11-22 November 2024.

The COP29 Azerbaijan Presidency's plan is based on two main action pillars. The first one — to enhance ambition — focuses on key elements to ensure all parties commit to ambitious national plans and transparency. The second one — to enable action — is based on the role of finance, which is a key factor for turning ambition into action and reducing emissions. COP29 has already been titled as the finance COP because it will have to negotiate the important and difficult New Collective Quantified Goal (NCQG) which will establish the framework for further international climate financing.

The International Organisation of Employers (IOE), with its network of over 150 members, organisations like ASK in Azerbaijan, has been actively engaging and representing the global employer community as an official observer organization at COP conferences. IOE's involvement at COP28 was substantial and marked a significant milestone, building on COP27 activities. IOE hosted the first-ever Employers and Green Skills Pavilion within the Blue Zone, in collaboration with Deloitte, MEDEF (Mouvement des Entreprises de France), LinkedIn, the Volvo Group and Cargill.

The Pavilion served as a dedicated space for IOE's global employer community of members and partners, promoting the importance of green skills development, establishing new relationships and collaboration opportunities as well as hosting many side-events focused on various employment, labour market and just transition aspects in the context of climate action and private sector priorities. IOE organised over 10 events at its Pavilion, including an official UNFCCC side-event in collaboration with the United States Council for International Business (USCIB), Confederation of Indian Industry (CII), and the Spanish Confederation of Business Organizations (CEOE).

IOE and its members also actively engaged with key negotiators and governments on employer priorities for the Just Transition Work Programme and worked with the ILO to promote the importance of employment and support to enterprises in climate action. IOE took a leading role within the business constituency at COP, in particular the Just Transition Work Programme.

One of the main topics that will be discussed at COP29 is the development of new Nationally Determined Contributions (NDCs) for 2025. An NDC is a national climate action plan to cut emissions and adapt to climate impacts. Each Party to the Paris Agreement is required to establish an NDC and update it every five years. The plans define how to reach the targets, and elaborate systems to monitor and verify progress so the country stays on track for its decarbonization objectives. There is a lot of variability across NDCs and different countries focus on different priorities and include a range of elements and priorities. NDCs are supposed to be coherent, comprehensive and include concrete measures and policies that explain how the country will implement its plans across all aspects of climate action. As such, they can be quite complex and require significant capacity, expertise and resources to develop and put in place. Many international organisations like the International Labour Organization (ILO), UN Development Programme (UNDP), as well as multilateral development banks provide technical assistance and capacity building for NDC development.

Azerbaijan is also developing a new NDC and will be including many additional elements and strengthened objectives. Including and consulting the private sector in this project should be a key element and business priorities like support for enterprises, skills development and economic diversification policies need to be a focus.

For NDCs up to 2019, the ILO found that "two-thirds of countries recognize in their NDCs the importance of capacity development and climate change literacy, but less than 40% of NDCs globally include any plans for skills training to support their implementation, and over 20% do not plan any human capital related activities at all." When it comes to enabling ambitious climate action, we need a workforce across all sectors with the skills and jobs to do the work. In this next round of NDCs, recognition of the importance and investment in the development of skills should be a key element.

According to LinkedIn research, around the world, only one in eight workers has one or more green skills. Put another way, seven in eight workers lack even a single green skill. Growth in demand for green skills is outpacing the increase in supply: Between 2022 and 2023, the share of green talent in the workforce rose by a median of 12.3% while the share of job postings requiring at least one green skill grew twice as quickly — by a median of 22.4%. The five-year annualized growth rate between 2018 and 2023 reveals a similar trend. The share of green talent grew by 5.4% per year over that period, while the share of jobs requiring at least one green skill grew by 9.2%. Additionally, there is a sizable and growing gap between the concentrations of men and women with green skills.

The jobs that will be created through the transitions, in sectors like renewable energy, electric vehicles, but also sustainable agriculture, buildings and infrastructure are often in different locations and over different timeframes than the jobs that will be phased out and lost because of climate policies. This creates a significant challenge for countries and economies because of the need to manage and minimize these disruptions. Economic diversification, industrial policies, skills development, enterprise support, innovation and technology access and dedicated funding are all important crucial elements that need to be developed and aligned to ensure competitiveness and a successful transition that creates sustainable economies. There are many risks involved and misguided climate policies can also create unintended consequences which undermine confidence in climate



action and result in disruptive socio-economic outcomes. Recent analysis from IOE goes into more details on these issues and provides recommendations for employers and governments.

According to the McKinsey Global Institute, the transition could result in a gain of about 200 million and a loss of about 185 million direct and indirect jobs globally by 2050. According to the BCG Climate Migration Model, the skills gap in the green economy will rise to 7 million by 2030. This is both a challenge and an opportunity at the same time; businesses and governments across the world are putting in place projects, activities and services and implementing collaborative initiatives that can create jobs, reduce climate change impacts and ensure sustainable economies. Employers and businesses are key players in this context and many are already recognizing the significant impacts of climate change but also climate policies on their operations.

IOE has been actively working with members on these issues through publications, discussions, workshops and initiatives like the Employers' Alliance for Green Skills. Employers' organisations need to be involved and consulted in policymaking processes and they also need to provide advice, guidance and technical assistance to their members. In 2023 the ILO adopted a Resolution and a set of conclusions on the just transition which was negotiated with employers at the table and provides high-level guidance and recommendations for governments. The ILO has been actively working on this issue and has many resources in place that can support action.

There are a lot of expectations for COP29 in Baku and many participants will come looking for leadership from the Azerbaijan presidency and progress on the main issues of climate finance and NDC development. The newly adopted Just Transition Work Programme will be one of the focus areas for IOE and will provide a framework to discuss labour market impacts of climate action. It will also be an occasion for ASK and Azerbaijan employers to raise awareness of their priorities, challenges and progress in sectors like renewable energy, agriculture and urban development. COP29 can also create opportunities for business development, international collaboration and new partnerships, collaboration, and engagement with diverse stakeholders. IOE is looking forward to a strong partnership with ASK and joint activities that will ensure COP29 creates a strong focus on skills development, training and anticipation, an enabling environment for businesses, particularly SMEs and emerging economies, and Azerbaijani business priorities and sustainable development.

In the following days, the COP29 Presidency will announce its thematic program, with priority areas, and a daily agenda for COP29 which will highlight the main areas of engagement for the country. IOE and ASK are available for any questions, expressions of interest and will be providing online updates on their activities in the lead up to November.



MƏQALƏ

BİZNES HƏYATI

**Ağanemət Ağayev**
İqtisad elmləri doktoru

# YAŞIL MALİYYƏ

Dünyada yaşıl enerji, yaşıl iqtisadiyyat terminləri ilə yanaşı yaşıl maliyyə də maraqlı mövzulardan biridir. Bu sahədə müsahibimiz "Daxili fiskal siyasət və dövlət maliyyəsi" ixtisası üzrə ekspert Ağanemət Ağayevdir.

*Ağanemət müəllim, müasir dünyada yaşıl iqtisdiyyat, yaşıl maliyyə ilə bağlı böyük çağırışlar şəraitində imkanları necə qiymətləndirirsiniz?*

Hər şeydən öncə müasir dünyamız, o cümlədən dayanıqlı inkişaf edən ölkəmiz üçün çox faydalı olan belə bir mövzuda gördüyünüz işlərdə sizə uğurlar arzu edirəm.

Araşdırmalar göstərir ki, dövlətlərin "yaşıl maliyyə" siyasəti istiqamətində mühüm maliyyə mənbələrindən əhəmiyyətli bir qrupu dövlətin fiskal alətləri ilə bağlıdır. Bunlardan ən perspektivliləri kimi "yaşıl istiqrazlar" və ya ətraf mühitin qorunması və yaxşılaşdırılması fəaliyyətinin maliyyələşməsinə xidmət edə biləcək fiskal borc alətlərini qeyd etmək olar. Bu xüsusda səmərəli maliyyələşdirmə istiqamətlərindən biri dövlətin borc qiymətli kağızlarının xarici və yerli maliyyə bazarlarında yerləşdirilməsi, başqa sözlə maliyyə kreditləri vasitəsilə xarici və daxili borclanma imkanlarından istifadə edilməsi ola bilər.

Dayanıqlı yaşıl maliyyə siyasəti məqsədləri baxımından maliyyə bazarları üçün nəzərdə tutulan istiqrazların emissiyası və tədavülü perspektivləri çox maraqlıdır. Bunun üçün yaşıl maliyyə məqsədləri üçün dərin və böyük maliyyə bazarlarına çıxışın həm nəzəri və empirik məsələləri ətraflı təhlil olunmalı, bunun əsasında hər bir ölkənin yerli şəraiti və iqtisadi resursları dəyərləndirilməklə real təşəbbüslər paketi hazırlanmalıdır.

*Ümumilikdə dünya ədəbiyyatı mənbələrində "yaşıl maliyyə" anlayışına necə izah verilir?*

Demək olar ki, hazırda "yaşıl maliyyə" anlayışının tam dəqiqləşmiş və ümumilikdə qəbul edilmiş vahid tərifi yoxdur.

Birincisi, bir çox nəşrlər bir sıra terminlər kimi bu ifadəni də konkret müəyyən etməyə çalışmır. Digər qrup mənbələrdə isə yanaşmaların xeyli fərqliliyinə rast gəlirik.

Bütövlükdə isə belə bir ümumiləşmə apara bilərik ki, "yaşıl maliyyə" və ya "yaşıl maliyyələşmə" deyiləndə ətraf mühitin qorunması, yaxşılaşdırılması istiqamətində davamlı inkişaf layihələrinə və təşəbbüslərinə xidmət edən maliyyə axınları, investisiyaları, habelə buna yönəlik siyasət və fəaliyyət sistemi başa düşülür.

*Yaşıl maliyyə ilə bağlı siyasət və fəaliyyətlərin əhatəsinə əsasən nələr aid edilə bilər?*

İstər dövlətin, istərsə də digər ictimai fondların yaşıl maliyyə ilə bağlı siyasət və fəaliyyətlərinin əhatəsinə əsas etibarilə aşağıdakı istiqamətlər daxildir:

- ekoloji mallar və xidmətlərlə bağlı maliyyələşmələr (məsələn, su resurslarının idarə edilməsi və ya biomüxtəlifliyin və landşaftların qorunması məhsulları və s.);
- ətraf mühitə və iqlimə (məsələn, enerji səmərəliliyi və ya bəndlər) dəyən və ya dəyə biləcək zərərin qarşısının alınması, minimuma endirilməsi və ya ödənilməsilə bağlı maliyyə proqramları;
- dövlət və özəl yaşıl investisiyaların maliyyələşdirilməsi təşəbbüsləri (əsaslı xərclər və s.)
- ekologiya sahəsində təşviq edən dövlət siyasətinin maliyyələşdirilməsi (bütün xərclər daxil olmaqla)
- ekoloji vəziyyətləri yumşaldan layihələr, habelə bu sahədə adaptasiya layihələrinin və təşəbbüslərin maliyyələşdirilməsi (məsələn, bərpa olunan enerjilər üçün xərclər və s.)
- yaşıl investisiyalar (məsələn, yaşıl istiqrazlar və strukturlaşdırılmış yaşıl fondlar və s.), o cümlədən bunlarla bağlı xüsusi hüquqi, iqtisadi və institusional çərçivələr.



**Yaşıl maliyyə siyasətinin taktiki çərçivəsi**

*Siz söhbətimizin əvvəlində sözügedən istiqamətdə dövlətin fiskal alətlərini xüsusi qeyd etdiniz.*

Bəli, bu sistemləşmədən də göründüyü kimi yaşıl maliyyə siyasəti istiqamətində mühüm maliyyə mənbələrindən əhəmiyyətli bir qrupu dövlət maliyyə sistemi, o cümlədən dövlətin fiskal alətləri ilə bağlı ola bilər. Bunlardan biri də yaşıl istiqrazlar və ya ətraf mühitin qorunması və yaxşılaşdırılması fəaliyyətinin maliyyələşməsinə xidmət edə biləcək fiskal borc alətləridir.

*Ölkəmizdə dövlətin "yaşıl maliyyə", "yaşıl borc alətləri"ndən istifadə imkanlarını ümumilikdə necə qiymətləndirərdiniz?*

Azərbaycanda milli iqtisadiyyatın strateji inkişaf prioritetlərinə uyğun olaraq qiymətli kağızlar bazarında keyfiyyətcə tamamilə yeni proseslərə start verilməkdədir. Belə ki, fiskal məqsədlər, eləcə də ölkənin iri sahələri üçün yeni maliyyə alətlərindən yararlanmaq, beynəlxalq kapital bazarından sərmayə cəlb etmək məqsədilə ölkə hüdudlarından kənarda istiqrazların tədavülə buraxması barədə mühüm perspektivlər mövcuddur.

Beynəlxalq agentliklərin qiymətləndirməsinə əsasən, bütövlükdə ölkəmizin kredit reytinqi müsbət istiqamətə doğru dəyişir. Xüsusən təbii resurs gəlirlərinin artması fonunda mövqelərimiz daha da güclənir. Buna görə də hesab etmək olar ki, orta və uzunmüddətli perspektivdə xarici bazarlara yönəlik "yaşıl istiqraz"ların yaratdığı borc öhdəlikləri ölkəmiz üçün hər hansı maliyyə problemləri doğurmaz. Eyni zamanda gələcəkdə real sektorun diversifikasiyası, qeyri-neft sektorunun davamlı inkişafı, bununla da həqiqi fiskal dayanıqlığa nail olunması ilə bu perspektivlər daha da güclənəcəkdir. Bu halda sözügedən qiymətli kağızlar üzrə faiz xərcləri ölkənin ümumilikdə iqtisadi rifahı baxımından ciddi maliyyə ağırlığı yaratmaz.

*Ölkəmiz üçün "yaşıl maliyyə" alətlərinin izafi faydaları da yarana bilərmi?*

Əlbəttə, bu iqtisadi və maliyyə siyasəti təkcə sosial faydalarla məhdudlaşmır. İstər ölkə daxilində, istərsə də beynəlxalq maliyyə bazarlarında "yaşıl istiqrazlar"ın emissiyası və tədavülünün təşkili eyni zamanda milli qiymətli kağızlar bazarının inkişafına təkan olacaq. Bu, hər şeydən öncə milli inkişaf prioritetləri, o cümlədən qiymətli kağızlar bazarının inkişaf proqramlarının müddəaları ilə bilavasitə uzlaşır. Buradakı əlaqə həm də fuksional xüsusiyyətə malikdir. Belə ki, qiymətli kağızlar bazarının insti-



tutsional inkişafı, kollektiv investisiya sxemlərinin və maliyyə vasitəçiliyi fəaliyyətinin təşviqi, qiymətli kağızlar bazarında tələb və təklifin dəstəklənməsi, korporativ idarəetmənin və maliyyə şəffaflığı prinsiplərinin tətbiqinin genişləndirilməsi, bu sahədə hüquqi bazanın təkmilləşdirilməsi, məlumatlandırmanın və peşəkar kadrların hazırlanmasının artırılması məsələləri beynəlxalq maliyyə bazarlarına çıxışın təmin edilməsinə və xarici borc öhdəliklərinin mütərəqqi əsasda idarə edilməsinə imkan verəcəkdir.

İnkişaf sənədlərində qeyd olunan istiqamət üzrə orta və uzunmüddətli dövrdə fond birjasının təşkilati və hüquqi strukturunun beynəlxalq standartlara uyğunlaşdırılması, yeni ticarət sisteminin tətbiqi nəzərdə tutulur. Qeyd olunan yeni alətlər yerli və xarici səviyyədə ticarət potensialını genişləndirməyə imkan verəcək ki, bu da öz növbəsində "yaşıl istiqrazların" emissiyası, tədavülünün təşkili və xarici borcların düzgün idarə edilə bilinməsi üçün ilkin zəruri şərtlər sırasına daxildir.

Onu da qeyd edək ki, yeni maliyyə alətlərinin emissiyası və tədavülünün təşkili ölkənin xarici borc siyasətinin mühüm elementi kimi məsələlərə preventiv əsaslı və kompleks yanaşmanı tələb edir. Bu prinsiplərin dövlətin borc öhdəliklərinin idarə edilməsində əsas götürülməsi çox vacibdir.

Burada bir məqamı da vurğulamaq doğru olar ki, "yaşıl istiqrazların" emissiyası və tədavülü prosesində İslam maliyyəsi mexanizmlərinin üstünlüklərindən də əhəmiyyətli dərəcədə faydalanmaq mümkündür. Özünəməxsus, o cümlədən payçılıq prinsiplərini üstün tutan maliyyə mexanizmləri üçün sosial əsaslı alətlər xüsusilə cəlbedici ola bilər.

*"Yaşıl istiqrazlar"ın uğurlu tədavülü daha hansı keyfiyyət prinsiplərinin qorunmasını zəruri edir?*

Bu maliyyə alətlərinin yaratdığı borc öhdəliklərinin idarə edilməsinin növbəti mühüm şərti vahidlik prinsipindən irəli gəlir. Vahidlik prinsipinin mahiyyəti ondan ibarətdir ki, sözügüdən borclar dövlət borclarının idarə edilməsi prosesində bütün növ öhdəliklərlə vahid qaydada hesaba alınmalı və onların icrası ümumilikdə vahid mexanizm əsasında həyata keçirilməlidir. Ümimilikdə, dövlət borclarının idarə edilməsi ayrı-ayrılıqda hər bir öhdəliyin icrası proseslərinin birləşməsi kimi həyata keçirilməlidir. Hər hansı dövlətdə emitent xarici investorlar qarşısında öhdəlikləri ahəngdar idarə etdiyi halda, daxili borc bazarında bu mexanizmi bütün keyfiyyəti ilə tətbiq etmirsə və ya edə bilmirsə, bu etimad qüsuru son nəticədə yenə də xarici investisiya institutlarını çəkindirə və xarici maliyyə bazarlarında tədavül imkanlarını zəiflədə bilər.

Beləliklə, yuxarıda qeyd etdiyimiz vahidlik prinsipi eyni zamanda başqa birinin - risklərin rasional idarə olunması prinsipinə əməl olunmasının zəruriliyini önə çəkir. Dövlət borcunun idarə edilməsində risklərin aşağı salınması prinsipi dövlətin istər daxili, istərsə də xarici borc bazarlarındakı reytinqinə xidmət edir. Bu prinsipin mahiyyətinə görə, dövlətin borc öhdəliklərinin idarə edilməsi proseslərində beynəlxalq borc bazarı, eləcə də daxili dövlət qiymətli kağızlar bazarında dövlətə olan inamın səviyyəsi daim qorunmalıdır. Risklərin aşağı salınması prinsipi qlobal maliyyə bazarlarının müasir inkişaf şəraitində aktual səciyyə daşıyır. Belə ki, hazırki şəraitdə beynəlxalq kredit bazarından iqtisadi aspektdən təcrid olunmuş ölkələrin fiskal imkanlarının dayanıqlığını təmin etmək mümkünsüz görünür. İnkişaf səviyyəsindən asılı olmayaraq istənilən ölkənin xarici maliyyə bazarlarından fiskal məqsədlər üçün faydalanmağı məhz, hökumətin maliyyə alətlərinin kredit reytinqi göstəricisindən asılıdır.

Ölkədə "yaşıl maliyyə" alətləri üzrə borclarının idarə edilməsinin növbəti prinsipi rasionallıq məsələsindən ibarət olmalıdır. Dövlət borclanmasına gətirib çıxaran amillər dövri xarakterə malik olduğuna görə borc vəsaitlərinə yaranan ehtiyacın səviyyəsi daim dəyişkəndir. Xüsusilə bunu dalğalı dövlət borclarına aid olan fiskal məqsədlər üçün emissiya olunan dövlət iqtiqrazlarına şamil etmək olar. Rasionallıq prinsipinin mahiyyəti borc alətlərinin cəlb edilməsi, tədavülü və ödənilməsi arasındakı rasional tarazlığı qorumaqdan ibarətdir.



MÜSAHİBƏ

BİZNES HƏYATI

**Fərid Vəlizadə**
ASK prezidentinin baş məsləhətçisi

# “Yaşıl biznes”in iqtisadiyyata təsiri

BMT-nin Ətraf Mühit Proqramı (UNEP) tərəfindən “yaşıl iqtisadiyyat” termini insan rifahını və sosial ədaləti təmin edən və eyni zamanda ətraf mühit risklərini kəskin şəkildə azaldan iqtisadiyyat kimi müəyyən edilir.

***Bəs “Yaşıl biznes” nədir?***

Yaşıl və davamlı biznes planetin, insanların və əldə olunan mənfəət üzrə ehtiyacları tarazlaşdıracaq şəkildə fəaliyyət göstərməyi hədəfləyən biznesdir. Bu biznes:

• Tullantıları və Çirklənməni minimuma endirir: Yaşıl və davamlı biznes resurslardan səmərəli istifadə etməklə, emissiyaları azaltmaqla və tullantıları düzgün şəkildə utilizasiya etməklə tullantıları, çirklənməni və ətraf mühitə təsirləri minimuma endirməyə çalışır.

• Bərpa olunan enerjidən istifadə edir: Günəş, külək, geotermal və ya hidroenergetika qalıq yanacaqlardan asılılığı azaldır və karbon emissiyalarını minimuma endirir.

• Davamlı təcrübələri qəbul edir: Yaşıl və davamlı biznes daimi olaraq materialların alınması, enerji istehlakının azaldılması və dayanıqlı nəqliyyatın təşviqi də daxil olmaqla, fəaliyyətin bütün aspektlərində davamlılığı nəzərə alır.

• Sosial Məsuliyyətlə məşğul olur: Yaşıl və davamlı biznes cəmiyyətə və ictimaiyyətə müsbət töhfə vermək məsuliyyətini dərk edir. O, xeyriyyə işləriniə, könüllü vaxta ianələri verə bilər və ya onun dəyərlərinə uyğun gələn sosial təşəbbüsləri dəstəkləyə bilər.



• Şəffaflığı təşviq edir: Yaşıl və davamlı biznes emissiyalarını, tullantıların idarə edilməsi təcrübələrini və ictimaiyyətlə əlaqədə şəffaflıq fəaliyyətlərini açıqlamaq da daxil olmaqla, ətraf mühitə və sosial sahəyə təsirlərlə bağlı açıq və şəffaf şəkildə ünsiyyət qurur.

Ümumilikdə, yaşıl biznes ətraf mühitə təsirini minimuma endirməyə və davamlı şəkildə fəaliyyət göstərməyə yönəlibmişdir. Şirkət bu dəyişiklikləri etməklə ətraf mühitin qorunmasına kömək edə və daha davamlı gələcəyə töhfə verə bilər.

***Yaşıl biznes daha ekoloji cəhətdən necə təmiz ola bilər?***

Ətraf mühitə qayğı artdıqca, getdikcə daha çox müəssisə ekoloji cəhətdən təmiz olmaq üçün yollar axtarır. İstənilən bir şirkətin ətraf mühitə təsirini azaltmaq və daha dayanıqlı fəaliyyət göstərmək üçün bir neçə addım ata bilər.

Biznesin ekoloji cəhətdən daha təmiz fəaliyyət göstərməsi üçün edə biləcəyi ilk işlərdən biri ətraf mühitə təsirin qiymətləndirilməsini aparmaqdır. Bu, sənayenin su və enerji kimi resurslardan istifadəsini azalda biləcəyi və tullantıları minimuma endirdiyi sahələri müəyyən etməyə kömək edəcək. Qiymətləndirmənin nəticələrinə əsasən, şirkət enerjiyə qənaət edən işıqlandırma və cihazları təkmilləşdirmək, bərpa olunan enerji mənbələrindən istifadə etmək, təkrar emal proqramlarını həyata keçirmək kimi dəyişiklikləri həyata keçirə bilər.

Əməliyyat dəyişikliklərinə əlavə olaraq, ekoloji cəhətdən məsuliyyətli cavabdeh təchizatçılardan material və məhsullar əldə etməklə biznes daha ekoloji cəhətdən daha təmiz ola bilər. Buraya davamlı istehsal üsullarından istifadə edən təchizatçıların seçilməsi və ya təkrar emal edilmiş mənbələrdən materialların alınması aid edilə daxil ola bilər.

Biznesin daha ekoloji cəhətdən təmiz olmasının başqa bir üsul yolu xeyriyyə ianələri və tərəfdaşlıqlar vasitəsilə ekoloji təşəbbüsləri səbəbləri dəstəkləməkdir. Bu, kritik ekoloji problemlər haqqında məlumatlılığı artırmağa və şirkətin davamlılığa sadiqliyini göstərməyə kömək edə bilər.

Nəhayət, biznes davamlılıq öhdəliyini müştərilərə və maraqlı tərəflərə çatdırmalıdır. Bu, şirkətin ekoloji təşəbbüsləri və nəaliyyətləri irəliləyişləri haqqında məlumatı sosial mediada paylaşmaq və ya marketinq materiallarında davamlılıq haqqında məlumatı bölüşməsinə əhatə eddə aiddir. ə bilər.

***Yaşıl biznesin üstünlükləri nələrdir?***

Ekoloji cəhətdən davamlı şəkildə fəaliyyət göstərən bir şirkət olan yaşıl biznesin olmanın bir sıra üstünlükləri var. Bu faydaları üç əsas kateqoriyaya bölmək olar: Maliyyə, Reputasiya və Sosial.

**Yaşıl biznesin maliyyə faydaları:**

Azaldılmış əməliyyat xərcləri su və enerji kimi resurslara qənaət etməklə, yaşıl biznes əməliyyat xərclərini azalda bilər.

Artan səmərəlilik: Davamlılıq tədbirlərinin həyata keçirilməsi biznesin daha səmərəli olmasına kömək edə bilər və bu, xərclərə qənaət etməyə səbəb ola bilər.



Hökumət stimulları: Bir çox dövlət və ya hökumətlər vergi güzəştləri və qrantlar şəklində kimi davamlı təcrübələrlə işləyən i qəbul edən bizneslərə təşviqlər təklif edir.

***Yaşıl biznesin reputasiya faydaları:***

Təkmilləşdirilmiş reputasiya: Ətraf mühitə görə məsuliyyət daşıyan şirkətə müştərilər, investorlar və digər maraqlı tərəflər tərəfindən daha müsbət baxılıracaq..

Artan müştəri loyallığı: Bir çox istehlakçılar ekoloji cəhətdən təmiz məhsul və xidmətlər üçün mükafat ödəməyə hazırdır.

Artan işçilərin saxlanması: Davamlılığa möhkəm bağlılığı olan bir şirkət tez-tez hamının işləmək üçün daha çox arzuladığı olunan yer kimi görünür və bu, işçilərin saxlanmasını yaxşılaşdırmağa kömək edə bilər.

***Yaşıl biznesin sosial faydaları:***

Ətraf mühitin mühafizəsi: Yaşıl biznes davamlı fəaliyyət göstərməklə ətraf mühitin qorunmasına kömək edə və daha davamlı gələcəyə töhfə verə bilər.

İcma ilə əlaqə: Bir çox yaşıl biznes ekoloji təşəbbüsləri səbəbləri dəstəkləyir və müsbət əlaqələr qurmağa kömək edə biləcək yerli icmaları ilə əlaqə qurur.

Ümumiyyətlə, maliyyə, reputasiya və sosial sahələr də daxil olmaqla yaşıl biznes olmağın bir çox üstünlükləri var. Davamlı fəaliyyət göstərməklə şirkət öz xərclərini azalda, nüfuzunu yüksəldə və ətraf mühitə müsbət təsir edəgöstərə bilər.

***Yaşıl biznesin bəzi nümunələri hansılardır?***

**Müxtəlif sənaye sahələrində yaşıl biznesin bir çox nümunəsi var, o cümlədən:**

- Bərpa olunan enerji üzrə: Günəş və külək enerjisi kimi təmiz, bərpa olunan enerji mənbələri istehsal edən şirkətlər yaşıl biznes hesab olunur.
- Ekoturizm üzrə: Ekoloji cəhətdən məsuliyyətli turizmi təşviq edən və yerli icmalara dəstək verən turizm şirkətləri yaşıl biznes hesab olunur.
- Təkrar emal üzrə: Təkrar emal üçün material toplayan və emal edən şirkətlər yaşıl biznesdir, çünki onlar tullantıları azaltmağa və təbii ehtiyatları qorumağa kömək edir.
- Davamlı moda üzrə: Davamlı materiallardan və istehsal proseslərindən istifadə edən və ədalətli əmək təcrübələrini dəstəkləyən geyim şirkətləri yaşıl biznes hesab olunur.
- Davamlı tikinti üzrə: Davamlı tikinti materialları və təcrübələrindən istifadə edən və enerji səmərəliliyi üçün binalar dizayn edən şirkətlər yaşıl biznesdir.
- Təbii və üzvi məhsullar üzrə: Davamlı materiallar və təcrübələrdən istifadə edərək təbii və üzvi məhsullar istehsal edən şirkətlər yaşıl biznesdir.

Bunlar yaşıl biznesin yalnız bir neçə nümunəsidir. Müxtəlif sənaye sahələrində ətraf mühitə təsirlərini azaltmaq və daha davamlı şəkildə fəaliyyət göstərmək üçün çalışan bir çox başqa şirkətlər var. Bunu etməklə, bu müəssisələr ətraf mühitin qorunmasına kömək edir və daha davamlı gələcəyə töhfə verirlər.

***Yaşıl biznes karbon izini necə azalda bilər?***

**Yaşıl biznesin karbon izini azaltmağın bir çox yolu var. Ən təsirli strategiyalardan bəziləri bunlardır:**

- Enerji səmərəliliyi: Biznesin karbon izini azaltmağın ən asan və ən sərfəli yollarından biri enerjiyə qənaət edən təcrübə və texnologiyaların tətbiqidir. Buraya enerjiyə qənaət edən işıqlandırma və cihazların təkmilləşdirilməsi, ağıllı elektrik zolaqlarından istifadə, qaralamaların qarşısını almaq üçün pəncərə və qapıların möhürlənməsi daxil ola bilər.
- Bərpa olunan enerji: Biznesin karbon izini azaltmağın başqa bir yolu günəş və ya külək enerjisi kimi bərpa olunan enerji mənbələrinə keçməkdir. Bu, biznesin istixana qazı emissiyalarına əhəmiyyətli dərəcədə töhfə verən qalıq yanacaqlardan asılılığını azaltmağa kömək edə bilər.
- Nəqliyyat: Nəqliyyat istixana qazı emissiyalarının əhəmiyyətli mənbəyidir. Biznes işçilərini ictimai nəqliyyatdan, avtomobillərdən istifadəyə və ya velosiped sürmək və ya gəzinti kimi alternativ rejimlərdən istifadə etməyə təşviq etməklə öz karbon izini azalda bilər. Şirkət həmçinin şirkətə məxsus avtomobillər



üçün elektrik və ya hibrid avtomobillərdən istifadə etməyi də nəzərdən keçirə bilər.

• Təchizat zənciri: Müəssisə tədarük zəncirinin ətraf mühitə təsirini nəzərə alaraq öz karbon izini də azalda bilər. Bu, davamlı istehsal üsullarından istifadə edən və karbon emissiyalarını minimuma endirən təchizatçıların seçilməsini əhatə edə bilər.

• Əvəzləşdirmə: Bəzi hallarda biznes karbon emissiyalarını aradan qaldırmaq mümkün olmaya bilər. Bu hallarda şirkət karbon kreditləri almaqla və ya CO2-ni atmosferdən çıxaran layihələri dəstəkləməklə emissiyalarını kompensasiya edə bilər.

Bu strategiyaları həyata keçirməklə biznes öz karbon tullantılarını izini əhəmiyyətli dərəcədə azalda və iqlim dəyişikliyinin təsirini minimallaşdırmağaazaltmağa kömək edə bilər.

***Yaşıl biznes davamlılığı necə təmin edə bilər?***

**Yaşıl biznesin davamlılığını təmin etməyin bir neçə yolu var:**

• Davamlılıq hesabatı: Bir çox müəssisələr davamlılıq təşəbbüslərini, irəliləyişlərini və performanslarını əks etdirən illik davamlılıq hesabatları hazırlayır. Bu hesabatlar maraqlı tərəflərlə paylaşıla bilər və tez-tez şirkətin veb saytında yerləşdirilə bilərmövcuddur.

• Sosial media: Sosial media platformaları biznesin davamlılıq səyləri haqqında məlumatı geniş auditoriya ilə bölüşməsi üçün əla yoldur. Bura yeni təşəbbüslər haqqında yeniləmələrin paylaşılması, şirkətin marketinq materiallarında davamlılığa sadiqliyinin vurğulanması və ətraf mühitlə bağlı məsələlərlə bağlı müştərilər və maraqlı tərəflərlə əlaqə daxil ola bilər.

• İctimaiyyətlə əlaqələr: Biznes davamlılıq səyləri haqqında məlumatları ictimaiyyətlə bölüşmək üçün press-relizlər, media müsahibələri və açıqlayıcı mətnlər formasında nitq tapşırıqları kimi ictimaiyyətlə əlaqələr kanallarından istifadə edə bilər .

• Veb sayt: Müəssisənin veb-saytı müştərilərin şirkət haqqında öyrəndiyi ilk yerdir, ona görə də vebsayta davamlılıq haqqında məlumat daxil etmək vacibdir. Buraya şirkətin ətraf mühitlə bağlı təşəbbüsləri, tərəqqisi və fəaliyyəti haqqında məlumat daxil ola bilər.

• Müştərlərlə ünsiyyət: Biznes həmçinin davamlılıq öhdəliyini müştərilərə e-poçt bülletenləri, marketinq materialları və mağaza daxili lövhələr vasitəsilə çatdıra bilər.

Davamlılığı təmin etmək üçün bu kanallardan istifadə edərək, biznes öz dəyərlərini nümayiş etdirə, inam və etibarlılıq yarada, ətraf mühitlə bağlı məsələlərlə bağlı maraqlı tərəflərlə əlaqə saxlaya bilər.

***Yaşıl biznesə başlamağın hansı çətinlikləri var?***

Ekoloji cəhətdən davamlı şəkildə fəaliyyət göstərən bir şirkətin yaşıl biznesə başlaması mühüm müsbət amillər gətirir. Mükafatlandırıcı və yerinə yetirici ola bilər. Bununla belə, o, bir sıra çətinliklərlə də üzləşə bilər.

**Yaşıl biznesə başlamağın ən ümumi problemlərindən bəziləri aşağıdakılardır:**

• Maliyyələşdirmə: Hər hansı bir işə başlamağın ən böyük problemlərindən biri maliyyə təminatıdır. Bu, yaşıl bizneslər üçün inanılmaz dərəcədə çətin ola bilər, çünki investorlar davamlılığa diqqət yetirən şirkətə investisiya qoymaqda tərəddüd edə bilərlər.

• Bilik çatışmazlığı: Bir çox sahibkarlar ekoloji davamlılıq sahəsində



təcrübəyə malik olmaya bilər və yaşıl biznesin aparılması üçün ən yaxşı təcrübələrlə tanış olmaya bilərlər. Bu, davamlı təcrübələrin həyata keçirilməsinə gəldikdə haradan başlayacağını bilməkdə çətinlik yarada bilər.

• Bazar tələbi: Ekoloji cəhətdən təmiz məhsul və xidmətlərə artan tələbat olsa da, konkret bazarda tələbin səviyyəsini ölçmək çətin ola bilər. Bu, yaşıl biznesə başlamağın mümkünlüyünü müəyyən etməyi çətinləşdirə bilər.

• Rəqabət: Daha çox müəssisə davamlılığı öz əməliyyatlarının əsas hissəsi kimi qəbul etdikcə, yaşıl biznes məkanında rəqabət şiddətli ola bilər. İzdihamlı bir bazarda fərqlənmək çətin ola bilər.

• Tənzimləmə: Yaşıl biznesin riayət etməli olduğu bir neçə qayda və standartlar ola bilər, məsələn, davamlı məhsullar üçün ekoloji qaydalar və standartlar. Yaşıl biznesə məkanına yeni başlayan sahibkarlar üçün bu qaydaların yönləndirilməsi çətin ola bilər.

Yaşıl bir işə başlamaq faydalı və yerinə yetirən bir cəhd ola bilər, lakin bir sıra çətinliklər də verə bilər.

Bu çağırışlara hazırlaşmaq və resurslar və dəstək axtarmaqla sahibkarlar uğur şanslarını artıra bilərlər.

***Yaşıl biznes yaşıl təşəbbüsləri necə maliyyələşdirə bilər?***

Biznesinə ətraf mühitə təsirini azaltmağa kömək edən davamlılıq layihələri olan yaşıl təşəbbüslərin həyata keçirilməsi əhəmiyyətli ola bilər.

Bu təşəbbüsləri maliyyələşdirmək çətin ola bilər, lakin yaşıl təşəbbüsləri maliyyələşdirmək istəyən şirkətlər üçün bir çox variant var.

**Yaşıl biznes üçün bəzi seçimlər bunlardır:**

• Təşəbbüsləri maliyyələşdirməyin bir yolu biznesin resurslarından istifadə etməkdir. Bu, şirkətin mənfəətinin bir hissəsini davamlılıq layihələri üçün ayırmaq və ya daha az kritik vəzifələrdən vəsaitlərin yönləndirilməsini əhatə edə bilər.

• Qrantlar və subsidiyalar: Bir çox hökumət və təşkilatlar yaşıl təşəbbüsləri həyata keçirmək istəyən bizneslərə qrantlar və ianələr təklif edirlər. Bu qrantlar biznesin maliyyələşdirilməsinin dəyərli mənbəyi ola bilər və çox vaxt rəqabətli şəkildə verilir.

• Kreditlər: Yaşıl təşəbbüsləri maliyyələşdirmək üçün başqa bir seçim bankdan və ya digər maliyyə institutundan kredit götürməkdir. İndi bir çox bank davamlılıq layihələri üçün açıq şəkildə hazırlanmış yaşıl kreditlər təklif edir.

• Kapitalın maliyyələşdirilməsi: Daha əhəmiyyətli maliyyə mənbəyi axtaran müəssisələr üçün kapitalın maliyyələşdirilməsi yaxşı seçim ola bilər. Bu, maliyyə qarşılığında şirkətdəki payın investorlara satılmasını nəzərdə tutur.

Ümumiyyətlə, yaşıl təşəbbüsləri maliyyələşdirmək istəyən müəssisələr üçün bir çox seçim mövcuddur. Şirkətlər bu variantları araşdırıb nəzərə alaraq, öz xüsusi ehtiyacları və məqsədləri üçün ən yaxşı həll yolunu tapa bilərlər.

***Yaşıl bizneslər üçün hökumətin hansı təşviqləri var?***

Dünyadakı hökumətlər davamlı təcrübələri qəbul edən və ekoloji cəhətdən məsuliyyətli şəkildə fəaliyyət göstərən bizneslərə müxtəlif stimullar təklif edir. Bu təşviqlər yaşıl təşəbbüsləri həyata keçirmək və da-

ha davamlı olmaq istəyən şirkətlər üçün dəyərli mənbə ola bilər.

**Yaşıl bizneslər üçün dünyada hansı dövlət təşviqlərinin vardır:**

• Vergi güzəştləri: Bir çox hökumətlər davamlı təcrübələri qəbul edən şirkətlərə vergi güzəştləri təklif edirlər. Bu, bərpa olunan enerjidən istifadə üçün vergi kreditlərindən və ya enerjiyə qənaət edən avadanlıqlara investisiya üçün vergi endirimlərindən ibarət ola bilər.

• Qrantlar: Hökumətlər tez-tez yaşıl təşəbbüsləri həyata keçirmək istəyən müəssisələrə hədiyyələr təklif edirlər. Bu qrantlar şirkətlər üçün dəyərli maliyyə mənbəyi ola bilər və adətən rəqabət əsasında verilir.

• Kreditlər: Bəzi hökumətlər davamlılıq layihələrini həyata keçirmək istəyən bizneslərə aşağı faizli kreditlər təklif edirlər. Bu kreditlər daha əhəmiyyətli təşəbbüsləri maliyyələşdirmək istəyən şirkətlər üçün yaxşı seçim ola bilər.

• Texniki yardım: Bəzi hökumətlər yaşıl təşəbbüsləri həyata keçirmək istəyən bizneslərə xüsusi xidmətlər təklif edirlər. Bu, davamlılıq üçün imkanların müəyyən edilməsində yardım və ya xüsusi layihələrin həyata keçirilməsi ilə bağlı yardımı əhatə edə bilər.

• Dövlət satınalmaları: Hökumətlər çox vaxt mal və xidmətlərin əhəmiyyətli istehlakçılarıdır və onların alıcılıq qabiliyyətindən yaşıl biznesləri dəstəkləmək üçün istifadə edə bilərlər. Ekoloji cəhətdən məsuliyyətli məhsul və xidmətlərin satın alınmasına üstünlük verməklə hökumətlər yaşıl şirkətlər üçün bazar yaratmağa kömək edə bilər.

Ümumiyyətlə, daha dayanıqlı olmaq istəyən bizneslər üçün bir çox dövlət təşviqləri dünyanın bir çox ölkəsində, o cümlədən ölkəmizdə də mövcuddur. Bu təşviqlərdən yararlanmaqla şirkətlər ətraf mühitə təsirlərini azaltmağa çalışarkən qiymətli resurslara və dəstəyə çıxış əldə edə bilərlər.




Ümumiləşdirsək, yaşıl biznes və davamlılıq bütün müəssisələr üçün getdikcə daha vacib bir mövzudur. Şirkətlər ekoloji cəhətdən daha məsuliyyətli fəaliyyət göstərərək xərcləri azalda, reputasiyalarını yaxşılaşdıra və ətraf mühitə müsbət təsir göstərə bilərlər. Davamlılığa gəldikdə, müəssisələrin qarşılaşdığı bir çox problem var. Bununla belə, onlara bu çətinliklərin öhdəsindən gəlməyə və daha davamlı olmağa kömək etmək üçün bir çox resurs və təşviqlər mövcuddur.

Ümumiyyətlə, yaşıl biznes dünyası həyəcan verici və faydalıdır. Fərqlilik yaratmaq və daha dayanıqlı gələcəyə töhfə vermək üçün bütün ölçülü bizneslər üçün çoxlu imkanlar var.

Bu gün həqiqətən ölkəmizdə uğurla həyata keçirilən sənayeləşmə siyasəti çərçivəsində müasir texnologiyalara əsaslanan yeni-yeni müəssisələr yaradılır, rəqabətqabiliyyətli və ixracyönümlü sənaye məhsullarının istehsalı artır. Bütün bunlar isə Prezident İlham Əliyevin həyata keçirdiyi yeni iqtisadi strategiyanın uğur formuludur.

Təsadüfi deyil ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in də əsas müddəalarından biri məhz yaşıl iqtisadiyyatla bağlıdır. “İndiki və gələcək nəsillərin tələbatını dolğun ödəmək məqsədilə ekoloji baxımdan əlverişli olan “yaşıl” texnologiyaların tətbiqi genişləndirilməlidir. Elmi-texniki potensiala əsaslanmaqla iqtisadiyyatın bütün sahələrində alternativ və bərpa olunan enerji mənbələrinin ilkin istehlakda payı artırılmaqla və iqlim dəyişikliklərinə təsir azaldılmalıdır. Ekoloji təmiz nəqliyyat vasitələrindən istifadə edilməsi ətraf mühitə və atmosfer havasının keyfiyyətinə müsbət təsir göstərəcəkdir.” Bütün bunlara nail olmaq isə “yaşıl biznes”lə mümkündür.



MÜSAHİBƏ

BİZNES HƏYATI

Səkinə Babayeva
Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının sədri

# AQSİA sədri: "Qadın sahibkarların qurduqları bizneslər daha çox inkişaf yönümlüdür"

***Azərbaycanda qadın sahibkarların inkişafı son illər xüsusilə diqqət mərkəzindədir. Bu sahədə təşkilatlanmanı həyata keçirən qurumun rəhbəri kimi indiki vəziyyəti necə xarakterizə edərdiniz?***

- Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası fəaliyyətə başladığı ilk gündən etibarən qadın sahibkarların ölkədə sayının artırılması üçün regionlarımızda bir çox tədbirlər, layihələr, proqramlar həyata keçirib. Dövlət qurumları, eləcə də digər biznes təşkilatları ilə işbirliyimiz genişlənib, qadın sahibkarların inkişafı üçün dövlət-özəl əməkdaşlığının ən yaxşı nümunələri yaranıb. Hədəfimiz biznes quran xanımların sayındakı müsbət tendensiyanın davamlı olması və onların beynəlxalq işgüzar xanımların sıralarında layiqli yerlərini tutmasına çalışmaq, məhsul və xidmətlərimizin ixracında bazara çıxış imkanları yaratmaqdır.

Bu gün iqtisadi və sosial inkişafın səmərəliliyinə nail olmaq, iqtisadi inkişaf və yüksəlişdən bəhrələnmək üçün qadınların mövcud potensial imkanlarından istifadə olunması mühüm əhəmiyyət kəsb edir. Hazırda həm qlobal səviyyədə, həm də ölkəmizdə qadın sahibkarlığının çəkisinin artması müşahidə edilir, qadınlar kiçik biznes yaratmağa, özünüməşğulluğa getdikcə daha çox maraq göstərirlər.

Belə ki, Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2024-cü il aprelin 1-nə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş qadın sahibkarların sayı 306 min 533 nəfər təşkil edib. Qeyd edək ki, sahibkar qadınların 25.4%-i kənd təsərrüfatında, 21.5%-i ticarət, 35.3%-i xidmət sahəsində fəaliyyət göstərir. Onların

28,7%-i Bakıda, 10,2%-i Lənkəran-Astara, 9,6%-i Qazax-Tovuz, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçib.

Qadınların sahibkarlıq fəaliyyətinin artırılması, məşğulluğunun təmin olunması, müasir dövrün sosial-iqtisadi tələblərindən irəli gələn istiqamətlər üzrə layihələrin həyata keçirilməsi Azərbaycanda bu sahədə atılan vacib addımlardan biridir. Ölkə iqtisadiyyatında qadın sahibkarların artan rolu, məşğulluğun təmin olunmasında qadın sahibkarlığının müstəsna əhəmiyyəti daima diqqət mərkəzindədir.

Qadın sahibkarların sayının artırılması üçün Dövlət Məşğulluq Agentliyinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, eyni zamanda İqtisadiyyat Nazirliyinin və Azərbaycan Sahibkarlar Konfederasiyasının gördüyü bir çox işlər var və biz bu fəaliyyətlərin hər birində fəal iştirak edirik.

***- Assosiasiyanın nə qədər üzvü var və xanım biznesmenlər təşkilatlanmaqda nə qədər maraqlıdırlar?***

- AQSİA-nın fəaliyyətində ümumi olaraq 2500 nəfərə qadın sahibkar iştirak edir. Bunlar Bakıda və regionda fəaliyyət göstərən üzvlər, eyni zamanda müxtəlif layihələrimizdə iştirak edən, kapital toxumu ilə təmin olunan benefisiarlardır. Ümumi tendensiya ilə bağlı onu qeyd edə bilərik ki, qadınların iqtisadi fəallığı yüksəlib və onların təşkilatlanmaya, müvafiq mövzularda təlim və seminarlarda iştiraka marağı artıb.

***- Qadın sahibkarların qurduqları bizneslər nə qədər dayanıqlıdır?***

Düşünürəm ki, pandemiyadan sonra qadın sahibkarların qurduqları bizneslər daha çox inkişaf yönümlü olduğunu göstərdi. Məsələn, əvvəlki illərdə qadınlarımız beynəlxalq arenada bizneslərini təqdim etməyə çox da maraqlı deyildirlərsə, son illərdə bu yaxşıya doğru dəyişib. Məhsullarını beynəlxalq bazarlara çıxartmaq istəyən sahibkarlar ölkəmizdə qurduqları biznesi daha da dayanıqlı etmək üçün marketinq, bazar araşdırmaları sahəsində ciddi çalışır.




***- Assosiasiyaya əsasən hansı məsələlərin həlli ilə bağlı müraciət edirlər?***

- Müraciətlərin məzmunu müxtəlifdir. Sevindirici haldır ki, maariflənmə proqramları, şəbəkələşmənin faydalarından istifadə etmək istəyən xanımlarımız çoxdur. Məlumdur ki, maliyyəyə çıxış imkanları biznesdə mühüm əhəmiyyət daşıyır. Bu baxımdan güzəştli kreditlər üzrə müraciət edən sahibkarlar da üstünlük təşkil edir.

***- Yaşıl iqtisadiyyatda xanım həmkarlarınızın rolunu necə görürsünüz?***

Qadın sahibkarlar bu mövzuya olduqca həssas yanaşırlar. Belə ki, ekoloji təmiz məhsulların istehsalı, təkrar istehsal kimi yaşıl iqtisadiyyatın qolu olan mövzular üzrə maraqlı layihə təklifləri irəli sürürlər. Qadın sahibkarlar arasında kiçik və orta biznes nümayəndələri daha çoxdur və onların biznesində yaşıl iqtisadiyyat elementləri üstünlük təşkil edir.

***- Biznes qurmaqda paytaxt xanımları daha aktivdirlər?***

Bu tendensiyanın dəyişməsi üçün regionlarda aktiv fəaliyyət göstəririk və qəbul etməliyik ki, gördüyümüz işlər öz bəhrəsini verir. Regionlarda da çox işgüzar qadın sahibkarlarımız var. Xüsusən də son illər kənd turizminin inkişafında ciddi artım müşahidə edilir. Bu biznes növündə qadınlarımızın payı artır və onların layihələrinin daha uğurlu olduğunu görürük.

***- Səkinə Babayevanın fikrincə uğurlu qadın sahibkar olmağın əsas amilləri hansılardır, nə mütləq olmalıdır?***

Hər şey özünə inamdan başlayır. Özünə inam və ailədən mənəvi dəstək alan qadınlarımız cəmiyyətdə öz layiqli yerlərini tuta bilirlər. Həmçinin çalışqan olmaları, əzmkarlıq sayəsində böyük sahibkarlara çevrilmə imkanları artır. Bizim təşkilatımızda fəaliyyətinə sıfırdan başlayan çox qadın sahibkar üzvlərimiz var ki, onların fəaliyyəti hal-hazırda çox irəlidədir. Biz də onlara müvafiq dəstəkləri göstərməyə həmişə hazırıq.



MƏQALƏ

BİZNES HƏYATI

**Orxan Mikayıl**
Aqualink şirkətinin İcraçı direktoru

# "YAŞIL İQTİSADİYYAT"DA SUYUN ÖNƏMİ

Artan əhali sayı və tələbatları təmin etmək üçün, eləcə də insanların həyati vacib infrastruktura çıxış imkanlarını təkmilləşdirmək üçün bir çox dövlətlər əhəmiyyətli və dayanıqlı inkişaf üçün lazımi stimulları işə salmağa çalışırlar. Davamlı və dayanıqlı inkişafı təmin etmək təhlükəsizlik amili olmadan təmin edilə bilməz. Təhlükəsizliyin bu yeni forması insanlar və təbii ehtiyatlar arasında təkmilləşdirilmiş əlaqəyə əsaslanır. Su, əhalinin artması, urbanizasiya və dəyişən iqlim şəraitində daha nadir hala gələn həyat üçün ən vacib bir resursdur.

Su olmadan inkişaf ola bilməz, lakin bütün su ehtiyyatlarını da inkişafa sərf etmək doğru olmaz. Bu çərçivədə suyun gələcəyini araşdırmaq onu doğru idarə etmək çox vacibdir. Su ehtiyatlarının təmin edilməsi və onlardan istifadə indi həm zaman, həm də məkan baxımından nəzərə alınmalıdır.

Su və onun idarə edilməsi təkcə yerli deyil, qlobal prioritetə çevrilir. BMT-nin "Rio+20" Bəyannaməsi dünyanın təbii sərvətlərini, o cümlədən şirin su ehtiyyatlarını qorumaq və təkmilləşdirməklə dayanıqlı inkişafı təmin etmək üçün yaşıl iqtisadiyyatın yaradılmasının zəruriliyini vurğulayır. Su getdikcə yaşıl iqtisadiyyatın mərkəzi "hüceyrəsi"nə çevrilir və o, inkişafın bütün aspektlərinə – ərzaq təhlükəsizliyi, səhiyyə və yoxsulluğun azaldılmasına, kənd təsərrüfatı, sənaye və enerji istehsalı sahələrində iqtisadi artımın təmin edilməsinə ən böyük töhfə verən təbii ehtiyyatdır.

Yaşıl iqtisadiyyatın uğuru su ehtiyatlarının dayanıqlı idarə olunmasından, su və kanalizasiya xidmətlərinə təhlükəsiz və davamlı çıxış imkanlarının təmin edilməsindən asılıdır. Əhalinin artması, şəhərlərin genişlənməsi və iqtisadiyyatın böyüməsi enerji və qidaya tələbatı artırır, bu isə məhdud su və torpaq resurslarımıza, eləcə də dəstəkləyici ekosistemlərə əlavə təzyiqlər yaratmaqdadır. Su təchizatı infrastrukturuna, eləcə də su ehtiyyatlarının inteqrə olunmuş idarəetməsinə sərmayələr olmadıqca iqtisadi artım və sosial inkişafa ciddi maneələr yaranır, eyni zamanda əhalinin ən həssas qruplarına və ətraf mühitimizə mənfi təsir göstərir. Bu, suyu və buna görə də enerji və ərzaq təhlükəsizliyini risk altında qoya, səhiyyə xərclərini artıra, iqtisadi inkişafı məhdudlaşdıra, yoxsulluğun aradan qaldırılmasını ləngidə və həmçinin ətraf mühitə bərpa edilməz ziyan vurmaqla sosial və geosiyasi gərginliyə səbəb ola bilər.

Stokholm Bəyannaməsi (2011) suyu “yaşıl iqtisadiyyatın şah damarı” kimi təsvir etmişdir. Məlum olduğu kimi, dünyanın bir çox bölgələrində su ehtiyatları məhduddur və artan əhali sayı, qida, sənaye və ətraf mühit üçün suya tələbat artdıqca, eləcə də dəyişən iqlim şərtləri fonunda suya olan təzyiqlər də paralel olaraq artır. Dünya sudan indiki templərlə istifadə etməyə davam edərsə, ehtimal edilir ki, 2030-cu ilə qədər tələb təklifi 40%-ə qədər üstələyəcək, bu da həm su, həm də ərzaq təhlükəsizliyini riskə atacaq, davamlı iqtisadi inkişafı məhdudlaşdıracaq və bütün iqtisadi sistemi özündə birləşdirən “yaşıl infrastrukturu” məhv edəcək.

Su təkcə iqtisadiyyatın bir hissəsi deyil; iqtisadiyyatın tam mərkəzi və aparıcı gücüdür. Onsuz iqtisadiyyat qurula bilməzdi. Beləliklə, su yaşıl iqtisadiyyatın qurulması üçün tələb olunan innovativ düşüncə və effektiv həllərin mərkəzi olaraq, gələcək nəsillər üçün qorunmalı və doğru idarə edilməldir. Bu məqsədlə, su təhlükəsizliyinə “İnteqrasiya edilmiş Su Ehtiyatlarının İdarəedilməsi (IWRM)” yanaşması tətbiq edilməli və onun dünya iqtisadiyyatlarının “yaşıllaşdırma” prosesinə rəhbərlik etmək potensialı aspektindən yanışılmalıdır.

İnteqrasiya edilmiş Su Ehtiyatlarının İdarə Edilməsi (İWRM) həyati vacib ekosistemlərin davamlılığına xələl gətirmədən ədalətli şəkildə iqtisadi və sosial rifahı maksimuma çatdırmaq üçün su, torpaq və əlaqəli resursların əlaqələndirilmiş inkişafını və idarə edilməsini təşviq edən bir prosesdir. Burada, su ehtiyatlarının bölüşdürülməsi ərazi, tələbat, iqtisadi və sosial amillər, sənaye, kənd təsərrüfatı, urbanizasiya və s. kimi digər amillər nəzərə alınmaqla həyata keçirilməli, maksimal su israfından yayınılmalı və minimal tələbi formalaşdırmaq üçün ədalətli su bölgüsü aparılmalıdır.

Birləşmiş Millətlər Təşkilatının “GLAAS 2021/2022” ölkə sorğusunda, əvvəlki “GLAAS” dövrlərində olduğu kimi, ölkələr əhatə dairəsi və xidmət səviyyəsi baxımından ifadə edilən milli içməli su və kanalizasiya hədəfləri barədə hesabatlarına əsasən Azərbaycan hazırda qoyulan hədəflər üzrə davam edən ölkələr siyahısındadr. Azərbaycanın bu hədəflərə çatması üçün tələb olunan siyasi iradə və maliyyə resurslarının təmin edilməsi ölkəmizi bu istiqamətdə layiq olduğu nəticəyə yönləndirmişdir. Lakin, eyni nəticəni çirkab su (kanalizasiya) xidmətləri sahəsində qeyd etmək mümkün olmamışdır. Belə ki, ölkəmizdə bu sektorda çətinliklər mövcuddur və vahid yanaşma tətbiq edilməmişdir.

*İçməli su və kanalizasiyaya çıxış üçün milli hədəflər:*

Azərbaycan “aşağı axın” xəttində və dənizə çıxışı olmayan orta-yüksək su stressli ölkə kimi qiymətləndirilir. Suya olan təlabatın artması su ehtiyyatlarına olan təzyiqləri də artırmaqdadır. Nəzərə alsaq ki, yerüstü su ehtiyatlarının 70 faizdən çox hissəsi transsərhəd su axınlarının hesabına formalaşır, Azərbaycan Respublikasının daxili su hövzələrində qeyri-bərabər paylanmış məhdud su ehtiyatlarının səmərəli istifadəsi və mühafizəsinin təmin edilməsi ən əsas vəzifələrdəndir. Eyni zamanda,




Map production: Water, Sanitation, Hygiene and Health, WHO.

**Drinking-water targets (*n* = 73)**

| | |
|---|---|
| On track (*n* = 33) | Argentina, Azerbaijan, Bahrain, Barbados, Belarus, Belize, Botswana, Brazil, Costa Rica, Croatia, Cuba, Egypt, El Salvador, Estonia, Greece, Honduras, Hungary, Jordan, Lao People's Democratic Republic, Mauritius, Montenegro, Morocco, Norway, Oman, Panama, Senegal, Serbia, Seychelles, Solomon Islands, Syrian Arab Republic, Thailand, Timor-Leste, Turkmenistan |
| Almost on track (*n* = 8) | Albania, Burundi, Ethiopia, Ghana, Mali, Sao Tome and Principe, South Africa, Uruguay |
| Acceleration needed (*n* = 32) | Bangladesh, Burkina Faso, Cabo Verde, Cameroon, Chad, Dominican Republic, Gabon, Guatemala, Haiti, Indonesia, Lebanon, Lesotho, Liberia, Madagascar, Maldives, Mauritania, Nepal, Nicaragua, Niger, Nigeria, Pakistan, Papua New Guinea, Paraguay, Philippines, Sierra Leone, Sudan, Tajikistan, Togo, United Republic of Tanzania, Uzbekistan, Zambia, Zimbabwe |

*Sources:* GLAAS 2021/2022 country survey; WHO/UNICEF JMP 2021.

**Fig. 4.1 Status of progress needed to reach national drinking-water coverage targets**

ölkəmizdə əhali sayının artması, iqtisadiyyatın böyüməsi və yeni torpaqların kənd təsərrüfatı dövriyyəsinə qaytarılması suya tələbatı getdikcə daha da artırmaqdadır.

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) son hesabatında ölkəmizin orta-yüksək su stresli kateqoriyasına aid edilməsi qarşımıza çox böyük hədəflər qoymaqdadır. **(Qrafik 1)**

Figure 10. Water stress levels (%) in Landlocked Developing Countries (2018)




*Source:* FAO IMI-SDG6 adapted from FAO (2021a).

Ölkəmizdə su ehtiyyatlarının inteqrə edilmiş idarəetməsinə keçid edilməsi labüddür!

Azərbaycanda məhdud su ehtiyyatları ilə maksimal səmərəliyin əldə edilməsi üçün "su təhlükəsizliyi" konsepsiyası üzərində işlənilməlidir. Azərbaycanın 10-20-30 illik su strategiyaları işlənilməli, vahid yol xəritəsi təşkil edilməlidir və bütün əlaqəli sektorlarla koordinasiyalı şəkildə inkişaf təmin edilməlidir. Bu ölkəmizdə vahid inkişaf siyasətinin təzahürü olaraq dəstəkləyici bütün infrastrukturların əlaqəli şəkildə inkişaf etdirilməsini və inteqrə edilmiş idarəedilməsini təmin edəcəkdir. Ölkə rəhbərliyi tərəfindən 2016-cı il tarixli Fərmanla "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi" təsdiq edilmişdir. Həmin Strateji Yol Xəritəsində su təsərrüfatının qurulması və səmərəliliyin artırılması qarşıya əsas hədəf kimi qoyulmuşdur. Bu məqsədlə, Strateji Yol Xəritəsində ölkənin su ehtiyatlarının və onlardan istifadənin uçotunun təkmilləşdirilməsi, sudan ödənişli istifadənin təyinatının müəyyənləşdirilməsi, bu sektor üzrə vahid tarif siyasətinin həyata keçirilməsi, su ehtiyatlarından səmərəli istifadə və ümumilikdə, su təsərrüfatının idarə olunmasında effektivliyin yüksəldilməsi məqsədilə ölkənin su təsərrüfatı balansının tərtibi, suyun mənbədən götürülməsindən tutmuş son istehlaka qədər olan bütün mərhələlər üzrə sudan istifadə haqqının sərfəli tənzimlənməsi istiqamətində tədbirlərin görülməsi təklif olunur.

Lakin təsdiq edilən yol xəritəsinin artıq yeni tələblərə və reallıqlara, o cümlədən texnoloji tərəqqiyə uyğun olaraq yenidən tərtib edilməsi və qarşıya həll edilməsi mümkün rasional hədəflərin qoyulması vacibdir. Bu məqsədlə, Aqualink şirkəti olaraq ölkəmizdə məsələnin "su təhlükəsizliyi" aspektindən baxılmasını təklif edir, bu istiqamətdə müvafiq işlərin aparılmasını təklif edirik.

Azərbaycanda «su təhlükəsizliyi»ni təmin etmək üçün bir neçə tamamlayıcı aspekt nəzərə alınmalıdır:

• Birincisi, əsas ehtiyacları ödəmək üçün əhalinin su təchizatı, qidalanması və sağlamlığının təmin edilməsi üçün kifayət qədər su ehtiyyatları formalaşdırılmalıdır.

• İkincisi, iqtisadi təhlükəsizlik, mal və xidmətlər istehsal etmək üçün kifayət qədər su təmin edilməli, su ədalətli və sərfəli yollarla əldə edilməlidir.

• Nəhayət, ekoloji təhlükəsizlik, təbiətə suyu qaytarmaq, bioloji müxtəlifliyi və gələcək nəsillərin həyatını qorumaq üçün lazım olan suyun kəmiyyət və keyfiyyəti təmin edilməldir.

Ölkəmizdə gələcək üçün su təmin etmək üçün su hüququ təfəkkürünü formalaşdırmaq, hər bir vətəndaşımızın sudan səmərəli və qənaətlə istifadəsini təşviq və təbliğ etmək lazımdır. Bununla yanaşı, sənayedə, kənd təsərrüfatında və su təsərrüfatında inteqrə edilmiş su ehtiyyatlarının idarə edilməsi prinsipi tətbiq edilməlidir. Qeyd edilən su təhlükəsizliyini qorumaq və təmin etmək üçün isə su siyasətini dəstəkləyən üç əsas elementin mövcud olması çox vacibdir: maliyyə, idarəetmə və bilik. Bu üç element arasında aydın və güclü qarşılıqlı əlaqə olmadan heç bir milli və ya yerli su siyasəti təşkil edilə bilməz.

Biz "yaşıl iqtisadiyyat"a keçid etdikdə mütləq dayanıqlı iqtisadi islahatları təmin etməliyik. "Yaşıl iqtisadiyyat" gələcək nəsilləri əhəmiyyətli ekoloji risklərə və ekoloji çatışmazlıqlara məruz qoymadan davamlı olaraq insanların rifahının yaxşılaşması və bərabərsizliklərin azalması ilə nəti-

cələnən iqtisadiyyat olduğundan burada səmərəlilik və ekoloji təsirilərin qiymətləndirilməsi çox vacibdir. Bu məqsədlə, "yaşıl iqtisadiyyat"da suyun önəmini vurğulamaq və tətbiq sahələrindən asılı olaraq onun doğru mühafizəsi və ağıllı idarəedilməsi həm siyasi həm də iqtisadi olaraq ölkəmizin maraqlarına daxil olmalıdır.

Çünki su kənd təsərrüfatının ana məhsuludur və yaşıl iqtisadiyyat daha az təbii resurslardan istifadə etməklə ərzaq təhlükəsizliyinə nail olmağı tələb edir. Buna təkmil su idarəçiliyi, əhəmiyyətli investisiyalar və innovasiyalar vasitəsilə nail olmaq olar. Bu, hər damla sudan səmərəli istifadə etməklə daha yüksək məhsuldarlığa nail olmağı nəzərdə tutur.

Ekosistemlərin mühafizəsi, təbii sərvətləri təkmilləşdirərkən və qoruyarkən dayanıqlı inkişafı, ədaləti, su təhlükəsizliyini, karbon emissiyalarını və çirklənməni azaltmaq, enerji və resurs səmərəliliyini artırmaq, biomüxtəlifliliyin qorunmasını təmin etmək üçün dövlət və özəl əməkdaşlığı gücləndirilməli, investisiyalar müştərək həyata keçirilməlidir. Bu məqsədlərə çatmaq üçün sənaye və kənd təsərrüfatında ideal olaraq "sıfır" tullantı hədəfinə doğru irəliləyərək qənaət edərək daha çox iş görməlidir.

Su təsərrüfatında "yaşıl iqtisadiyyat"a keçid mövcud təcrübələri analiz edərək gələcək hədəflərə uyğun rasional inkişaf xətti seçməklə mümkündür. Lazımi dəyişikliyi təşviq etmək və keçidi dəstəkləmək üçün isə bəzi əsas vasitələr işə salınmalıdır. Bunlar:

❑ **İqtisadi alətlər.** Düzgün tərtib edildikdə və həyata keçirildikdə, iqtisadi alətlər fərdi qərarları arzu olunan siyasət məqsədlərinə uyğunlaşdırmaq üçün vasitələrdir;

❑ **Maliyyə.** Yaşıl iqtisadiyyata keçid daha çox vəsaitin səfərbər edilməsini, eyni zamanda mövcud məhdud maliyyə resurslarından daha yaxşı istifadə etmək üçün səmərəliliyin artırılmasını tələb edir;

❑ **Biomüxtəlifliyə investisiyalar.**



Təbii kapitala sərmayə qoymaq ekosistemlər tərəfindən təmin edilən su ilə bağlı xidmətlərin bərpası və davam etdirilməsi üçün çox vacibdir;

❑ **Texnologiya.** Hökumətlər iş yerlərinin yaradılmasına və daha yaşıl iqtisadiyyatlara doğru struktur transformasiyasına töhfə verərək, innovasiyaları və daha yaşıl su təminatı və sudan istifadə texnologiyalarının qəbulunu asanlaşdırmalıdır;

❑ **Su planlaşdırması.** Su planlaşdırması müxtəlif istifadəçilərin rəqabət ehtiyaclarını ödəmək üçün su ehtiyatlarından istifadənin ən yaxşı yolunu müəyyən etmək üçün güclü sosial vasitədir.

İqtisadi alətlərin tətbiqi sektorda inkişafı sürətləndirməklə tətbiq dairəsini genişləndirməli, bu məqsədlə müxtəlif təşviqedici alətlər işə salınmalı, su planlaşdırılması isə ən üst səviyyədə müəyyənləşdirilməlidir. Belə ki, su planlaşdırılması olmadan iqtisadi sərmayələrin yatırılması, yeni ifrastruktun yaradılması, əlavə tələbatların formalaşdırılması həyata keçirilməməlidir. Eyni zamanda, sektorda dövlət-özəl əməkdaşlığın dərinləşdirilməsi və gücləndirilməsi, maliyyə, investisiyalar və standartlaşdırmaya özəl sektorun dəvət edilməsi sahənin daha möhkəm böyüməsinə səbəb olacaqdır.

2024-cü ilin cənab Prezident İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə «Yaşıl Dünya Naminə Həmrəylik İli» elan edilməsi ölkə və dövlət olaraq ətraf mühit, iqlim dəyişikliyi və dayanıqlılıq mövzularına ölkəmizin göstərdiyi diqqət və siyasətin bariz nümunəsi olmuşdur. Bu qərar ölkəmizdə həyata keçirilən ətraf mühitin, o cümlədən su ehtiyatlarının qorunması, onlardan səmərəli və qənaətlə istifadə praktikasının genişləndirilməsi, sənayenin və kənd təsərrüfatının ətraf mühitə təsirlərinin azaldılması yolu ilə "daha dayanıqlı ətraf mühit" siyasətinin təzahürüdür.

Biz, Aqualink şirkəti olaraq, bütün bu qeyd edilənləri nəzərə alaraq öz fəaliyyətimizi bu istiqamətdə təşkil etməyə çalışırıq. Sənayedə fəaliyyət göstərən özəl sektorun tədricən "yaşıl iqtisadiyyat"a keçidini təşviq etməyə, yeni dost texnologiyaların tətbiqinə həvəsləndiririk. Bizim fəaliyyətimizin əsas konsepti və şirkətimizin sloqanı "Gələcək üçün Su" şüarıdır. Biz həm fəaliyyətimizdə həm də yanaşmamızda bu konsepsiyanı tutaraq davam etməkdəyik. Eyni zamanda, bu konsepsiyanı dəstəkləmək, eləcə də cari ildə ölkəmizdə keçirilməsi nəzərdə tutulan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu ses-









siyasına (COP29) öz töhfəmizi vermək məqsədilə aşağıda qeyd olunan əsas 4 istiqaməti prioritet olaraq öz fəaliyyət planımıza daxil etmişik.

❑ Suya qənaət edən, səmərəli texnologiyaların tətbiqi;

❑ Ətraf-mühitə dost texnologiya və məhsulların tətbiqi;

❑ Çirkab suların təkrar emalı və bərpası yolu ilə dövriyyəyə qaytarmaq;

❑ Su ehtiyyatlarının və sistemlərinin “smart” idarəetməsinin təşkili.

Bu 4 istiqamət “yaşıl iqtisadiyyat”ın təməl prinsiplərinə, eyni zamanda isə BMT-nin dayanıqlı inkişaf hədəflərinə uyğun olaraq tərtib edilmiş və ölkəmizdə sənayenin tədricən bu istiqamətdə inkişafını təşviq etmək məqsədini güdməkdədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkənin su ehtiyyatlarının idarəedilməsinin təkmilləşdirilməsi və inkişaf etdirilməsi istiqamətində atılmış addımlar və uzaqgörən siyasəti nəticəsində müxtəlif fəaliyyətlər və strukturlar formalaşmışdır.

Sözügedən istiqamətdə cənab prezidentin sərəncamı ilə təsis edilmiş “su Kommissiyası”nın, eləcə də digər əlaqəli strukturların və dövlət qurumlarının fəaliyyətini özəl sektor olaraq dəstəkləmək və öz çərçivəmizdə sözügedən sahəyə töhfə vermək məqsədilə Xəzər Su İnnovasiya Forumunu təsis etdik. Bu forum vasitəsi ilə su təchizatı və kanalizasiya xidmətləri sektorunda vahid dövlət-özəl müzakirə platforması formalaşdırdıq. Hər il dünyanın müxtəlif ölkələrindən 100-lərlə peşəkar mütəxəssisləri ölkəmizdə toplayaraq regionun su təhlükəsizliyini və sənayedə yaşıl iqtisadiyyata keçid, su ehtiyyatlarının səmərəli istifadə edən texnologiyalara keçidi ilə bağlı müxtəlif maarifləndirici tədbirlər keçirdik. Cari ildə artıq 4-cü dəfə keçiriləcək Forum və ilk dəfə təşkil ediləcək İqlim-Su Zirvəsi vasitəsi ilə ölkəmizin və regionumuzun iqlim dəyişikliyi fonunda su ehtiyyatlarının səmərəli istifadəsi, ekoloji balansın qorunması, ekosistemin bərpası və ən sərt ssenarilərə hazırlıq mövzuları əsas müzakirə predmeti təşkil edəcəkdir.

Aqualink şirkəti olaraq biz, bütün gedən islahatlara sahibkarlıq aspektindən dəstək verir, bu istiqamətdə ictimai maarifləndirmənin aparılması, ölkəmizdə ətraf-mühitə dost texnologiyaların tətbiqində müxtəlif təbliğat işləri aparmaqdayıq. 2023-cü il ərzində Aqualink şirkətinin fəaliyyəti həm peşəkar həm də ictimai işlərlə zəngin oldu. Biz 2023-cü il ərzində "Beynəlxalq Aqro Biznes Forumu"nun rəsmi tərəfdaşı, "Su İnnovasiya Forumu"nun təşkilatçısı və bir sıra elmi seminar və görüşlərin iştirakçısı olduq. Təmsil olunduğumuz ictimai birliklərdə və təşkilatlarda ətraf-mühitə qayğı, sudan səmərəli istifadə və yaşıl iqtisadiyyata keçidlə bağlı müxtəlif formatlarda seminarlar keçirdik, maarifləndirmə işləri apardıq. Ölkəmizə tərəfdaşı olduğumuz aparıcı su və ətraf-mühit texnologiyaları şirkətlərinin 30 dan çox səfərini təşkil etdik, müvafiq tanışlıq və ixtisas artırma üzrə kurslar təşkil etdik. Hazırda isə ölkəmizin bir sıra ali təhsil ocaqlarında müvafiq sahələr üzrə praktik təlim mərkəzlərinin yaradılması istiqamətində işlər aparmaqdayıq.

Digər sahibkarlıq subyektlərinin bu istiqamətdə təşviq edilməsi məqsədilə 2023-cü ildə tərəfimizdən təsis edilmiş və “Xəzər Su İnnovasiya Forumu” çərçivəsində təqdim edilmiş “Yaşıl Biznes Mükafatı” ölkə ərazisində sudan səmərəli istifadə, ətraf-mühitə qayğı və ekologiyanın bərpası sahəsində fəaliyyətləri ilə seçilmiş yerli şirkətlərə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər (ETSN), İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin, Dövlət Su Ehtiyyatları Agentliyinin dəstəyi ilə təqdim edilmişdir. Biz davamlı olaraq bu istiqamətdə maarifləndirmə və təbliğat işləri aparmaqdayıq. Çünki biz suya dəyər qataraq, gələcək nəsillər üçün qoruyuruq...

*Mənbə: United nations world water development report; SDG-6 progress update 2021*

TRANSMİLLİ QİDA ŞİRKƏTİ




- KƏND TƏSƏRRÜFATI
- QİDA İSTEHSALI
- QABLAŞDIRMA VƏ KAĞIZ SƏNAYESİ
- SATIŞ VƏ TİCARƏT

AZERSUN



MÜSAHİBƏ

BİZNES HƏYATI

**Ziya Hacılı**
Azərbaycan Sahibkarlar Konfederasiyası
prezidentinin müşaviri

# Yaşıl iqtisadiyyat çağırışının tarixi

*Ziya müəllim, yaşıl iqtisadiyyatla bağlı qlobal çağırışların tarixi haradan başlayır?*

- Yaşıl iqtisadiyyatın tarixinin əsasən ötən əsrin 60-70-ci illərində sənayeləşmənin ətraf mühitə mənfi təsirləri ilə bağlı narahatlıqları artıran ekoloji proseslərdən başlandığını hesab etmək olar. Bu, dayanıqlı iqtisadi və ekoloji inkişafa olan ehtiyacın getdikcə tanınmasına səbəb oldu ki, nəticədə yaşıl iqtisadiyyat konsepsiyası meydana çıxdı.

Yaşıl iqtisadiyyat anlayışı ilk dəfə 1972-ci ildə İsveçin Stokholm şəhərində Birləşmiş Millətlər Təşkilatının İnsan Ətraf Mühit Konfransında təqdim edilmişdir. Bu konfransda ətraf mühitin qorunması və davamlı inkişafın təşviq edilməsinin vacibliyi irəli sürülmüşdür.

1992-ci ildə baş tutan Rio Yer Sammiti (Rio Earth Summit) və bu qəbildən olan beynəlxalq müqavilələr 1980 və 1990-cı illərdə ekoloji davamlılığın iqtisadi inkişafa inteqrasiyasının vacibliyinə qlobal diqqəti cəlb etdi. Bu, daha dayanıqlı və ekoloji cəhətdən təmiz iqtisadiyyatı təşviq etmək məqsədi daşıyan siyasətin qəbul edilməsinə, bununla bağlı təcrübələrin təşəkkül tapmasına səbəb oldu.

*Bu proseslər yəqin ki, yeni əsrimizdə daha da sürətləndi, deyilmi?*

- Tamamilə doğrudur. 2000-ci illərin əvvəllərində bərpa olunan enerji və təmiz texnologiyalara diqqətdə əhəmiyyətli dəyişiklik baş verdi. Hökumətlər və müəssisələr günəş, külək və su enerjisi kimi bərpa olunan enerji mənbələrinə sərmayə qoymağa və enerji səmərəliliyi tədbirlərini təşviq etməyə başladılar. Bu, aşağı karbonlu iqtisadiyyata keçidin başlanğıcı oldu.

Xüsusilə qeyd etmək olar ki, 2008-ci ilin qlobal maliyyə böhranı yaşıl iqtisadiyyatın zəruriliyinə diq-

qəti daha da artırdı. Çünki hökumətlər iqtisadi artımı stimullaşdırmaqla yanaşı getdikcə dərinləşən ekoloji problemləri həll etməyə çalışırdılar. Bir çox ölkələr yaşıl infrastruktura sərmayə qoymaq və davamlı sənayeləri təşviq etmək kimi "yaşıl tədbirləri" iqtisadi bərpa planlarına və strateji sənədlərə daxil etməyə başladılar.

*Bundan sonra isə yaşıl çağırışlar daha da aktuallaşdı...*

- Elədir, bundan sonra yaşıl iqtisadiyyat konsepsiyası inkişaf etməyə və böyüməyə davam etdi. O, bərpa olunan enerji, davamlı kənd təsərrüfatı, yaşıl tikinti və eko-turizm kimi müxtəlif sektorları əhatə etməyə başladı. Hökumətlər, müəssisələr və fərdlər yaşıl sənayelərin iqtisadi potensialını və daha dayanıqlı və dayanıqlı iqtisadiyyata keçidin vacibliyini getdikcə daha çox dərk etməyə başladılar.

Bayaq vurğuladığım kimi, 1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit və İnkişaf üzrə Konfransı (Yer Sammiti) baş tutdu. Sammit qlobal ekoloji problemləri həll etmək və davamlı inkişafı təşviq etmək üçün dünya liderlərini bir araya gətirdi. O, yaşıl iqtisadiyyat ideyasını daha da irəli çıxardı və davamlı inkişaf üçün hərtərəfli fəaliyyət planı olan Gündəlik 21-in qəbul edilməsinə səbəb oldu.

2012-ci ildə isə Braziliyanın Rio-de-Janeyro şəhərində BMT-nin Rio+20 kimi tanınan Davamlı İnkişaf Konfransı keçirildi. Konfransın məqsədi davamlı inkişaf üçün yenilənmiş siyasi öhdəliyi təmin etmək və 1992-ci ildə keçirilən Yer Sammitindən sonra əldə edilmiş tərəqqini qiymətləndirmək idi. Burada da yaşıl iqtisadiyyat iş yerlərinin yaradılması, yoxsulluğun azaldılması və qlobal miqyasda davamlı inkişafın təşviq edilməsi potensialı ilə bağlı müzakirələrin aparıldığı konfransın mərkəzi mövzusu idi.

*Yaşıl dünya, yaşıl iqtisadiyyat yanaşmasına keçidin ideoloji əsasları barədə nələri qeyd edərdiniz?*

- Yaşıl iqtisadiyyatın başlıca tarixi xronologiyası təfəkkürün ənənəvi iqtisadi modellərdən ekoloji davamlılığı prioritetləşdirən modelə keçidi ilə xarakterizə olunur. Bu, təbii sərvətlərin məhdud təbiəti və gələcək nəsillər üçün ətraf mühitin qorunması zərurəti haqqında artan məlumatlılığı əks etdirir. Dünya bu gün iqlim dəyişikliyi və resursların tükənməsi kimi aktual problemlərlə üzləşdiyi üçün yaşıl dünya, o cümlədən yaşıl iqtisadiyyat daha davamlı və firavan gələcəyə doğru yeganə yoldur.

Yaşıl iqtisadiyyat konsepsiyası, çox sevinclə qeyd edirəm ki, ölkəmiz də daxil olmaqla bu gün bütün dünyada yayılmaqda, aktuallaşmaqda davam edir. Hökumətlər, biznes qurumları və vətəndaş cəmiyyəti təşkilatları aşağı karbonlu, resurslardan səmərəli istifadə edən və sosial cəhətdən inklüziv iqtisadiyyata keçidin vacibliyini getdikcə daha çox dərk edirlər. Bərpa olunan enerji, davamlı kənd təsərrüfatı, yenilənən iqtisadiyyat və digər yaşıl təşəbbüsləri təşviq etmək üçün səylər göstərilir. Məqsəd ətraf mühitə təsirləri minimuma endirməklə bərabər davamlı inkişafa nail olmaq, bununla da zəngin və yaşıl dünyanı təmin etməkdir.

*Dövlətlərin və ictimai institutların bu böyük ideoloji, siyasi magistralda rolunu necə qiymətləndirirsiniz?*

Yaşıl dünya və yaşıl iqtisadiyyat konsepsiyasında sosial, demoqrafik və iqtisadi vəzifələri müəyyən etmək üçün hər şeydən öncə göstəricilər sistemini düzgün müəyyən etmək lazımdır.

Dövlətlərin və ictimai institutların burada rolunun mühüm hissəsi əsas hərəkətverici qüvvələr kimi əhalinin artımı və fərdlərin ehtiyac və fəaliyyətlərindəki inkişafla bağlıdır. İstehsal və istehlakdakı dəyişikliklər ətraf mühitə təzyiq göstərirlər.

Tənzimləyici institutlar əsas hərəkətverici qüvvələri bu sahədə siyasət hədəfi kimi müəyyən etməlidirlər. Hərəkətedici qüvvələrin göstəriciləri əsasən bunlar ola bilər:

- Əhali (sayı, yaş strukturu, təhsil səviyyəsi və s.)
- Nəqliyyat (quru yol, su, hava, yolsuzluq və s.)
- Enerji istifadəsi (fəaliyyət növünə görə enerji amilləri, yanacaq növləri, texnologiya)
- Elektrik stansiyaları (stansiyaların növləri, yaşı, yanacaq növləri)
- Sənaye (resurs növləri, yaşı və s.)
- Mədən (zavod növləri/mədənçilik, yaş strukturu)
- Qeyri-sənaye sektorları
- Torpaqdan istifadə, kənd təsərrüfatı (heyvandarlıq sahələri, əkin növləri və s.)

Bu göstəricilər həm qlobal, həm də ölkələr səviyyəsində əsasən sosial, demoqrafik və iqtisadi inkişafı və buna uyğun olaraq həyat tərzində, istehlakın ümumi səviyyəsində, eləcə də istehsal modellərində baş verən dəyişiklikləri ifadə edir.

Beynəlxalq Enerji Agentliyinin hesablamaları göstərir ki, cari ilə qədər dünyada bərpa olunan mənbələr hesabına enerji istehsalı 5 il əvvəlki dövrlə müqayisədə 50% artacaqdır.

Ölkəmizdə də son illər bu istiqamətdə önəmli addımlar atılmışdır. Xüsusən də elektrik enerjisi istehsalı mənbələrini şaxələndirmək istiqamətində tədbirlər həyata keçiririk. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsi ilə bağlı konkret tapşırıqlar yer almışdır. Bu siyasət və onun hədəflərinə nail olunması istiqamətində atılan addımlar şübhəsiz ki, ölkəmizdə və regionda "yaşıl iqtisadiyyat"ın inkişafına, rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsinə, ekoloji vəziyyətin yaxşılaşdırılmasına xidmət edəcəkdir.



MƏQALƏ

BİZNES HƏYATI

**Zaur Qardaşov**
Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA)
İdarə Heyəti sədrinin müşaviri

# "Yaşıl iqtisadiyyat" və iqlim dəyişiklikləri ilə mübarizə Azərbaycan startaplarının diqqətində

Startaplar yeni biznes istiqaməti kimi sürətlə inkişaf edir və unikal ideyaları ilə davamlı yeniliklər gətirməklə həyatımızı asanlaşdırırlar. Son dövrlər uğurlu azərbaycanlı startapların sayı sürətlə artmaqdadır. Buna səbəb həm də dövlət tərəfindən startap ekosisteminə göstərilən diqqət, innovativ ideyaların yaranmasını və inkişafını dəstəkləyən dövlət dəstəyi mexanizmlərinin işə salınmasıdır. Bu cür dəstəklər gəncləri stimullaşdırmaqla yanaşı, yeni ideyaların reallaşmasına və yeni startap layihələrini qlobal bazarlara çıxarmağa dəstək olur.




**Azərbaycanda startap ekosistemi 10 il əvvəl və indi**

Azərbaycanın startap ekosistemi son 10 ildə əhəmiyyətli dərəcədə inkişaf edib. 2010-cu illərin əvvəllərində başlanğıc mərhələsində olan bu inkişaf son bir neçə ildə sürətlənib. Biznes mühitinin yaxşılaşdırılması, texnoloji yeniliklərin həyatımıza sürətlə daxil olması, startaplar üçün təlim və mentorluq proqramlarının əlçatanlığı bu inkişafın əsas hərəkətverici amillərindəndir. Azərbaycanın qlobal texnoloji mühitə inteqrasiyası və son illər bu istiqamətdə müşahidə olunan inkişaf startap ekosisteminə təsirsiz ötüşməyib. Nəticədə İKT məhsullarına, texnologiyalara, onlayn platformalara artan tələbat texnoloji startapların sayının artmasına gətirib çıxarıb. Hazırda müxtəlif qurumlar və təşkilatlar tərəfindən startapları dəstəkləmək üçün bir sıra alətlər və mexanizmlər işə salınıb, sistemli və uzunmüddətli proqramlar, yol xəritələri təsdiqlənib. Startaplara göstərilən bir sıra vacib dövlət dəstəyi mexanizmləri isə məhz 2021-ci ildən etibarən yaradılıb. Buna misal olaraq startap ekosisteminin vacib elementlərindən olan "Startap" şəhadətnaməsini, startaplara qrantların verilməsini, texnologiyalar parkının rezidentləri üçün nəzərdə tutulan güzəştləri, Startap İnkişaf Mərkəzinin və startapların inkişafı üçün zəruri olan ilk vençur fondunun yaradılmasını qeyd etmək olar. Bütün bu proseslər həm də kölgədə qalmış startapların üzə çıxmasına təsir edir. Bu səbəbdən də son bir neçə ili startapların sürətli inkişaf dövrü kimi xarakterizə etmək mümkündür.

**Dövlətin təşviq alətlərinin startap ekosisteminin inkişafına təsiri**

Dövlətin müxtəlif təşviq mexanizmlərinin startap ekosisteminin inkişafına təsiri çoxşaxəlidir. Bu dəstək alətləri əsasən startapların yaranması, inkişafı və bazara uğurlu inteqrasiyası mərhələlərini əhatə edir. Startaplara qrantlar, güzəştli kreditlər və investisiya dəstəyi verilir, texnoparklar və inkubasiya mərkəzləri startaplara ofis sahəsi, texniki dəstək, mentorluq və təlimlər təqdim edir. Belə mərkəzlər startapların qarşılaşdıqları çətinliklərin öhdəsindən gəlmələrinə və sürətlə inkişaf etmələrinə kömək edir, onların tanınmasını və beynəlxalq bazarlara çıxışını dəstəkləyir. Bu cür dəstəkləri təmin edən dövlət qurumları sırasında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, ASAN İnnovativ İnkişaf Mərkəzi kimi qurumları qeyd etmək olar. Sevindirici haldır ki, özəl sektor da bu proseslərdən kənarda qalmır, banklar, mobil rabitə operatorları, Azərbaycanda fəaliyyət göstərən transmilli neft şirkətləri və digər sahibkarlar bu prosesdə aktiv iştirak edirlər.

Beynəlxalq təcrübə göstərir ki, startap ekosisteminin inkişafına təsir edən əsas amillərdən biri də vergi güzəştləri ilə bağlıdır. Startapların xərclərinin azaldılması və inkişaflarının daha effektiv təmin edilməsi məqsədilə Nazirlər Kabinetinin 2021-ci il 29 yanvar tarixli Qərarı ilə təsdiq edilmiş "Startapın müəyyən olunması meyarları"na əsasən mikro və kiçik sahibkarlıq subyektlərinə "Startap" şəhadətnaməsi verilir. "Startap" şəhadətnaməsi - innovativ təşəbbüsə əsaslanaraq sahibkarlıq fəaliyyəti həyata keçirən mikro və kiçik sahikarlıq subyektlərinin bu fəaliyyətdən əldə etdikləri gəlirlər üzrə mənfəət və ya gəlir vergisindən 3 il müddətinə azad olunmalarına əsas verən və KOBİA tərəfindən təqdim olunan hüquqi sənəddir. Sözügedən vergi güzəştləri startapların maliyyə yükünü azaltmaqla, resurslarını layihənin inkişafına yönəltməyə imkan verir. Vergi güzəştləri startapların maliyyə dayanıqlığını artırır və onların böyüməsini sürətləndirir. "Startap" şəhadətnaməsinin ən böyük üstünlüyü vergi güzəştləri olsa da, təcrübədə görürük ki, bu sənəd

həmçinin startapa yerli və xarici investorların cəlb edilməsini, xarici bazarlara çıxışını asanlaşdırır. Son bir ildə "Startap" şəhadətnaməsini almaq üçün KOBİA-ya daxil olan müraciətlərin sayında dinamik artım müşahidə edilir. Bu göstərici həmin dəstək mexanizminin effektiv işləməsindən, gənclərin bu sahəyə marağının artmasından xəbər verir.

Bütün bunların fonunda bir sıra uğur hekayələrini də qeyd etmək yerinə düşərdi. Bu yaxınlarda Azərbaycan startapı "Dr.Agro" Niderland şirkəti tərəfindən satın alınıb. Onlayn təhsil platforması olan "Metatesk" startapının təsisçisi Günay İmanzadə "Forbes" jurnalının dərc etdiyi "30 UNDER 30" dünyanın 30 ən uğurlu gənc sahibkarı siyahısında yer alıb. Azərbaycanlı gənclər tərəfindən qurulmuş "Unibroad" təhsil platforması dünyanın ən yaxşı təhsil startapları arasında London şəhərində "Microsoft", "Meta", "Samsung" kimi şirkətlərin məhsulları ilə birgə sərgilənib. "Glorri" startapının dəyərləndirilməsi 7 mln. ABŞ dollarını keçib. Kağız çeklərin rəqəmsallaşması platforması olan "Recepta" startapı isə ölkəmizi 2024-cü ilin 7-9 may tarixlərində Əbu-Dabi şəhərində keçirilən və dünyanın 100-ə yaxın ölkəsindən startapların öz layihələrini investorlara təqdim etdiyi İllik İnvestisiya Toplantısında (AIM Congress) təmsil edərək, münsiflər heyətinin favorit layihələri arasında yer alıb. Yerigəlmişən Əbu-Dabidə ölkəmizi təmsil etmiş "Recepta" startapı KOBİA və ABB İnnovasiya Mərkəzinin tərəfdaşlığı ilə keçirilmiş milli tur çərçivəsində seçilib. Adıçəkilən layihələrin dördünə də KOBİA tərəfindən "Startap" şəhadətnaməsi verilib. "Dr. Agro" layihəsi isə "Startap" şəhadətnaməsi ilə yanaşı, KOBİA tərəfindən keçirilmiş 4-cü qrant müsabiqəsinin qalibi kimi 16 min manat həcmində maliyyə dəstəyi də alıb. Azərbaycan startaplarının qeyd edilən uğurları yalnız son bir neçə ayda əldə olunmuş nailiyyətlərdir. Bu siyahını davam etdirmək olar, amma bu uğurları bir məqaləyə sığışdırmaq çətindir. Həmin startapları birləşdirən başlıca ortaq nöqtə isə onların layihələrinin inkişafına dövlət tərəfindən dəstək göstərilməsidir.




**"Startap" şəhadətnaməsi almaq istəyənlərə tövsiyələr**

2024-cü ilin 1 iyun tarixinə KOBİA-ya "Startap" şəhadətnaməsinin alınması məqsədilə 293 müraciət daxil olub, 151 mikro və kiçik sahibkarlıq subyektinə "Startap" şəhadətnaməsi verilib. Göründüyü kimi "Startap" şəhadətnaməsi alanların sayı ümumi müraciətlərin 50%-ni təşkil edir. Bu o deməkdir ki, şəhadətnamənin verilməsi prosesi kifayət qədər şəffaf və sadə qurulub. Şəhadətnamənin verilməsi üçün sektorlar üzrə də hər hansı məhdudiyyət yoxdur. İndiyədək daha çox fintek, logistika, elektron ticarət, təhsil, aqrotek və s. sahələrdə proqram təminatı və mobil tətbiqlər üzrə müraciətlər daxil olub.

Startap layihəsinin ən vacib meyarı onun unikallığıdır. "Startap" şəhadətnaməsini almaq üçün müraciət edən şəxslər tərəfindən təqdim edilmiş sənədlərdə çatışmazlıq olmadıqda bu layihələrə Ekspertlər Şurasının iclaslarında onların iştirakı ilə baxılır, məhsul və ya xidmətin innovativliyi, rəqabətqabiliyyətliliyi, digər startap məhsulu ilə eynilik təşkil edib-etməməsi, layihənin gəlirlilik potensialı nəzərdən keçirilir və səs çoxluğu ilə qərar qəbul edilir. İmtina almış startap müraciətlərində əsas çatışmayan cəhət ondan ibarətdir ki, bir çoxlarında startap olmaq istəyi olsa da, onların startap ideyasını düzgün təqdim etmək, inkişaf etdirmək üçün bilikləri məhduddur. Bu səbəbdən startapların daha çox təlimlərə və mentor dəstəyinə ehtiyacı var. "Startap" şəhadətnaməsi almaq üçün müraciət etmiş və bu sənədi ala bilməyənləri KOBİA-nın xüsusi hazırlıq proqramlarına cəlb edirik. Növbəti müraciət-




lərdə onlar əvvəl yol verdikləri bütün boşluqları aradan qaldırır və təkrar müraciət üçün onlara şərait yaradılır.

**Startaplar və "yaşıl iqtisadiyyat"**

İqlim dəyişiklikləri və ətraf mühitin çirklənməsi ilə mübarizə, azalan təbii ehtiyatların səmərəli istifadəsi və artan tələbatın qarşılanması məsələləri startapların diqqətindədir. Yerli startaplar mütəmadi olaraq bu cür innovativ həllərlə "yaşıl iqtisadiyyat"a və iqlim dəyişiklikləri ilə mübarizəyə töhfə verməyə çalışırlar. Startaplarımızın bərpa olunan enerji, enerji səmərəliliyi, aqro texnologiyalar, ekoloji maarifləndirmə, tullantıların idarə edilməsi və s. sahələrdəki layihələri ətraf mühitin qorunması, "yaşıl iqtisadiyyat"a keçid ilə yanaşı, iqtisadi inkişaf baxımından da önəmlidir.

2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Azərbaycanda keçiriləcək. COP29-un Azərbaycanda keçirilməsi, ölkənin iqlim dəyişikliyi ilə mübarizədə qlobal səylərə verdiyi dəstəyi nümayiş etdirir və regionda ətraf mühit problemlərinə diqqəti cəlb edir. Bu həm də "yaşıl iqtisadiyyat" və "yaşıl innovasiyalar" konsepsiyasına diqqəti daha da artırır.

"Startap" şəhadətnaməsi və qrant dəstəyi ilə bağlı sahibkarlardan və startaplardan daxil olan müraciətlərdə biz bunu əyani şəkildə görə bilirik. Son 3-4 ayda "Startap" şəhadətnaməsi və qrant dəstəyi ilə bağlı KOB subyektlərindən aldığımız müraciətlər arasında bu sahələr üzrə layihələr də var. Bunların biri cari ilin mart ayında KOBİA-dan "Startap" şəhadətnaməsi almış "Auto Source" layihəsidir. Sözügedən layihə alternativ içməli su mənbəyi kimi məhsul hazırlanmasını nəzərdə tutur. Digər layihə "Azprofeed" layihəsidir. Üzvü tullantıların emal edilərək yem istehsalında istifadə oluna biləcək alternativ protein və gübrənin istehsalını nəzərdə tutan layihə ölkədə qida tullantılarının səmərəli emalı, ölkəyə idxal olunan qiymətli komponentlərə ucuz əvəzedicinin istehsalı məqsədi daşıyır. İnnovativ külək generatoru, MDB məkanında ilk R2 sertifikatının alınması və s. startaplar daxil olmaqla, ümumilikdə indiyədək KOBİA tərəfindən "yaşıl layihələr"ə və "yaşıl iqtisadiyyat"a keçidə töhfə verə biləcək 15 layihəyə qrant ayrılıb, 10-a yaxın "Startap" şəhadətnaməsi verilib.

**Milyonluq startaplara gedən yolda ehtiyaclar**

Hazırda startap ekosistemi genişlənir və güclənir. Prosesin davamlı olması, startapların uğur qazanması üçün maliyyə dəstəyi və investisiya imkanlarının artırılması vacibdir. Startap və innovasiya sahəsi investisiyaları ən çox sevən, eyni zamanda sərmayə qoyuluşlarının ən sürətli geri dönüşü olan və yüksək gəlir gətirən sahələrdəndir. Beynəlxalq təcrübə göstərir ki, startap ekosisteminə daha çox vəsait xərcləyən ölkələr daha çox uğur əldə edir. Azərbaycan gəncləri öz savadları, dil və baza texniki biliklərinə görə region ölkələri arasında ilk yerlərdən birini tutur. Zəncirin çatışmayan halqası - ekosistemə daha çox maliyyə vəsaitinin qoyulması, yeni dəstək mexanizmlərinin işə salınmasıdır. Burada dövlətlə yanaşı, özəl sektorun üzərinə də xeyli iş düşür. Gələcək planlarımızda dövlət-özəl tərəfdaşlığı mexanizmi əsasında yeni vençur fondlarının yaradılması, eləcə də Startap İnkişaf Mərkəzi şəbəkəsinin genişləndirilməsi istiqamətində səylərimizi davam etdirmək var.




MÜSAHİBƏ

BİZNES HƏYATI

Cəbrayıl Əliyev
Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin
Layihələrin idarə edilməsi şöbəsinin müdiri

# Cəbrayıl Əliyev:
# "Bərpa olunan enerji sahəsində beynəlxalq şirkətlərlə müqavilələr imzalanıb"

Yaşıl enerjiyə keçid üçün karbohidrogen resurslarına alternativ – bərpa olunan enerji mənbələrindən istifadə dünyanın inkişafda olan trendidir.
Bu sahədə Azərbaycanda vəziyyət necədir, ölkəmizin alternativ enerji mənbələri üzrə potensialı varmı?
BH jurnalının suallarını Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin Layihələrin idarə edilməsi şöbəsinin müdiri Cəbrayıl Əliyev cavablandırıb.

Yerli su ehtiyatlarının 25%-i Qarabağ ərazisində formalaşdığını nəzərə alaraq qeyd edə bilərik ki, işğaldan azad olunmuş ərazilərdə kifayət qədər hidroenerji potensialı da mövcuddur. Regionun enerji təminatının daha səmərəli təşkili üçün bu ərazilərdə yeni su elektrik stansiyalarının qurulması üçün araşdırmalar aparılır.



*- Azərbaycan ərazisində mövcud olan bütün bərpa olunan enerji mənbələri üzrə potensialı necə dəyərləndirirsiniz?*

- Məlum olduğu kimi, Azərbaycan bərpa olunan enerji mənbələri (BOEM) üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Ölkəmizin bərpa olunan enerji mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt təşkil edir. Bərpa olun enerji mənbələrinin iqtisadi potensialına gəlincə bu göstərici 27 QVt təşkil edir. Bunun da 23 QVt-ı günəş, 3 QVt-ı külək, 1 QVt isə bioenerji və dağ çaylarının payına düşür. Eyni zamanda, ölkəmizin enerji resursları ilə zəngin olmasına və dünyada enerji ixracatçısı kimi tanınmasına baxmayaraq BOEM-dən istifadə həmişə diqqət mərkəzində olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin təməl elementlərindən biri də məhz ölkəmizdə BOEM-dən istifadənin genişləndirilməsindən ibarətdir.

*- Yaşıl enerjinin bazar potensialı nə qədər yüksəkdir və ölkəmiz burada aktiv oyunçu ola bilərmi?*

- Azərbaycan 2030-cu ilədək enerji balansında BOEM payını 30 faizə yüksəltməyi hədəfləyir. Bu, ölkəmizin enerji təhlükəsizliyini və dayanıqlı iqtisadi inkişafının gücləndirilməsi, habelə ekoloji vəziyyətin yaxşılaşdırılması baxımından olduqca əhəmiyyətlidir. BOEM-dən istifadənin genişləndirilməsi məqsədilə ölkəmizdə çoxsaylı layihələr həyata keçirilir və yeni layihələrin icrası istiqamətində ciddi addımlar atılır. Bu məqsədilə dövlət investisiyası ilə yanaşı, özəl, o cümlədən xarici investisiya hesabına yeni istehsal güclərinin istifadəyə verilməsi istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Bildirmək istərdik ki, bərpa olunan enerji mənbələrindən istifadə ilə bağlı bp, Masdar, ACWA Power, Fortescue Future Industries, China Gezhouba Group Overseas Investment şirkətləri ilə çox mühüm layihələr imzalanıb. Bunlar Azərbaycanda yüksək potensiala malik bərpa olunan enerji mənbələrindən istifadə üçün atılmış ciddi addımlardan biridir.

*- 2030-cu ilədək Azərbaycanda elektrik enerjisi qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 30%-ə çatdırılması, işğaldan azad olunmuş ərazilərin "Yaşıl Enerji" Zonasına çevrilməsi hədəflənir. Bu sahədə özəl sektorun iştirakını necə görürsünüz?*

- İşğaldan azad olunmuş ərazilərimizdə də yüksək bərpa olunan enerji mənbələri mövcuddur. Bu, xüsusən özünü dağ çaylarının enerjisində, günəş və külək enerjisində göstərir. Xüsusilə vurğulamaq istərdim ki, xarici investorlar bərpa olunan enerji sahəsinə investisiya yatırmaqda böyük



maraq göstərir və işğaldan azad edilən ərazilərdə BOEM-in inkişafı ilə əlaqədar bir neçə beynəlxalq nüfuzlu şirkətlərlə iri həcmli müqavilələr imzalanıb. Məsələn, Cəbrayıl rayonunda BP şirkəti ilə 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisi ilə bağlı ciddi danışıqlar həyata keçirilir, növbəti ildən artıq bu stansiyanın tikintisinə başlanılacaqdır. Eyni zamanda, Laçın və Kəlbəcər rayonunun yüksək ərazilərində külək enerji potensialından istifadə məqsədilə ölçü müşahidə işlərinə start verilir və burada da külək elektrik stansiyasının quraşdırılması üçün mühüm imkanlar yaradılacaqdır. Qeyd olunanlar ilə yanaşı, özəl sektorun iştirakı ilə Qarabağ zonasında kiçik su elektrik stansiyalarını bərpası istiqamətində də ciddi işlər həyata keçirilməkdədir. Qeyd etmək istərdik ki, son dövrlərdə artıq bu istiqamətdə beş su elektrik stansiyasının özəl investisiyanın hesabına bərpası işləri həyata keçirilir.

*- Azərbaycanda bərpa olunan enerji sahələrinin investisiya cəlbediciliyi nə qədər yüksəkdir və onun artırılması istiqamətində hansı tədbirlər görülür?*

- Azərbaycanda bərpa olunan enerji sahələrinin sərmayə cəlbediciliyi günümüzdə əsas mövzulardan biridir və bir çox şirkətlərin bu sahəyə investisiya yatırmaqda marağının olması Azərbaycanın regionda stabilliyindən xəbər verir və bu səbəbdən də xarici investorlar tərəfindən bərpa olunan enerji sahəsinə, xüsusilə də günəş və külək elektrik stansiyalarına sərmayələr yatırılmaqdadır. Təbii ki, bu sərmayələr birbaşa olaraq yaşıl enerjinin inkişafına, ölkədən təbii karbohidrogen resurslarıın hasilatına qənaətlə yanaşmaqla yanaşı, ixrac potensialının artmasına imkan yaradacaqdır. Eləcə də, bu mənbələrdən istifadə ətraf mühitə atılan karbon tullantılarının miqdarının azalmasına və Azərbaycanın Paris və Qlazqo iqlim sazişləri ilə üzərinə götürdüyü öhdəlikləri tam olaraq yerinə yetirməsinə təkan verəcəkdir.

*- İşğaldan azad edilmiş ərazilərin bərpa olunan enerji potensialını necə görürsünüz?*

- İşğaldan azad olunmuş ərazilər yuxarıda qeyd etdiyimiz kimi, yüksək potensiala malikdir. 7200 meqavatdan çox günəş, 2 min meqavatadək külək enerjisi potensialı mövcuddur. Günəş enerjisi potensialı üzrə Füzuli, Cəbrayıl, Zəngilan rayonları, külək enerjisi potensialı üzrə əsasən dağlıq rayonlar olan Laçın və Kəlbəcər əraziləri daha zəngindir. Eyni zamanda, yerli su ehtiyatlarının 25%-i Qarabağ ərazisində formalaşdığını nəzərə alaraq qeyd edə bilərik ki, işğaldan azad olunmuş ərazilərdə kifayət qədər hidroenerji potensialı da mövcuddur. Regionun enerji təminatının daha səmərəli təşkili üçün bu ərazilərdə yeni su elektrik stansiyalarının qurulması üçün araşdırmalar aparılır. Artıq əvvəldə vurğuladığım kimi, bir neçə su stansiyası bərpa edilib, həm də yenidən qurulub. Hazırda cari dövrədək ümumilikdə işğaldan azad olunmuş ərazilərdə 28 kiçik su elektrik stansiyası fəaliyyət göstərir. Bunların da ümumi gücü təqribən 225 meqavata bərabərdir. Bununlada qeyd edə bilərik ki, hazırda işğaldan azad olunmuş ərazil tam olaraq yaşıl enerji ilə qidalanır və hətta artıq enerji ölkənin enerji sisteminə ötürülür.

*- "Masdar" şirkətinin baş icraçı direktoru Mohamed Jameel Al Ramahi ölkəmizdəki layihə ilə bağlı bildirmişdi ki, biz Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizə məqsədlərinə çatmasına dəstək vermək üçün birlikdə çalışırıq. Bugün isə Azərbaycan COP-29-a ev sahibliyi etməyə hazırlaşır və daha böyük beynəlxalq investisiya şirkətlərini qarşılayacaq. Tədbirdən gözləntiləriniz nədir?*

Azərbaycan COP-29-a evsahibliyi etməklə BMT-nin iqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasının tərəfi kimi üzərinə götürdüyü öhdəliklər, yaşıl enerji sektorunda reallaşdırdığı layihələr haqqında məlumatları dünya ictimaiyyətinin diqqətinə çatdırmaq imkanı əldə edəcək.



- Qeyd etmək istərdim ki, bu ilin noyabr ayında Bakıda keçiriləcək COP-29 konfransında yüzdən çox dövlət və hökumət başçıları, ekologiya və ətraf mühit məsələlərinə cavabdeh nazirlər, həmçinin böyük şirkətlərin, beynəlxalq təşkilatların, BMT-nin müvafiq qurumlarının nümayəndələri iştirak edəcəklər. Bu il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Bu səpkidə bu tədbir ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, bu toplantıda iqlim dəyişikliyi ilə mübarizə, gələcəkdə bərpa olunan enerji ehtiyatlarının istifadəsi, su ehtiyatlarının idarə olunması, təbii fəlakətlərin qarşısının alınması kimi məsələlər müzakirə olunacaq. Bunun üçün ayrılan maliyyə vəsaitinin düzgün idarəolunması məsələsi də gündəmə gələcək. Çünki yaşıl texnologiyanın inkişafı ilə bağlı maliyyə resursları düzgün ayrılmalı və idarə edilməlidir. Azərbaycan COP-29-a evsahibliyi etməklə BMT-nin iqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasının tərəfi kimi üzərinə götürdüyü öhdəliklər, yaşıl enerji sektorunda reallaşdırdığı layihələr haqqında məlumatları dünya ictimaiyyətinin diqqətinə çatdırmaq imkanı əldə edəcək. Ümumilikdə isə ölkəmiz COP-a ev sahibliyi edərək, ekoloji təşəbbüslər nümayiş etdirmək, eləcə də iqlim dəyişikliyi, davamlılıq və ətraf mühitin qorunmasına töhfə vermək üçün platforma rolunu oynayacaqdır.

*- Azərbaycanda yaşıl enerji imkanları xüsusən də günəş panelləri istehsalı və s. varmı və bu sahədə daha hansı istehsal sahələri qurula bilər?*

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə təşəbbüsü və qərarı ilə işğaldan azad edilmiş ərazilər "yaşıl enerji zonası" elan edilmiş və hal-hazırda bu ərazilərdə "Yaşıl Enerji Zonası" Konsepsiyası tətbiq edilməkdədir. Eyni zamanda oxşar təcrübənin Naxçıvan Muxtar Respublikasında da tətbiq edilməsi planlaşdırılır. Qeyd olunanlar ilə yanaşı gələcək hədəfdə Azərbaycanın yaşıl enerji ixracatçısına çevrilməsi əsas məqsədlərdən biridir. Təbii ki, bütün bunlar bərpa olunan enerji üzrə yeni istehsal sahələrinin yaradılmasını və yerli istehsalın təşviq edilməsini labüd edir. Azərbaycanda fəaliyyət göstərən bir çox orta miqyaslı günəş elektrik stansiyalarında yerli istehsal olan günəş panellərindən istifadə edilmişdir. Hazırda həmin panellər vasitəsi ilə enerji istehsalı davam etdirilir. Bununla yanaşı yeni güclərin istifadəyə verilməsi gələcəkdə daha iri həcmli istehsal sahələrinin yaradılmasına təkan verə bilər. Qeyd etmək istərdim ki, xarici investorlar tərəfindən bərpa olunan enerji sahəsinə investisiya yatırmaq üçün müraciətlər davamlı olaraq artmaqdadır. Bu istər xarici investisiya hesabına bərpa olunan enerji stansiyalarının yaradılmasına, istərsə də bu sahədə yeni iş yerlərinin yaradılmasına təkan verir. Ötən ilə açılışı olan Qaradağ günəş eletrik stansiyası təqribən 260 mln dollar xarici investisiya cəlb edilməklə icra olunan layihələrdən biridir. Hazırda Energetika Nazirliyi tərəfindən imzalanmış müqavilələrə əsasən BOEM üzrə növbəti layihələrində uğurla davam etdiriləcəyi və ölkə hədəflərinə uyğun olaraq yaşıl enerjinin istehsalının genişləndirilməsi nəzərdə tutulur.



MÜSAHİBƏ

BİZNES HƏYATI

**Emin Məmmədov**
"BAFCO" MMC-nin təsisçisi

# İstehsal olunduğu yer: AĞDAM, QARABAĞ

Qarabağa Böyük Qayıdışın ilkin mərhələsi icra olunur. Vətəndaşlarımız yenidən doğma yurd-yuvalarına geri qayıdırlar. Azərbaycan dövləti onların evlə təminatı və digər sosial infrastrukturu yaradıb, bununla yanaşı, insanların işlə təminatı mühüm amildir. Bu məsələdə isə ölkəmizin iş adamlarının üzərinə böyük vəzifələr düşür. Müsahibimiz əslən Qarabağlı iş adamlarından biri olan və Ağdamda ayaqqabı fabriki açan Emin Məmmədovdur.




***- Emin bəy, sahibkarlıq sahəsində fərqlənən sahibkarların sırasında Sizin də "Tərəqqi medalı"na layiq görülməyiniz çox xoş oldu. Sahibkarlıq sahəsində müasir biznes yanaşmanız və xüsusən də Qarabağda iş qurmağınız xüsusilə təqdirə layiqdir. Təltif olunmağınız hansı hissləri yaratdı?***

- Təşəkkür edirəm. İlk növbədə qalib bir ölkənin biznes adamı kimi bu mükafatı almaq çox böyük fəxarət hissidir. Cənab prezidentə öz təşəkkürümü bildirirəm və Sərəncamın yaratdığı məsuliyyət hissini qeyd etmək istərdim. Zəngin mədəni irsi ilə məşhur olan Qarabağ bölgəsinin infrastrukturunun bərpasında öz töhfəmizi verməkdən qürur duyuruq. Ağdamda qurduğumuz biznesə xüsusi həssaslıqla yanaşırıq və çalışdıq ki, istehsalat prosesini ən yüksək səviyyədə, müasir tələblərə uyğun quraq. Dövlətimizin bizə göstərdiyi etimadı layiqincə doğrulda biləcəyimizə əminik.

***- Bildiyimizə görə əslən Ağdamdansınız. Qarabağda iş qurmaq həvəsində bu amilin önəmi nə qədərdir və maraqlıdır ki, niyə ayaqqabı istehsalı?***

-"Niyə məhz Qarabağ?" və "Niyə ayaqqabı?" suallarını əslində tez-tez eşidirik. Qarabağın iqtisadi bərpası dövründə Ağdam Sənaye Parkında yeni investisiyalar üçün geniş imkanlar yarandı. Biz Ağdamın iqtisadi inkişafına həm töhfə verməkdə, həmçinin bu ərazidə fəaliyyət göstərən rezidentlərə dövlət tərəfindən göstərilən dəstəkdən faydalanmaq üçün bu məkanı seçdik. Azərbaycan bazarında xüsusi qoruyucu işçi ayaqqabılarına tələbatı nəzərə alaraq, məhz bu istiqamət üzrə biznesin qurulmasına qərar verdik.

***- Müəssisəni qurmaq üçün SKMF-dan güzəştli kredit almısınız. Biznes şərtləri, sahibkarlara yaradılan şəraitlə bağlı nə deyə bilərsiniz? Hansı məsələlərin həllində dəstəyə ehtiyacınız var?***

- Daha öncə qeyd etdiyim kimi, Ağdam Sənaye Parkında biznesin səmərəli inkişafı üçün bir çox dəstək mexanizmləri mövcuddur. Müfaviq kreditlərin alınmasında olan güzəştləri də ehtiva edən bu təşviq mexanizmlərdən yararlana bildik. Hazırda milli brendimiz olan BAFCO markasının həm Azərbaycan bazarına, həm dünyaya tanıdılması üçün müəyyən addımların atılması müzakirə olunur. Bununla bağlı mövcud qurumlarla danışıqlar aparırıq. Xarici sərgilərdə iştirakımızla bağlı müəyyən dəstəyə ehtiyacımız var. Ümidvarıq ki, yaxın gələcəkdə Azərbaycanın adını ölkə xaricində də tanıda biləcəyik.

***- Müəssisənin hazırkı istehsal gücü və real istehsal həcmi haqqında nə deyə bilərsiniz? Nə qədər işçi çalışır?***

- Ayaqqabı sənayesində ən müasir texnologiyanın quraşdırıldığını nəzərə alsaq, müəssisəmizin illik ümumi istehsal gücü 510 000 cüt ayaqqabı təşkil edə bilər. Bu gün fabrikimizdə çalışanların sayı 40 nəfərdən çoxdur. Xarici ölkələrdən dəvət olunan mütəxəssislərdən başqa, bütün əməkdaşlar Ağdam rayonunun sakinləridir.

***- Kadr baxımından çətinliyiniz varmı və əsasən hansı sahədə işçilərə tələb daha yüksəkdir?***

- Azərbaycan Respublikasının Dövlət Məşğulluq Agentliyi və Qarabağ Peşə hazırlığı Mərkəzi ilə birgə əməkdaşlığımız sayəsində işçilərin ax-

tarışında çətinliyimiz yoxdur. Nəzərə alsaq ki, xüsusi ayaqqabı istehsalı ölkəmizdə o qədər də geniş yayılmayıb, bu sahədə ixtisaslaşmış mütəxəssisləri xaricdən dəvət edib yeni işə başlayan müdavimləri ilk növbədə təlimlərə cəlb edirik, işin incəliklərini öyrədirik. Daha sonra, müəyyən müddət keçdikdə, onları işçi kimi qeydiyyata alırıq.

***- Artıq bir neçə məhsulunuz veb səhifənizdə sərgilənir. Maraqlı dizaynlar var. İlk müştəri hədəf kütləsi kimləri görürsünüz?***

- Məhsullarımızın dizaynı özəl olaraq İtalyan şirkətinin dizaynerləri tərəfindən hazırlanıb. Hədəf kütləmiz - həqiqətən də keyfiyyətə önəm verən, işçilərinin sağlamlığının və komfortunu düşünən müəssisələrdir. Bu əsas mesajımızdır və onun əsasında da konseptimizi qurmağa çalışırıq.

***- Təbii ki, hər bir müəssisə üçün xammal önəmli məsələdir və Azərbaycan uzun illər işlənməmiş dəri məhsullarının ixracatçısı olub. Xammal ilə yerli təminat hansı səviyyədədir?***

- Bildiyiniz kimi, fabrikdə quraşdırılan avadanlıqlar Almaniyadan sifariş olunub. Bu texnologiyalara müvafiq olaraq, xammal da həmçinin xarici ölkələrdən idxal olunur.

***- Dəri məhsullarının daxildə emalının davam edərək son məhsula çevrilməsi son mərhələyədək qurula bilərmi?***

- İstehsal prosesini ətraflı şəkildə izah etsək ilk mərhələ qəliblərə ayırıcı xammalın sıxılmasından başlayır. Növbəti mərhələdə dəzgah altlığı vurduqdan sonra qəlibin üzərinə üst hissəsi taxılır. Stansiya trim cıhazına yaxınlaşdıqda artıq qalan hissələri robot vasitəsilə təmizlənir. Orta altlıq hazır olduqdan sonra bir müddət ərzində sərtləşmə prosesi qedir. Bu bizim iş prosesimizin mərhələləridir.

Ümumilikdə xammal kimi dərinin emalına gəlincə, düşünürəm ki, bu sahədə də inkişaf güclənəcək. Bildiyimiz kimi, bazarı tələb və təklif amili formalaşdırır. Keyfiyyətli xammala ehtiyac varsa, keyfiyyətli dəri məhsullarının emalı da şərtdir. Buna görə də hesab edirəm ki, dəyər zəncirinin bu həlqəsinin qurulması öz həllini tapacaq.




***- Satış strategiyanız necədir, yalnız daxili bazar, yoxsa ixrac planlarınız da varmı?***

- Həm daxili, həm xarici bazarda məhsullarımızın layiqli yerini tutmacağından əminik.

***- Dünyada tanınmış ayaqqabı markaları həm də bir ənənəyə malikdirlər. BAFCO-nu sevdirəcək "marketinq xodu"nun biri aydındır – Ağdamda istehsal olunur. Potensial müştərilərinizə başqa hansı mesajları vermək istərdiniz?***

- Biz inanırıq ki, ayaqqabı işi sadəcə bir istehsalat deyil, yüksək diqqət, səy və ustalıq tələb edən əsl sənətdir. Hazırladığımız hər bir cüt qoruyucu ayaqqabı diqqətli işin və mükəmməlliyə can atmağımızın nəticəsidir. Biz cəmiyyətə ən çətin şəraitlərdə təhlükəsizliyi və rahatlığı təmin edəcək keyfiyyətli qoruyucu ayaqqabının əhəmiyyətini çatdırmağa çalışırıq. Məqsədimiz sadəcə ayaqqabı yaratmaq deyil, həm də işimizə olan sonsuz sevgimizi, insanlara qayğımızı və ən yüksək keyfiyyət standartlarına sadiqliyimizi ifadə etməkdir.

***- Fəaliyyətinizdə uğurlar arzulayırıq.***

- Təşəkkür edirəm.

# "Azpetrol" şirkətinin 20 elektromobil postu xidmətinizdədir




AZPETROL
Daim İnkişafa Doğru!

www.azpetrol.az 957



MÜSAHİBƏ

BİZNES HƏYATI

**Mustafa Bədəlov**
"Göyçay-Süd" ASC-nin direktoru

# Mustafa Bədəlov: "Azərbaycan məhsullarını dünyanın bütün bazarlarında görmək istəyirik"

Ölkəmizin regionlarında uğurla fəaliyyət göstərən şirkətlərdən biri də "Göyçay-Süd" ASC-dir. BH jurnalının müsahibi Şirkətin direktoru Mustafa Bədəlov ilə söhbətimizdə müəssisənin fəaliyyəti, ixrac imkanları, xammal təminatı və digər məsələlərə toxunduq.

***- Mustafa müəllim, müsahibəmizə giriş etməzdən əvvəl Sizi sahibkarlıq sahəsində əldə etdiyiniz uğurlara görə "Tərəqqi" medalı ilə təltif olunmağınız münasibətilə təbrik edirik. Təəssüratlarınızı bölüşməyinizi xahiş edirik.***

- İlk növbədə Cənab Prezidentə öz təşəkkürümü bildirirəm və bunu böyük bir kollektivin çoxillik fəaliyyətinə verilən ən yüksək qiymət kimi dəyərləndirirəm. "Göyçay-Süd" ASC kollektivi olaraq bundan sonra da Azərbaycanın iqtisadi qüdrətinin artması üçün əlimizdən gələni edəcəyik.

***- "Göyçay süd" şirkəti 1998-ci ildən fəaliyyətə başlayıb. Dayanıqlı bir şirkət qurmaq böyük məsuliyyət və peşəkarlıq tələb edir. Nədən başladınız və hansı əsas çətinliklərin öhdəsindən gəldiniz?***

- "Göyçay-Süd"ASC 1998-ci ildə Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən birinci özəlləşmə proqramı əsasında "Göyçay-Süd" zavodunun bazasında yaradılıb. Özəl-



ləşdirməyə çıxarılan zaman müəssisə demək olar ki, fəaliyyət göstərmirdi. İlk olaraq qarşımızda duran ən böyük problem yüksək texnoloji avadanlıqların alınması və quraşdırılması idi. Uzunsürən axtarışlardan sonra İsveç istehsalı olan bir nömrəli dünya brendi "TetraPak" şirkətinin avadanlıqlarının alınması üçün 3 milyon dollar dəyərində lizinq müqaviləsi imzaladıq. Həmin dövrdə ölkəmiz üçün xarakterik olan istər texniki, istər maliyyə çətinliklərini dəf edərək məhsul istehsalına başladıq. Məhsul istehsalı üçün tələb olunan xammal və materialların əldə edilməsində çox böyük çətinliklərin öhdəsindən gəlməli olduq. Azərbaycanda ilk dəfə "TetraPak" paketlərində süd məhsulları və meyvə şirələrinin istehsalını uğurla həyata keçirdik və bir milli brend kimi uğur qazandıq.

***- Hazırda "Göyçay süd"ün istehsal gücü nə qədərdir və əsas hansı brendləri istehsal edirsiniz?***

- "Göyçay-Süd" ASC hazırda gündəlik 60 ton süd və 100 ton meyvə emal etmək gücünə malikdir. Ən populyar brendlərimiz "Çanax Pendiri", "TetraPak" paketlərində müxtəlif yağlılıqda "Südel" brendi ilə südlər, "Sonti" meyvə nektarları, "4U"markalı nar şirəsidir.

***- Bilirik ki, daha çox ixraca yönəlmisiniz. Əsas satış bazarlarınız hansı ölkələrdir?***

- 2002-ci ildən "4U" markalı meyvə şirələrinin ixracı ilə məşğuluq. İndiyə qədər dünyanın 20-dən çox ölkəsinə məhsul göndərmişik. Bunlardan Rusiya, Belarus, Ukrayna, Polşa, Estoniya, Almaniya, İtaliya, Kanada, Yeni Zelandiya və s.

***- Necə hesab edirsiniz, ixrac prosesində hansı prosedur və ya normaların təkmilləşdirilməsinə ehtiyac var?***

- İxrac prosesində təbii ki, daha çox gömrük orqanları ilə işləyirik. Ötən illərdə gömrük orqanlarında aparılan islahatlar nəticəsində bu sahədə sahibkarlar üçün daha əlverişli şərait yaranıb. İxrac prosesləri sadələşdirilib və vaxt itkisi aradan qaldırılıb. Hazırda müəssisəmiz "Yaşıl Dəhliz" sistemindən istifadə edir. İxrac və idxal əməliyyatlarında demək olar ki, heç bir çətin-

Məhsul istehsalı üçün tələb olunan xammal və materialların əldə edilməsində çox böyük çətinliklərin öhdəsindən gəlməli olduq. Azərbaycanda ilk dəfə "TetraPak" paketlərində süd məhsulları və meyvə şirələrinin istehsalını uğurla həyata keçirdik və bir milli brend kimi uğur qazandıq.

> Milli brendimiz altında Azərbaycan məhsullarını dünyanın bütün bazarlarında görmək istəyirik. Buna iqtisadi gücümüz, aparılan iqtisadi siyasət və özəl sektorun inkişafı üçün yaradılan şərait də imkan verir.




liyimiz yoxdur. İkinci növbədə ƏDV-nin geri qayıtması məsələsini qeyd etmək istərdim. Müvafiq prosedur və qaydalar mövcuddur və bu sahədə müvafiq qurumlar fəaliyyətlərini artırıblar. Operativliyin yüksəldilməsi ilə daha yaxşı nəticələr əldə edə bilərik. Həmçinin tez xarab olan malların ixrac prosesinin sadələşdirilməsi ilə bağlı ötən il müvafiq addımlar atıldı, bu da öz növbəsində dövlət-özəl əməkdaşlığının, sahibkarların qaldırdığı məsələlərə həssas yanaşmanın bariz nümunələrindən biridir. Ümumilikdə ixracda müsbət dəyişikliklər çoxdur. Xüsusən də Xudatda yaradılan eni logistika mərkəzinin fəaliyyətini vurğulamaq istərdim. Burada sahibkarın gömrük rəsmiləşdirilməsi etməsi, anbar xidməti alması üçün çox yaxşı şərait qurulub. Bu da ixrac prosedurlarının yüngülləşdiriməsi, əlçatanlığın artması deməkdir. Yəni, artıq birbaşa sərhəddə bütün gömrük rəsmiləşdirməsini həyata keçirmək olur. Bilirsiniz ki, iş adamı üçün vaxt nə qədər önəmli amildir, ona görə də bu cür şəraitin yaradılması bizim işimizi də rahatlaşdırır. Eyni zamanda, Xudatda dəmiryol nəqliyyatının işindəki irəliləyişlər, logistika imkanlarının yaxşılaşması da məhsulların maya dəyərinin ucuzlaşmasına, nəticədə ixracda rəqabət qabiliyyətinin artmasına kömək edir.

***- Regionda biznes sahibi olmağın hansı müsbət və mənfi tərəfləri var?***

- Regionda fəaliyyət göstərməyimizin müsbət tərəflərindən başlıcası xammal mənbələrinə yaxın olmağımızdır. Üstünlüklərdən daha biri odur ki, regionlarda investisiya təşviqi sənədi almaq daha rahatdır və bunun üçün tələb olunan investisiya məbləğinin həcminin paytaxt və iri şəhərlərə nisbətən aşağı olması da sahibkarlara əlavə imkanlar yaradır. KOB Klaster sertifikatını almaq üçün regionların imkanları daha əlçatandır. Regionlarda fürsətlər daha çoxdur. Bakıda biznes bazarı çox sıxdırsa, regionlarda fürsətlər, işləmək imkanları müqayisədə daha genişdir. Əsas çətinliyimiz isə peşəkar kadrların tapılmasındadır və distant işçi götürənlərin sayı artır.

***- Bu gün təmsil etdiyiniz emal sektorunda həlli vacib olan əsas məsələlər hansılardır?***

- Emal sektorunda əsas məsələ ƏDV-nin geri dönməsinin tənzimlənmə-

sidir. Qablaşdırma sahəsində artıq şirkətlər var və yaxşı işləyirlər. Buna baxmayaraq görüləcək işlər çoxdur. Kənd təsərrüfatında emal sənayesinin qurulması, bu sahədə dəyər zəncirinin yaradılması vacib məsələ olaraq qalır. Konkret süd məhsulları sahəsində xammal ilə təminata gəlincə qeyd etməliyəm ki, qiymətlərdə artım qeydə alınır. Buna görə də emalçılar xammalın toplanmasında menecmenti düzgün qurmalı və davamlı xammal təminatı üçün fermalar qururlar. Həmçinin qablaşdırma materiallarının xaricdən alınması da məhsulların maya dəyərinə ciddi təsir edir.

***- Bəzi mütəxəssislər belə hesab edirlər ki, Azərbaycanda məhsuldarlığın artması ilə yanaşı daha çox bioloji təmiz məhsulların istehsalına önəm verməlidir. Bu fikrə necə baxırsınız?***

- Bu fikri tam dəstəkləyirəm. Müəssisəmiz ilk gündən çalışır ki, istehsal etdiyi məhsullar ekoloji təmiz olsun. Aldığımız xammal təbii süd və meyvələr bioloji təbii məhsullardır və düşünürəm ki, digər istehsalçılar da buna fikir verməlidir. Ölkəmizdə istehsal olunan məhsulların böyük əksəriyyəti bioloji təmizdir. Sadəcə olaraq bioloji təmiz məhsul daha baha olduğuna görə onun marketinqi işlənməli, satış kanalları genişləndirilməlidir. Qarabağ ərazilərində bioloji təmiz məhsul istehsalı baxımından geniş imkanlarımız var.

***- Meyvəçilikdə bəzi yerli sortların sıradan çıxma təhlükəsi ilə bağlı fikirlər var...***

- Bu, tək meyvəçilikdə deyil, taxılçılıqda, dənli bitkilərdə də var. Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı və Azərbaycan Sahibkarlar Konfederasiyasının da dəstək verdiyi Aqrar biznes festivallarının keçirilməsi yerli sortların təbliğində böyük əhəmiyyətə malikdir. Yerli sortlarımıza sahibkarların maraqları böyükdür. Sadəcə, yerli toxumların məhsuldarlığına inam bir qədər zəifdir və yerli toxumçuluq təsərrüfatları bunun üzərində işləməlidir. Amma yerli sortların inkişafına Azərbaycan sahibkarları çox həvəslə yanaşırlar. Qeyri-neft sektoru üzrə ixracda Azərbaycan




meyvə-tərəvəzinin həcminin ildən-ilə artmasını görürük. Biz hesab edirik ki, ölkəmizdə meyvəçilik inkişaf edir.

***- Göyçay süd maliyyə hesabatını dərc edən çox az sayda özəl şirkətlərdən biridir. Bu, şirkətə hansı üstünlükləri qazandırır?***

- Ölkəmiz COP-29-a hazırlaşır. Şirkətin fəaliyyətinin yaşıl olmasından biri də onun şəffaflığı, maliyyə hesabatlarını açıqlamasıdır. Bizim maliyyə hesabatımızı yaymaqda məqsədimiz ilk növbədə etimad yaratmaq, ölkəmizin maliyyə şəffaflığı ilə bağlı özəl biznesə olan çağırışlarına cavab verməkdir.

***- "Made in Azerbaijan" brendini necə görmək istərdiniz?***

- Milli brendimiz altında Azərbaycan məhsullarını dünyanın bütün bazarlarında görmək istəyirik. Buna iqtisadi gücümüz, aparılan iqtisadi siyasət və özəl sektorun inkişafı üçün yaradılan şərait də imkan verir. Arzu edirik ki, dövlətimizin iqtisadi qüdrəti daha da artsın və bu işdə əməyi olan bütün iş adamlarına uğurlar arzulayırıq.



MƏQALƏ

BİZNES HƏYATI

**Mədinə Əliyeva**
Azərbaycan Toxumçular Assosiasiyasının sədri

# "Toxumçuluq kənd təsərrüfatının bünövrəsini təşkil edir"

Kənd təsərrüfatının strateji əhəmiyyətli istehsal sahələrindən biri olan toxumçuluğun inkişaf etdirilməsi, məhsul istehsalçılarının keyfiyyətli toxuma olan tələbatının daxili istehsal hesabına təmin olunması prioritet vəzifələrdən biri kimi müəyyən edilib və bu istiqamətdə Azərbaycan Toxumçular Assosiasiyası tərəfindən zəruri tədbirlər davam etdirilir. Bununla bağlı daimi olaraq fermerlərin yanında olmaq, qarşılaşdıqları problemləri yerində həll etmək, bu sahədə müvafiq bilgilər vermək, yeni innovativ texnologiyaların tətbiqi və əyani nümayişi qarşıya qoyulan əsas vəzifələrdəndir.

Toxumçuluq kənd təsərrüfatının bünövrəsini təşkil edir. Çünki bitkiçilik məhsullarının istehsalı ilk növbədə keyfiyyətli toxumdan asılıdır. Qarşımızda duran ən mühüm vəzifə ondan ibarətdir ki, ölkəmizin bütün məhsullar, o cümlədən strateji bitkilər üzrə toxuma olan tələbatını yerli istehsal hesabına təmin edək. Dövlətin bu sahəyə çox güclü dəstəyi var. Bunu fermerlərin və toxumçuların özləri də hiss edirlər.

Bir sözlə fermerlərin yüksəkkeyfiyyətli toxumla təmin edilməsi, toxum sektorunun inkişaf etdirilməsi kənd təsərrüfatında yüksək məhsuldarlığa nail olmaq üçün vacib amillərdəndir. Gələcək bol məhsulun əsası torpağa səpilən keyfiyyətli, yüksək reproduksiyalı toxumla qoyulur. Buna görə də respublikamızda toxumçuluğun elmi əsaslarla inkişaf etdirilməsinə dövlət səviyyəsində xüsusi qayğı göstərilir.

**Azərbaycanda taxıl istehsalı 1,5 dəfə artıb**

Yüksək məhsuldar taxıl üçün düzgün toxum seçimi mütləqdir. 2003-2023-cü illər ərzində Azərbaycanda taxıl istehsalı 1,5 dəfə artıb. Belə ki, 2003-2023-cü illər ərzində Azərbaycanda taxıl istehsalı 1,5 dəfə artıb. Ölkədə taxıl istehsalı 2003-cü illə müqayisədə 1,5 dəfə artaraq 2022-ci ildə 3112.1 min ton olub. Müqayisə olunan dövrdə olan artım arpada 3,3 dəfə, qarğıdalıda 1,9 dəfə, buğdada isə 12,2 faizdir. Taxılın istehsalında buğda 55,8 faiz, arpa 35,4 faiz, qarğıdalı isə 8,8 faiz təşkil edib.

Müqayisə olunan dövrdə məhsuldarlıq göstəriciləri buğdada 21,8 faiz, arpada 20,5 faiz, dən üçün qar-

ğıdalıda isə 32,3 faiz artıb. Belə ki, 2022-ci ildə ölkədə buğdanın məhsuldarlığı 31,9 sent/ha, arpanın məhsuldarlığı 28,8 sent/ha, dən üçün qarğıdalının məhsuldarlığı isə 58,6 sent/ha-ya çatıb.

Taxılçılıqda istehsal və məhsuldarlıq göstəricilərinin artımı müasir texnologiyaların tətbiqindən irəli gəlir.

Beynəlxalq təcrübəyə əsaslanan müasir suvarma üsullarının, o cümlədən pivot suvarma sistemlərinin tətbiq edildiyi təqribən 50 min hektardan çox iri taxılçılıq sahələrinin suvarılmasında effektiv nəticələr əldə edilib. Hazırda bu növ suvarma texnologiyalarından istifadənin genişləndirilməsi dövlət tərəfindən təşviq olunur. Həmçinin taxılçılıqda istifadə edilən yüksək reproduktiv toxumlardan istifadə nəticəsində struktur keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasına da nail olunub.

**Toxumun düzgün seçilməsi**

Sahəyə yüksəkkeyfiyyətli toxumların səpilməsi məhsuldarlığın artırılmasında mühüm şərtdir. Toxum üçün ayrılmış sahələr yüksək aqrotexniki qaydada becərilməli, sortların bioloji xüsusiyyətləri nəzərə alınmaqla gübrələnməli, səpin optimal müddətdə, düzgün təyin edilmiş normada və qısa vaxt ərzində aparılmalıdır. Sahədən qəbul olunmuş toxum materialını səpinə hazırlayarkən onun təmizlənməsi, qurudulması, sortlaşdırılması və dərmanlanması işləri ardıcıllıqla yerinə yetirilməlidir.

Bioloji xüsusiyyətlərinə görə torpaq-iqlim şəraitinə uyğun rayonlaşdırılmış taxıl sortlarından istifadə məhsuldarlığı xeyli artırır. Ona görə də taxıl əkininin yerli torpaq-iqlim şəraitinə uyğun sortlarla keçirilməsi daha məqsədəuyğundur. Əkiləcək torpaq sahələrinin təsnifatına, həmçinin sələfinə görə düzgün seçilməsi də məhsuldarlığın artmasına təsir göstərən amillərdəndir.

Toxumlar sortluq və əkin keyfiyyətlərinə görə qiymətləndirilir. Sortluq keyfiyyəti dedikdə sortun özünəməxsus əlamət və keyfiyyəti nəzərdə tutulur. Səpin keyfiyyətinə isə təmizliyi, cücərməsi, cücərmə enerjisi, rütubətliliyi, 1000 dənin çəkisi, ziyanverici və xəstəliklərə davamlılığı kimi amillər daxildir. Toxumların təmizliyi əsas bitki toxumlarının analiz üçün götürülmüş toxum çəkisinə nisbətən qarışıqların çəkisi ilə xarakterizə olunur. Standarta görə, əsas bitki toxumunun təmizliyi 97 faizdən az olmamalıdır.

Toxumlar səpin keyfiyyətinə görə kateqoriyalara bölünür. Məsələn I sinfin təmizliyi 99 faiz, cücərməsi 95 faiz, II sinfinki 98 faiz və 92 faiz, III sinfinki 97 və 90 faiz.

Əkin keyfiyyətinə görə I, II və III sinfə aid toxumlar kondisiyalı toxumlar adlanır.

Toxumun dərmanlanması mütləq və zəruri tədbirlərdəndir. Onun bütün şəxsi təsərrüfatlarda həyata keçirilməsi vacibdir. Dərmanlanma zamanı təhlükəsizlik tədbirlərinə ciddi əməl olunmalıdır. Toxumların cücərmə qabiliyyəti də yüksək olmalıdır. Cücərmə qabiliyyəti 85 faizdən aşağı olan toxumlar səpin üçün yararsız sayılır. Toxumların rütubətliliyi quru toxumun çəkisinə nisbətən faizlə ifadə olunur.

Azərbaycan Toxumçular Assosiasiyası fermerlərə çağırış edərək bildirir ki, yüksək məhsuldarlıq əldə etmək üçün, ilk növbədə, düzgün toxum seçimi, toxumun təmizliyi, cücərdilmə qabiliyyətinin yüksək olması, həmçinin sertifikatlı olması əsas şərtlərdən biridir.





MƏQALƏ

BİZNES HƏYATI

**Vüqar Kərimov**
"Əsədoğlu Qrup"MMC-nin təsisçisi

# Lazımsız polietilen paketlər lazımlı yeşiklərə necə çevrildi?

Azərbaycanda tullantılardan məhsul istehsalı ilə məşğul olan bir neçə nümunəvi şirkət mövcuddur. Bu şirkətlərin ekoloji dayanıqlığın qorunmasına verdiyi töhfə diqqətəlayiqdir. Ekoloji əhəmiyyəti ilə yanaşı, gəlir gətirən, insanların işlə təminatında rolu olan belə bizneslər iqtisadiyyat üçün xüsusi önəm daşıyır.

Belə şirkətlərdən biri də "Əsədoğlu Qrup" MMC-dir.

Ekologiya ilə bağlı problemlər son zamanlar dünyada prioritet mövzuya çevrilmişdir. Elmi-texniki tərəqqi insanların həyatına nüfuz etməklə və onun inkişafı insanların həyatını yüngülləşdirməklə yanaşı, böyük ekoloji fəsadlar da törədir. Mütəxəssislər bu gün insanların səhhətində yaranan problemlərin böyük əksəriyyətini məhz ekoloji tarazlığın pozulması ilə izah edirlər. Problem isə bir dövlətin, bir qitənin sərhədlərini aşıb ümumdünya təsirinə malik olduğundan ekoloji tarazlığın pozulmasına qarşı birgə mübarizənin aparılması zərurəti yaradır.

Son zamanlar dünyada gedən müharibələr ekoloji fəsadlardandır. Bunu biz birinci Qarabağ müharibəsində hiss etdik. Təcavüzkar Ermənistan tərəfindən qəsdən törədilən bu terror aktları nəticəsində bölgədə ciddi ekoloji fəsadlar yaranıb, təbii bitki örtüyü, min illərlə əmələ gələn torpağın üst qatı tamamilə yanıb, Azərbaycanın "Qırmızı Kitab"ı və Beynəlxalq Qırmızı Siyahıya daxil olmuş nadir, sayı kritik həddə azalan bitki və heyvan növləri məhv olub, heyvanların yaşayış arealları dağıldılıb, ekosistemin tarazlığı pozulub, ətraf mühit komponentlərinə ciddi ziyan dəyib.

"Ermənistan tərəfindən təbiətə qarşı törədilən bu ağır cinayətlər ətraf mühit sahəsində mövcud olan "Bioloji Müxtəliflik", "Ramsar" və "Bern" beynəlxalq konvensiyalarının tələblərinin kobud surətdə pozulmasıdır.



Çox qürurverici haldır ki, Vətən müharibəsindən sonra dövlətimiz quruculuqla birlikdə ekologiyanın da tarazlaşması üçün səylər göstərir. Qarabağ İqtisadi rayonu və Şərqi Zəngəzur İqtisadi Rayonunun yaradılması, kiçik və böyük enerji mənbələrinin qurulması istiqamətində geniş işlər görür.

Bu gün biz cəmiyyətdə bu vacib ekoloji problemin qarşısının alınmasına, su çatışmazlığına məruz qalan ərazilərdə fəaliyyətlərin gücləndirilməsinə diqqəti yönəltməli, ilk növbədə suvarma sistemlərinin qənaətcil əsasda qurulmasına, səhralaşmaya məruz qalan və bu təhlükədə olan ərazilərə suvarma suyunun çatdırılmasına nail olmalıyıq. Hər bir sahibkarın da borcu ekaloji tarazlığa öz töhfəsini verməsidir. Suyun azalması bizi də ekoloji tarazlığa məcbur etdi və əkdiyimiz əkin sahələrini ənənəvi suvarma sistemindən müasir suvarma sisteminə keçdik.

Plastik qablar və polietilen paketlərin sayı durmadan artır. İstehlak bazarlarında onlardan istifadə edilməsi çox geniş yayılıb. Rahatlıq və yüngüllük baxımından bu, bir tərəfdən təbiidir. Lakin onu da nəzərə almaq lazımdır ki, polietilen paketlər məhsulu bazardan evə daşımaq üçündür. Məhsulu mənzil başına çatdırandan sonra həmin paketlər, eləcə də plastik qab və butulkalar tullantı məhsuluna çevrilir, zibilxanalara, poliqonlara, bəzən də ətraf ərazilərə atılaraq çirklənmə yaradır. Məsələ burasındadır ki, tullantılarda təbii çürümə prosesi getməli olduğu halda həmin materialdan olan qablar yüz illər boyu çürüyüb torpağa qarışmır. Bir müddət keçəndən sonra isə torpağın münbit qatına keçərək bitkilərin inkişafına və məhsuldarlığa mane olur. Onları yandıranda isə tərkibində olan kimyəvi maddələr atmosferə çoxlu çirkli və zəhərli maddələr yayır.

Son vaxtlar qərb bölgəsində plastik tullantıların yaratdığı sağlamlıq və ekoloji problemlər gündəmdə əsas yerlərdən birini tutur. Bunun üçün ilkin olaraq, həmin tullantılardan plastik yeşiklərin hazırlanmasına başladıq. Fəaliyyətimiz nəticəsində qərb bölgəsində sahibkarlıqla məşğul olan fermerlər üçün əlçatan olduq. Bölgədə olmağımız müştərilərin fəaliyyətində müsbət hadisəyə çevrildi. Bu da bölgəmizdə yeni iş yerlərinin açılmasına və 25 nəfərin işlə təmin olunmasına səbəb oldu. Bununla əlaqədar olaraq həkim və ekoloqlar plastik çirklənmənin zərəri barədə “həyəcan təbili” çalırlar. Biz də bölgəmizdə ekoloji tarazlığı pozan, plastik tullantıları dövri iqtisadiyyata qaytarmaqla, ekoloji tarazlığa töhvə vermiş olduq.

Növbəti addımlarımız tezliklə emal müəssələrimizdə istehlak etdiyimiz enerjini özümüz qurduğumuz günəş panelləri ilə istehsal etməkdir. Ölkəmizdə Günəş enerjisindən istifadə eləmək üçün böyük potensial var. Yerləşdiyi coğrafi əraziyə görə ölkəmiz günəş enerjisi ilə zəngindir, ətraf mühitə olan zərərli təsirləri azaltmaq üçün bundan istifadə olunmalıdır.

Azərbaycan COP29-un ev sahibi kimi iqlim problemlərinə mənfi təsirlərin açıq şəkildə müzakirəsinin tərəfdarıdır, ilk növbədə, beynəlxalq arenada ən təxirəsalınmaz məsələnin praktiki həllinə töhfə vermək imkanı kimi baxır.

Ölkəmizin əsas üstünlüklərindən biri COP29 bizə həvalə edilməmişdən əvvəl ekoloji problemlərlə ciddi məşğul olması, iqlim dəyişikliyinin mənfi fəsadlarını azaltmaq istiqamətində çalışmasıdır. Belə ki, əvvəlki illərlə müqayisədə Bakıda yaşıl ərazilərin coğrafiyası genişlənib. Eyni zamanda, Qarabağda və Şərqi Zəngəzurda su resursları üzərində fəal iş aparılır. Azərbaycanda keçiriləcək COP29 iqlim dəyişikliyi ilə bağlı qlobal problemlərin həlli üçün daha səmərəli olacaq.

Təbiətin bəxş etdiyi bu töhfədən səmərəli surətdə istifadə etməklə həm ölkə iqtisadiyyatına, həm cibimizə,həm canımıza fayda verərik. Ekologiyamız təmiz olar, ekoloji təmiz mühitə malik olarıq, əlimizdə olan enerji mənbələrinə də qənaət etmiş olardıq. Günəş enerjisini səxavətlə payladığı müddətdə bu texnologiyalara qoyulan investisiya itməyəcək. Milyon illər bu belə olub. Gələcəyimizi bu istiqamətdə qurmağın zamanı çoxdan çatıb.



MƏQALƏ

BİZNES HƏYATI

**Mirzəyeva Hicran**
İqtisad üzrə fəlsəfə doktoru, dosent

# DAVAMLI İNKİŞAF: yaşıl iqtisadiyyat kontekstində

Ötən əsrin 80-ci illərindən etibarən əksər ölkələr davamlı və dayanıqlı inkişaf mövqələrini qoruyub saxlaya bilmirlər. Bunun səbəbləri sırasına əsasən karbo-hidrogen ehtiyyatlarının tükənməsi, ayrı - ayrı ölkələrdə baş verən lokal müharibələr və konfliktlərlə yanaşı vaxtaşırı baş verən xəstəliklər üzündən epidemik qapanmalar və dünyanı cənginə alan təbii fəlakətlər daxildir.

Ötən əsrin 80-ci illərindən etibarən əksər ölkələr davamlı və dayanıqlı inkişaf mövqələrini qoruyub saxlaya bilmirlər. Bunun səbəbləri sırasına əsasən karbo-hidrogen ehtiyyatlarının tükənməsi, ayrı - ayrı ölkələrdə baş verən lokal müharibələr və konfliktlərlə yanaşı vaxtaşırı baş verən xəstəliklər üzündən epidemik qapanmalar və dünyanı cənginə alan təbii fəlakətlər daxildir.

Nəticədə istehsal sahələri qapanır, işsizlik artır, yoxsulluq kütləvi hal alır. Digər təkzibolunmaz səbəb isə orta sinifin "ağ vorotniklilər" deyilən zümrənin getdikcə yox olma ehtimalını irəli sürür. Beləliklə, məqalədə qeyd olunan səbəblər üzündən baş verən neqativ halların aradan qaldırılmasına yönəlik "yaşıl iqtisadiyyat"ın elmi təminatını xarakterizə edən məsələləri diqqətinizə təqdim edirik.

Qloballaşan dünyada insanların rifah səviyyəsinin artırılması, iqtisadi və sosial tələbatının ödənilməsində davamlılığın təmin olunması üçün iqtisadi və ekoloji aspektlərin hər birinin nəzərə alınması vacibdir. İqtisadi ədəbiyyatlarda bu yanaşmanı təmin edən konsepsiya "yaşıl iqtisadiyyat" adlandırılır. İqtisadiyyat, təbiətlə dialektik vəhtəddədir və o məhdud səviyyədə olan təbii resurslar əsasında fəaliyyət

göstərir. Ona görə də iqtisadiyyat cəmiyyətin daima artmaqda olan tələbatının ödənilməsinə istiqamətlənməklə qənaətcil, innovativ və konseptual prioritetlərə əsaslanmalıdır. Əks halda təbii balansın pozulması, ekoloji fəlakətlərin baş verməsi labüddür.

Ötən əsrin ikinci yarısından, yəni ikinci dünya müharibəsindən sonrakı onilliklərdə stabil iqtisadi inkişaf statusuna malik ABŞ dünya iqtisadiyyatının lokomotivi sayılırdırsa, əsrin sonlarından yəni 70-80-ci illərdən başlayaraq yüksək iqtisadi inkişaf səviyyəli ölkələr siyahısına İngiltərə, Almaniya, Yaponiya, Çin və Hindistan kimi ölkələr də daxil oldu. Bütün bu inkişaf və iqtisadi yüksəliş təbii ki, iri həcmli karbohidrogen resurslarının istehlakı hesabına əldə edilib. Geniş istehsal proseslərinin nəticəsi kimi ətrafa külli miqdarda dəm qazı buraxılması ekoloji katoklizimlərə səbəb olur.

Son 50 ildə iqlim dəyişikliyi və ekoloji tarazlığın pozulması səbəbindən dünya miqyasında yoxsulluq, işsizlik və ərzaq təhlükəsizliyi problemləri kimi tendensiyalar ön plana keçib. Təbiidir ki, bunun bir səbəbi də maddi nemətlər istehsalı və əhali artımı prosesləri arasındakı qeyri - mütənasib artım templəridir. Məsələn, hazırda dünya əhalisinin 7,3 milyard nəfəri ötməsi, 2030-cu ilə - 8,0 mlyard, 2050-ci ilə 9,0 mlyard nəfərə çatacağı proqnozlaşdırılırsa, iqlim dəyişikliyi səbəbindən əkinə yararlı torpaq sahələrinin azalması, quraqlığın artması, su qıtlığı səbəbindən səhralaşma prosesinin güclənməsi, ekoloji tarazlığın pozulması, təbii fəlakət risklərinin artması və dünya miqyasında ərzaq təhlükəsizliyi probleminin daha da kəskinləşməsi gözlənilir.

Nəticədə bunlar dünya əhalisinin ərzaq təhlükəzisliyi, yoxsulluq və işsizlik kimi problemlərlə üzləşməsinə yol açır. Digər bir səbəb iqtisadi böhran risklərinin artması və müxtəlif qitələrdə baş verməkdə olan lokal müharibələr və konfliktlərdir. Buna misal olaraq, ötən əsrin 70-ci illərindən başlayaraq Ərəb ölkələrində baş verən müharibələri, 30 il davam edən Qarabağ konfliktini, eləcə də Rusiya və Ukrayna müharibəsini göstərmək olar. Yəni, indi elə bir mühit yaranmışdır ki, istənilən periferiyada regionda, ölkədə baş verən elementar hadisə mərkəzdə əks səda verə bilir.

Yuxarıda qeyd edildiyi kimi, qeyri-stabil və qlobal aspektli məsələlərdən ən mühümüi ekoloji tarazlığın pozulması səbəbindən yaranmış ərzaq təhlükəsizliyi probleminin getdikcə daha da kəskinləşməsidir. Bunun yumşaldılması, təbiətə atılan CO2 (karbon) qazının azaldılmasına dair BMT-nin müvafiq konsepsiya və qərarlarının yerinə yetirilməsindən asılıdır.

Maraqlı hal ondan ibarətdir ki, bir çox analitiklərin qeyd etdiyi kimi iqlim dəyişikliyi və ekoloji tarazlığın pozulması səbəbindən yaranan bu problemin fəsadları tarixin ağır sınaqlarından çıxmış bazar iqtisadiyyatı yəni, bazarın "gözə görünməz əli" tərəfindən tənzimlənə bilmir.

Faciəvi situasiya ondan ibarətdir ki, qlobal miqyasda özünü hər ötən il daha əyani surətdə təsdiqləyən bu problemin aradan qaldırılması və yaxud heç olmazsa yumşaldılması istiqamətində əməli irəliləyişlərin əldə olunmasına dair ciddi tədbirlərin görülməsi belə hiss edilmir. Buna misal olaraq, hazırda həyacan təbili çalınan "ekoloji tarazlığın pozulması"nın qarşısının alınmasına dair əməli tədbirlərin həyata keçirilməsi üzrə BMT və İslam İşbirliyi Təşkilatı (İBT) müvafiq qərarlar qəbul etsədə onların yerinə yetirilməsi reallaşdırılmamışdır.

Başqa sözlə, beynəlxalq siyasi mühit mövcud bu qlobal problemlərin həlli istiqamətində həyacan təbilini hiss etdirən siyasi qərarlar qəbul etsə də onların yerinə yetirilməsinə nəzarət beynəlxalq qurumlar və güclü dövlətlər tərəfindən layiqincə həyata keçirilmir. Buna misal olaraq, ABŞ və Çin kimi ölkələrin atmosferə dəm qazı buraxılışının azaldılması konvensiyasına qoşulmamasını göstərmək olar.

Məlumdur ki, ərzaq istehsalının başlıca şərti müvafiq təbii iqlim şəraiti-





> Sayca 29-cu olacaq Bakıdakı tədbirin bir sıra iqlim dəyişikliyi məsələlərini müzakirə etmək və danışıqlar aparmaq üçün dünya liderlərini, hökumət rəsmilərini, alimləri, QHT-ləri və digər maraqlı tərəfləri bir araya gətirən böyük tədbir olacağı gözlənilir.

nin əkinə yararlı torpaq sahələrinin və su təminatının varlığı ilə bağlıdır. Yuxarıda qeyd olunan “ekoloji tarazlığın pozulması” bu üç amilə ciddi təsir edir və pozulan mühitin tənzimlənməsi zaman keçdikcə daha da çox xərc və müddət tələb edir, katastrafic risklərin tezliyi artır, “yad planetlərdə yaşayış” axtarışı ideologiyası güclənir.

Dünya iqtisadiyyatının əsas komponentlərindən olan enerji sektorunun inkişaf və istehlak səviyyəsi elə bir həddə çatmışdır ki, artıq alternativ, “bərpa olunan”, ətraf mühiti çirkləndirməyən və yaxud fəsadları az olan, az xərc tələb edən enerji mənbələrinin axtarışı qlobal əsaslı bir zərurətə çevrilmişdir. Bunun ən başlıca səbəbi dünyada – neft, qaz və kömür ehtiyatlarının tükənə biləcəyinə dair real proqnozlar və ekoloji tarazlığın pozulması səbəbindən yaranan qlobal istiləşmə və çoxsahəli təbii fəlakət reallıqlarından irəli gəlir.

Dövlətlərin iqtisadi və sosial inkişafında sosial rifahın yüksəlməsində enerji əvəzsiz amildir. Ondan istifadə səviyyəsi həyat səviyyəsinin indeksi kimi qiymətləndirilir. İqtisadi anlamda enerji, istehsal vasitələrinin əsas fəaliyyət resursudur. Ona görə də insan həyatını, bəşəri sivilizasiyasını enerjidən istifadəyə əsaslanmadan təsəvvür etmək mümkün deyildir. Məhz bu baxımdan qlobal miqyasda əhalinin artım tempi ilə enerji istehlakına tələbatın bu və ya daha yüksək səviyyədə artacağı proqnozlaşdırılmaqdadır.

Araşdırmalar göstərir ki, enerjidən istifadə həddi eyni zamanda ölkələrin inkişaf səviyyəsindən asılı olaraq dəyişir. Yəni ən çox istehlak trendi inkişaf etmiş və yaxud etməkdə olan sənaye əsaslı iqtisadiyyata malik ölkələrdə qeydə alınır. Bu kimi liderlərə ABŞ, Yaponiya, Almaniya və Kanada kimi ölkələr aiddir.

Məlumdur ki, gənc, suveren Azərbaycan Respublikası 33 illik qısa bir zamanda müharibələr və dərin iqtisadi böhran risklərinə baxmayaraq yüksək siyasi – iqtisadi və mədəni inkişaf mərhələsini keçmiş və hazırda inkişaf etməkdə olan ölkələr sırasında yer tutmaqdadır. Bu sahədə dövlət və özəl sektor arasında səmərəli tərəfdaşlığın keyfiyyətcə növbəti mərhələyə yüksəldilməsi və risklərin, məsuliyyətin dövlət və özəl sektor arasında optimal paylaşdırılması müasir dünyanın ən mühüm çağırışlarından biridir. Bu, dayanıqlı inkişaf üçün mühüm alətlərdən hesab olunur və əsas məqsədi müvafiq investisiya mühitinin təkmilləşdirilməsi yolu ilə beynəlxalq investisiyaların ölkəmizə axınının stimullaşdırılmasından ibarətdir. Bundan əvvəlki tədbir – COP 28 keçən il Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində baş tutub. Sayca 29-cu olacaq Bakıdakı tədbirin bir sıra iqlim dəyişikliyi məsələlərini müzakirə etmək və danışıqlar aparmaq üçün dünya liderlərini, hökumət rəsmilərini, alimləri, QHT-ləri və digər maraqlı tərəfləri bir araya gətirən böyük tədbir olacağı gözlənilir. Ümumiyyətlə, COP tədbirlərinin məqsədi, Paris Sazişinin tələbi olaraq dünyada karbon qazının (CO2) miqdarını sənayeləşmədən əvvəlki dövrdə olduğu kimi 1,5 dərəcə Selsi ilə məhdudlaşdırmaq üzrə irəliləyişə nail olmaqdan ibarətdir. Təsadüfi deyildir ki, ölkə başçısının sərəncamı ilə 2024-cü il Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib. AR-nın İqtisadiyyat Nazirliyi “Yaşıl” iqtisadiyyata keçid və yaşıl enerji təchizatçısına çevrilməyi ölkəmizin iqtisadi siyasətinin prioritetləri sırasına daxil edib. Azərbaycan 1990-ci illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 30 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləyib.



Azərbaycan Respublikasının Prezidenti işğaldan azad edilmiş torpaqları “Yaşıl enerji” zonası elan edib və 2022-2026-ci illər üzrə tədbirlər planı təsdiqlənib.

Milli və qlobal iqtisadiyyatların dayanıqlı və davamlı inkişafinda “yaşıl” meyarlara uyğunluq həlledici amil sayılır. Digər tərəfdən yaşıl iqtisadiyyatı dayanıqlı inkişafa nail olmaq üçün təsirli və vacib alət kimi nəzərdən keçirdikdə, onda “yaşıl” meyarlı inkişafın inklüziv xarakteri və dünya ekosistemlərinin ahəngdar fəaliyyətinin təmin edilməsi, iqtisadi artımı, məşğulluğu və yoxsulluğun aradan qaldırılmasını təşviq etmək qabiliyyətini özündə ehtiva edir.

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də 5-ci prioritet “Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” adlanır. Sənəddə ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan “yaşıl” texnologiyaların tətbiqinin genişləndirilməsi ilə bağlı qarşıya konkret tapşırıqlar qoyulub.

Tarixən dünyada neft və qaz təhzicatçısı kimi tanınan Azərbaycan bu gündə Avropanın bir çox ölkəsini təbii enerji resursları ilə təmin edir və 2030-cu ilə bu rəqəm bölgə tələbatının 20%-ni ödəyəcəkdir. Azərbaycan həmçinin Qara dənizin dibi və Zəngəzur dəhlizi vasitəsilə Avropanı yaxın gələcəkdə elektrik enerjisi ilə də təmin edə bilər. Bu mənada Azərbaycanda “yaşıl iqtisadiyyata” keçid xüsusi əhəmiyyət kəsb edəcəkdir. Yəni hazırda dünyada enerji doktirinasının dəyişməsi və “yaşıl inkişafın” sürətləndirilməsi təzahürləri də real görünməkdədir. Araşdırmalar göstərir ki, 2035-ci illədək dünyanın artan enerji tələbatının ödənilməsi üçün ən azı 50 trilion investisiya tələb olunur. Lakin bu gün bu sahəyə real investisiya qoyuluşlarının həcmi heç də ürəkaçan deyildir. Ona görə də problemin həlli dövlət-özəl-koperativ investisiya mühitinin formalaşdırılmasından keçir.

Əldə edilmiş ilkin təcrübə belə deməyə əsas verir ki, yaşıl iqtisadiyyat hər bir ölkənin öz vətəndaşlarının uğurlu gələcəyini təmin etmək baxımından zəruri və ən perspektivli yoldur. Əsasən XXI əsrdə təşəkkül tapmış “yaşıl iqtisadiyyat” konsepsiyası üç əsas sosial, təbii, iqtisadi komponentlərin vəhdətidir:

“Yaşıl iqtisadiyyat” nəzəriyyəsinin əsaslandığı aksiomlara aşağıdakılar aid edilir:

- **məhdud arealda insan fəaliyyətinin dairəsini sonsuz şəkildə genişləndirmək mümkün deyildir;**
- **bəşəriyyətin sonsuz artan ehtiyaclarını məhdud resurslarla ödəmək qeyri-mümkündür;**
- **yer kürəsinin bütün əraziləri bir-birinə sıx surətdə bağlıdır.**

“Yaşıl iqtisadiyyat’la bağlı aparılan araşdırmaları ümumiləşdirərək qeyd edə bilərik ki, urbanizasiya proseslərinin idarə olunmasında, şəhərsalma və yenidənqurma işlərində komponent elementlər hesab edilən enerji, nəqliyyat, yaşayıs infrastrukturu, su və kanalizasiya xidmətləri, davamlı istehlak zənciri elementlərinin hər birində davamlı və yaşıl inkişaf məqsədlərinin nəzərə alınması həm hazırkı sakinlərin, həm də gələcək nəsillərin rifah səviyyəsini müəyyən edir.

Yaşıl iqtisadiyyat aspektində şəhərlərdə və iri yaşayış məntəqələrində enerji resurslarına qənaət prioritet məsələyə çevrilir. Lakin hesablamalara görə məcmu enerji istehlakının yarısı yaşayış binalarındadır. Hazırda elektrik enerjisi istehlakının 70%-ə qədəri, istilik enerjisinin 40%-i, içməli suyun isə 15%-i tikinti sənayesinin payına düşür. Odur ki, yaşıl inkişafin səviyyəsi tikinti sənayesinin fəaliyyətindən asılıdır.

Yaşıl aqrar iqtisadiyyatın perspektivləri də böyük və mühüm əhəmiyyətlidir. Hazırda yaşıl kənd təsərrüfatı həm kommersiya, həm də istehsalda sudan səmərəli istifadə, üzvi və təbii gübrələrdən geniş və optimal nisbətlərdə istifadə, optimal əkinçilik va zərərvericilərə qarşı kompleks mübarizə kimi ekoloji cəhətdən təmiz təcrübələrdən fəal istifadəni nəzərdə tutur.

Yaşıl kənd təsərrüfatının yaradılması beş əsas sahədə fiziki aktivlər, maliyyə investisiyaları, elmi tədqiqatlar və əlbəttə innovasiyalara açıqlıq, habelə yüksək səriştə tələb edir. Kənd təsərrüfatında əsas istehsal vasitəsi olan torpağın münbitliyinin bərpa edilməsi yaşıl aqrar iqtisadiyyatın təməli olaraq qalacaqdır. Yaşıl iqtisadiyyatın inkişafının tənzimlənməsi və bazar alətlərinin

işlənib hazırlanması problemini həll edərkən kifayət qədər fərqli mexanizmlərdən istifadə olunur. Həmin mexanizmlərə, ilk növbədə aşağıdakılar aid edilir:

• yaşıl inkişaf tədbirlərinin həyata keçirilməsi ilə bağlı xərcləri nəzərə alaraq ətraf mühitə mənfi təsirə görə haqqın müəyyən edilməsi;

• ətraf mühitin normadan artıq çirklənməsinə görə ödənişin alınması təcrübəsinin ətraf mühitə dəymiş zərərin ödənilməsi təcrübəsi ilə əvəz edilməsi;

• yaşıl istehsalın ekoloji cəhətdən müasirləşdirilməsi və müvafiq ərazilərin ekoloji sağlamlaşdırılması proqramlarını həyata keçirən müəssisələrin stimullaşdırılması;

• ekoloji cəhətdən təmiz məhsullar, texnologiyalar və avadanlıqlar, habelə ekoloji xidmətlər bazarının formalaşdırılması və s.

Müasir dövrdə "yaşıl inkişafın" qlobal xarakter alması obyektiv zərurətdir. Süni intelektdən bu istiqamətdə istifadə üçün xüsusilə ölkəmizin erməni işğalından azad edilmiş ərazilərdə fəal və geniş əhatəli əməli tədbirlər görülməlidir. Məlumdur ki, ağıllı iqtisadiyyatı yaşıl standartlar olmadan qurmaq mümkün deyildir. Haqqında danışılan standartlar biznesin, texnoloji innovasiyaların və ümumilikdə dayanıqlı iqtisadi inkişafı stimullaşdıran, insanların həyat keyfiyyətini yaxşılaşdıran təməl kimi ortaya çıxmaqdadır. Unutmaq olmaz ki, yaşıl iqtisadiyyat dayanıqlı inkişafı təmin etmək və kütləvi miqyasda yoxsulluğu aradan qaldırmaq potensialına malikdir. Yaşıl enerji hasilatı və istifadəsi yaşıl iqtisadiyyatın təməl şərtlərindən biridir. Belə ki, bərpa olunan enerjidən istifadə karbon emissiyasını azaltmaq üçün real imkanlar yaradır.

Beləliklə, davamlı olaraq enerji böhranı ilə üzləşən bəşəriyyət dəyər zəncirinin bütün halqalarında yaşıl enerjinin hasilatı və daşınmasının ucuzluğu ilə fərqlənən, daha sərfəli, yeni, ekoloji cəhətdən təmiz və bərpa olunan enerji mənbələri tapmağa çalışır.

İqtisadi sistem kimi yaşıl iqtisadiyyat təkcə ekoloji cəhətdən təmiz deyil, həm də ekoloji cəhətdən təmiz məhsul və xidmətlərin istehsalına, ticarətinə, paylanmasına və istehlakına sərmayə qoyulmasına üstünlük verilməsindən ibarətdir. Bu mənada, yuxarıda sadalananlar kimi bir çox yaşıl şərait artıq iqtisadiyyat üçün məhdudiyyətlər kimi qəbul edilməməli, əksinə onlar yeni iqtisadi imkanlar yaradan qüvvələr kimi qəbul edilməlidir. Yaşıl iqtisadiyyatın bu müasir konsepsiyasının yuxarıda qeyd olunan xüsusiyyətləri iqtisadiyyatın aşağıdakı digər sahələri ilə uyğunlaşır:

• aqrar iqtisadiyyat (təsərrüfatdan asılı olan iqtisadiyyat);

• sənaye iqtisadiyyatı (istehsal olunan malların üstünlük təşkil etdiyi iqtisadiyyat);

• xidmət iqtisadiyyatı (məhsullardan daha çox xidmətlərin üstünlük təşkil etdiyi iqtisadiyyat);

• bilik iqtisadiyyatı (bütün sənayelər üzrə artım sərvətinin yaradılmasının və məşğulluğun əsas "flaqmanı" kimi biliyin istehsalı, paylanması və istifadəsinə əsaslanan iqtisadiyyat).

2008-ci ilin oktyabrında Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı tərəfindən başladılan yaşil iqtisadiyyat təşəbbüsü yaşıl iqtisadiyyatın bu müasir konsepsiyasının təklif etdiyi imkanlardan istifadə etmək məqsədi daşıyır.

Yaşıl iqtisadiyyatın bu müasir konsepsiyası iqtisadiyyatı yaşıl tələblərə tabe edən yaşıl iqtisadiyyatın digər, daha çox tanış olan konsepsiyasını tamamlayır və genişləndirir. İqtisadiyyatı ekoloji qiymətlər və standartlar kimi müxtəlif siyasət alətləri ilə yaşıl tələblərə tabe etmək artıq yalnız ekoloji cəhətdən mənfi davranışlara görə cəza kimi həyata keçirilməkdədir. Əhəmiyyətlisi isə ondan ibarətdir ki, o həm də iqtisadi agentlərin ekoloji cəhətdən təmiz məhsul və xidmətlər istehsal etmək, ticarət etmək və istehlak etmək üçün həvəsləndirməyə xidmət edir.

Yaşıl iqtisadiyyat həm də xüsusi dövlət siyasətləri ilə şərtlənərsə, sosial bərabərliyə töhfə verə bilər. Burada qeyd edilməli vacib məsələlərdən biri də ondan ibarətdir ki, davamlı inkişaf nəsillərarası bərabərlik aspektlərinə diqqət yetirsə də, yaşıl iqtisadiyyat və yaşıl inkişaf həm nəsillərarası bərabərlik aspektlərini və həmdə sosial inkişafı özündə ehtiva edir.






# İSTİQRAZLARLARIN TARİXİ:
## "MÜHARİBƏ İSTİQRAZLARI"NDAN "DÖVLƏT İSTİQRAZLARI"NA GEDƏN YOL

Borcu təsdiqləyən alətlərin, o cümlədən istiqrazların tarixi çox qədimdir və bir neçə min il əvvələ gedib çıxır. Amma onların bizim adət etdiyimiz formada və məqsədlərlə buraxılmasına təqribən min il əvvəl başlanıb. İlk dövrlərdə dövlətlər istiqrazları müharibə üçün maliyyə vəsaiti əldə etmək məqsədilə buraxırdılar. İstiqraz sahibləri üçün bunun elə bir fərqi yoxdur – onlar min il əvvəl olduğu kimi indi, də istiqrazlardan qazanmaqda davam etməkdədirlər.

**“Müharibə istiqrazları”**

Bəzi mənbələrə görə, ilk istiqraz buraxılışları o vaxtın maliyyə mərkəzi sayılan Venesiyadan başlanıb. Hazırda dünyanın qiymətli kağızlar bazarının əsasını təşkil edən istiqrazlar heç də həmişə dinc məqsədlər üçün buraxılmayıb. 1100-cü illərdə Venesiya apardığı müharibələri maliyyələşdirmək üçün “presiti” kimi tanınan dövlət istiqrazlarını buraxmağa başlayır. İstiqrazların üzərində onun nə vaxt ödəniləcəyi, puldan istifadəyə görə əlavə ödənişin məbləği (yəni, istiqrazı alan tərəfin illik gəliri) və digər şərtlər ətraflı yazılırdı. Şəhər öz istiqraz bazarını 14-cü əsrə kimi inkişaf etdirdi. Həmin vaxtadək Venesiya sakinləri istiqrazlara öyrəşmişdi, onlar bu istiqrazları alıb-sata bilir və istirqaz sahibləri müəyyən edilmiş illik qazanc əldə edirdilər.

**Kilsənin təqibindən qurtulmaq üsulu**

Maraqlıdır ki, istiqrazların yaranmasının bir səbəbi də kilsə tərəfindən sələmçilərə qadağa qoyulması idi. 16-cı əsrdə Fransada və Hollandiyada kilsə sələmçilərə və onların faizlərinə qarşı əsl müharibə elan etmişdi. Sələmçilər vəziyyətdən çıxmaq üçün istiqraz formasını fikirləşib tapdılar. Əslində hər şey olduğu kimi qalmışdı, yeganə fərq ondan ibarət idi ki, istiqrazın üzərində borc faizi əvəzinə «gəlirdən faiz» sözü yazılmışdı. Bu ifadə imkan verirdi ki, istiqraz üçün ödənilən faiz gəlirin bölüşdürülməsi sayılsın. Bunu isə kilsə qadağan etmirdi və borc verən tərəf kilsənin təqibindən yaxa qurtarırdı.



**İstiqrazların dili fransızca idi**

Hollandiyada ilk istiqrazlar 16-cı əsrdə buraxılmağa başlayır. İlk istiqrazlar 1517-ci ildə İspanya ilə müharibədə istifadə etmək məqsədilə buraxılmışdı. Həmin istiqrazı alanların illik qazancı orta hesabla 20% təşkil edirdi. Bu istiqrazlar veksel şərtləri ilə buraxılır, üstündəki yazılar isə fransızca idi. Ümumiyyətlə, 20-ci əsrə kimi buraxılan istiqrazların çoxunun üstündəki yazılar fransızca idi, həmin vaxt fransız dili maliyyə dili kimi qəbul edilirdi.

**İngiltərə-Fransa müharibəsinin istiqrazları**

Dünya tarixində ən uzun sürən müharibə də istiqrazlarsız baş tuta bilməzdi – 1663-cü ildə İngiltərədə “Bank of England” tərəfindən istiqrazlar buraxılıb və cəlb edilən pullar Fransa ilə müharibədə istifadə edilib. Həmin istiqrazlar tarixdə ilk rəsmi dövlət istiqrazları kimi tanınır. Onlar həm illik qazanc gətirir, həm lotoreya kimi də qeydiyyatdan keçirilirdi.

Bundan sonra digər ölkələr də müharibəyə pul tapmaq üçün istiqraz buraxmağa başladılar. 18-ci əsrdə Amerika Birləşmiş Ştatları da istirqaz bazarına daxil oldu. İlk istiqrazlar inqilab zamanı buraxıldı. Onların buraxılışından cəlb olunan pullar vətəndaş müharibəsində istifadə olunurdu. Təkcə fiziki şəxslər bu müharibə üçün buraxılan 27 milyon dollarlıq istiqraz almışdılar.

**Sülh və inkişaf istiqrazları**

Dünyada istiqraz bazarları, daha dəqiqi dinc məqsədlər üçün istiqraz buraxılışları əsasən 1815-ci ildən sonra sürətlə inkişaf etməyə başladı. Bu dövrdə İngiltərə bir çox yerlərdə dəmiryollarına və kanallara investisiya qoymaqda, Latın Amerika ölkələrinə və İngiltərənin müstəmləkələrinə maliyyə vəsaiti ayırmaqda idi. Bu da özlüyündə müxtəlif ölkələrdə istiqraz bazarlarıının inkişafına təkan verdi. Bundan başqa, 1815-1914-cü illər arasında İngiltərədə yaşanan iqtisadi canlanma öz növbəsində istiqraz faizlərini



4%-ə qədər aşağı saldı. Bu müddət ərzində ABŞ, Almaniya, Fransa və digər başqa ölkələr də illik 3% gəlirliliklə dövlət istiqrazları satışa buraxırdılar.

**Napoleon və istiqrazlar**

İstiqrazların buraxılmasından keçən 700 il ərzində dünya istiqraz bazarında faiz nisbətlərində azalma müşahidə edilir. Belə ki, 1285-1600-cü illər arasında dövlət istiqrazlarının illik gəlirliyi 6% – 10% arasında dəyişir, bəzi hallarda hətta 20%-ə qalxırdı. Amma XVIII əsrin əvvəllərindən etibarən Londonda və Nyu Yorkda yaranan istiqraz bazarları istiqraz faizlərinin azalmasına səbəb oldu və istiqrazların gəlirliliyi 3%-ə qədər düşdü. İstiqraz bazarına və onların gəlirliliyinə Napoleon müharibələri də təsirini göstərib. Napoleonun başlatdığı müharibələrin təsiri ilə İngiltərənin xarici borcu sürətlə artaraq, ÜDM-nin 200%-ni təşkil etdi ki, bu da ölkədə iqtisadi riskləri artırdığına görə, İngiltərə bankının buraxdığı istiqrazların faizlərinin 6%-ə qədər çıxmasına səbəb oldu.

**Çar Rusiyasının istiqrazları**

Rusiyadada ilk istiqrazlar II Yekaterinanın dövründə, 1769-cu ildə buraxılmağa başlanır. İstiqrazın buraxılışından əldə olunan vəsaitlər Rusiyaya Krımın işğalı zamanı əldə edilən borcları ödəmək üçün lazım idi. Bəzi səbəblərə görə Rusiya bu istiqrazları özü buraxa bilmədi və istiqraz buraxılışını vasitəçilərinin – əsasən holland bankirlərinin köməyi ilə həyata keçirdi. İllik 5% gəlirliklə buraxılan istiqrazların alıcıları da xaricilər – İngiltərə və Almaniya bankları idi.

Rusiyada istiqraz bazarının inkişafı təhkimçiliyin ləğvindən – 1861-ci ildən sonra başladı. Ölkə ilk növbədə dəmir yollarının tikintisi üçün lazım olan vəsaitləri istiqrazlar buraxaraq yığırdı. İstiqrazların çoxu illik 4% gəlir gətirirdi və 5 – 50 il müddətinə buraxılırdı.

1917-ci ildə Çar Rusiyasının bütün istiqrazları qeyri-qanuni elan edildi və bununla da istiqraz sahiblərinin qoyduqları bütün vəsaitlər batdı. 20-ci illərdən etibarən artıq Sovet İttifaqının istiqrazları buraxılmağa başlanır. Bu istiqrazlar uduşlu idi.

**10 illik “Azadlıq İstiqrazları”**

İlk dəfə 10 illik dövlət istiqrazları isə ABŞ tərəfindən XX əsrin əvvəllərində “Azadlıq İstiqrazları” adı altında buraxılıb. Bu istiqrazlar Birinci dünya müharibəsi zamanı yenə də müharibəyə maliyyə dəstəyi üçün buraxılmışdı. 1917-ci ildə ABŞ-ın Almaniyaya müharibə elan etməsindən 3 həftə sonra parlament ABŞ-a illik 3,5% gəlirliliklə 5 milyard dollarlıq istiqraz buraxmağa icazə verdi.

Yüz ildən artıq tarixi əhatə edən ABŞ istiqraz bazarında bu müddət ərzində kəskin eniş və çıxışlar yaşanıb. Xüsusi ilə dövlət istiqrazlarının qiyməti və bundan asılı olaraq da faizləri, iqtisadi mühitdəki dəyişmələr nəticəsində ciddi dalğalanmalar göstərib.

Belə ki, 1902-1920-ci illər aralığında istiqrazların faiz nisbətləri müharibə və inflyasiya risklərinə qarşı 2,82%-dən 5,67%-ə yüksəlib. 1921-1945-ci illər arasında isə faizlər deflyasiya və iqtisadi dəyişikliklər nəticəsində 5,67%-dən 1,55%-ə düşüb. Ancaq 1970-cil illərin ortalarından başlayaraq, kapitalist ölkə iqtisadiyyatlarında yaşanan inflyasiya və iqtisadi durğunluq nəticəsində faizlər təkrar artmağa başlayıb və faiz hədləri təqribən 10 dəfə artaraq, 1,55 %-dən 15,84%-ə çıxıb. Bu göstərici ABŞ istiqraz tarixində ən böyük göstərici hesab olunmaqdadır. 1981-ci ildən sonra isə faizlər azalmağa başlamış, nəticədə 2011-ci ildə 1,46%-ə düşüb. Hal-hazırda isə ABŞ-da 10 illik dövlət istiqrazlarının faiz nisbəti orta hesabla 2,58% təşkil etməkdədir.

**140 trilyon dollarlıq bazar**

Hazırda istiqrazlar dünyanın, demək olar ki, bütün dövlətləri və iri şirkətləri tərəfindən buraxılır. Dünya istiqraz bazarının həcmi 140 trilyon dollardan artıqdır. Hər gün birjalarda 800 milyard dollarlıq istiqraz alınıb – satılır və sahiblərinə sabit qazanc gətirir. İstiqraz bazarının inkişafının və onlara marağın böyük olmasının əsas səbəbi onların daha likvid yatırım aləti olması, risksiz olması və gəlirliliyin əvvəlcədən bilinməsidir.

Qeyd edək ki, 2023-cü ildə “Bakı Fond Birjası”nda korporativ istiqrazları üzrə əqdlərin dəyəri 374,4 milyon manat təşkil edib. Bunun 63,7 %-i və ya 238,6 milyon manatı ilkin bazarın, 36,3 %-i və ya 135,8 milyon manat təkrar bazarda formalaşıb.



# ŞƏRQDƏ İLK KOLLEKTİV SAZİŞ: "MAZUT KONSTİTUSİYASI"NDA AZƏRBAYCANLI İŞÇİLƏR HANSI TƏLƏBLƏRİ QOYMUŞDULAR?

Prezident İlham Əliyevin müdrik rəhbərliyi, həyata keçirdiyi davamlı uğurlu islahatlar nəticəsində Azərbaycanda bərqərar olan demokratik mühit, insan hüquq və azadlıqlarına ali münasibət, vətəndaş cəmiyyətinə göstərilən yüksək dəstək ölkəmizdə həmkarlar ittifaqlarının inkişafına, sərbəst və müstəqil fəaliyyətinə geniş imkanlar açıb. Ulu Öndər Heydər Əliyevin dəyərli tövsiyələrinə və məsləhətlərinə uyğun olaraq, bu gün təşkilatımız əmək prosesinə cəlb olunmuş vətəndaşlarımızın hüquqlarının müdafiəçisi kimi ölkəmizdə fəaliyyət göstərən bütün müəssisələrdə iş şəraitinin müasir standartlara uyğunlaşdırılması, sosial problemlərin həlli və əmək hüquqlarının təmin olunması sahəsində yeni metod və vasitələrdən istifadə edərək ardıcıl və məqsədyönlü iş aparır. Eləcə də əməyin mühafizəsi, sağlam və təhlükəsiz iş şəraitinin yaradılması, ittifaq üzvlərinin sanatoriya, kurort müalicəsinin və istirahətlərinin təşkili istiqamətində səylə çalışır. Habelə təşkilatımız beynəlxalq həmkarlar ittifaqlarının etibarlı, yaxşı təşkilatlanmış demokratik, şəffaf və dürüst tərkib hissəsi kimi, böyük inam və yüksək etimad qazınıb. Tərəfdaşları ilə eyni amala - işçilərin əmək hüquqlarının və sosi-




al-iqtisadi mənafelərinin müdafiəsinə dönmədən xidmət etməsi Azərbaycan həmkarlar ittifaqlarının beynəlxalq nüfuzunu artırmaqdadır.

Təbii ki, təşkilatımız bu səviyyəyə çatması və cəmiyyətdə artan nüfuzu onun zəngin tarixi, təməl prinsiplərinə sadiqliyi və funksiyalarına məsuliyyətindən irəli gəlir.

Qeyd edək ki, Azərbaycanda həmkarlar ittifaqları XX əsrin əvvəlində yaranmağa başlayıb. Yarandığı və formalaşmağa başladığı tarixdən bu günə kimi bir-birinə zidd iki müxtəlif ictimai formasiyada - kapitalizm və sosializm, daha sonra isə yenidən kapitalizm quruluşunda fəaliyyət göstərib. Amma buna baxmayaraq, əsas ideologiyasına sadiq qalaraq daim işlərini uğurlu və mütəşəkkil səviyyədə aparıb, ardıcıl və səmərəli islahatlarla, yenilənmiş hüquqi mexanizmlərlə böyük inkişaf yolu keçib.

Azərbaycanda həmkarlar ittifaqlarının yaranması yolunda mühüm hadisə isə bu il imzalanmasının 120 ili tamam olan “Mazut konstitusiyası” adını almış müştərək müqavilədir. Bakıda neft sənayeçiləri ilə işçilər arasında imzalanan bu sənəd dünyada ilk kollektiv müqavilə kimi tarixə düşüb. Həmin dövrə nəzər salanda görürük ki, Bakıda sosial-iqtisadi vəziyyət xeyli ağır idi, çalışan insanların zəhmətinə qiymət verilmir və onlar tamamilə hüquqsuz idilər.

Getdikcə ağırlaşan sosial-iqtisadi vəziyyət şəraitində Rusiya imperiyasının sənaye şəhərlərin tətillər, nümayişlər bürümüşdü. Bakıda da vəziyyət gərginləşirdi. Artıq 1904-cü ilin dekabrın 13-də “Xəzər-Qara dəniz neft sənayesi cəmiyyəti”nin fəhlələri tətil elan etdilər. Onların ardınca Nobel, Potşild, Mantaşev və Mirzoyevin mədənlərinin, Bibiheybət, Qara və Ağ şəhərlərin fəhlələri işi dayandırdılar. Tətilçilərin ümumi sayı 40 min ötürdü. “Kaspi”, “Bakinskiye izvestiya”, “Baku” qəzetləri mətbəələrinin fəhlələri də işi dayandırmışdılar.

1904-cü il dekabrın 14-də neft sənayeçilərinin ümumi iclasında 15 nəfərdən ibarət komissiya seçildi, iş və tətilçilərlə danışıq aparılması üçün lazım olan şərtlərin hazırlanması qərara alındı. Dekabrın 15-də bolşeviklər xüsusi intibahnamə tərtib edərək 34 maddədən ibarət siyasi və iqtisadi tələblər irəli sürdülər. Burada yalnız neft sənayesi fəhlələrinin deyil, digər sahələrdə çalışan fəhlələrin də marağına aid olan tələblər irəli sürülmüşdü: 8 saatlıq iş günü, həftədə bir istirahət günü vermək, bayramlar ərəfəsində iş gününün gündüz saat 2-də başa çatması, gecə işlərini ləğv etmək, 8 saatlıq üç növbəli iş rejiminin tətbiq edilməsi, mədən və zavodlarda hər cür münaqişələri müzakirə etmək üçün fəhlələrin və sənaye sahibkarlarının bərabər sayda nümayəndələrindən ibarət mədən məhkəmələrinin təşkili, işsiz fəhlələrin iş axtarmaq məqsədilə zavod və mədənlərə sərbəst daxil olmasına imkan vermək, müdiriyyət tərəfindən fəhlələrlə nəzakətlə dav-



ranmaq, bütün istehsal sahələrində fəhlələr üçün ümumi əməkhaqqının dərhal 25-50 % artırılması, xəstəlik müddətində əməkhaqqının tam ödənilməsi, işçilərin işəgötürənlərin hesabına müalicə olunması, iş yerlərinin gigiyenik vəziyyəti, əlverişli iş şəraitinin yaradılması, mədən rayonlarına yaxın məsafədə yeməkxanaların, pulsuz məktəblərin, kitabxana və qiraətxanaların təşkili, neft sənayeçiləri hesabına fəhlələrin həyatını sığorta etmək, cərimələri ləğv etmək və s. məsələlər öz əksini tapmışdır. Fəhlələr müdiriyyətin günahı üzündən itirilmiş günlərin əməkhaqqının verilməsini, öz nümayəndələrinin işçilərin işə götürülməsində və işdən azad olunmasında iştirak etməsinə, əməkhaqqının qəti müəyyən edilmiş vaxtlarda və ayda 2 dəfədən az olmayaraq verilməsini də tələblərə daxil etmişdilər. Fəhlələr tərəfindən irəli sürülmüş tələblərin genişliyi və hərtərəfliliyi onların həyata keçirilməsi uğrunda mübarizədə fəhlələrin göstərdiyi inadkarlıq, ardıcıllıq xüsusilə təqdirəlayiqdir. Bakı fəhlələrinin 300 nüsxə ilə çap edilmiş ümumi tələbləri şəhərin bütün fabrik-zavod və mədən rayonlarına yayıldı və fəhlələr arasında böyük əks-səda doğurdu. Fəhlələrin irəli sürdüyü tələblər sonralar tətil komitəsinin neft sənayeçiləri ilə apardığı danışığın əsasını təşkil etdi. Tətilin ilk günlərindən tətilçilərə qarşı təqiblər geniş miqyas almaqda idi. Tətil başlanandan dərhal sonra şəhərdə hərbi vəziyyət elan olundu. Lakin bütün təqiblərə, həbslərə, işgəncələrə baxmayaraq, fəhlələr mübarizəni sonadək davam etdirdilər. Belə bir şəraitdə neft sənayeçiləri tətilçilərlə danışığa başlamağa, müştərək müqavilə bağlamağa razılıq verdilər. Lakin sahibkarlar tərəfindən bir sıra mühüm tələblər rədd edildiyindən fəhlələr tətili davam etdirdilər. Nəhayət, neft sənayesi sahibkarları güzəştə getməyə məcbur oldular. Doqquz saatlıq iş gününün həyata keçirilməsinə, tətil günlərinin əməkhaqqını ödəməyə, fəhlə xəstə olduğu vaxt isə ay yarımlıq əməkhaqqının yarısını verməyə razı olduğunu bildirərək bir sıra başqa güzəştlərə gedəcəyini də elan etdi. Tətil komitəsi 9 saatlıq iş gününü böyük nailiyyət hesab edərək fəhlələri işə başlamağa çağırırdı. Sahibkarlar dekabrın 27-ni işə qayıdış günü elan etdilər. Bolşeviklər vəziyyətdən istifadə edərək 25 əlavə tələb hazırladılar və onları sahibkarlara təqdim etdilər. Bu tələblərin əsasında dekabrın 27-də yeni saziş əldə olundu. Bu saziş 9 saatlıq iş gününə (birinci sazişdə 9,5 saatlıq) əməl olunmasını, xəstəliyə görə 2 aylıq məzuniyyət verilməsini (birinci sazişdə 1,5 ay), 3 növbəli işin tətbiqini, digər millətlərdən olan fəhlələr arasında qeyri-bərabərliyin aradan qaldırılmasını və s. nəzərdə tuturdu.

Neft sənayesi sahibkarları ilə müştərək müqavilənin bağlanması haqqında danışıqlar dekabrın 30-da uğurla başa çatdı və “Mazut konstitusiyası” imzalandı. Minlərlə fəhlənin əhatəsində imzalanan bu müqavilə dekabrın 27-də imzalanan sazişin şərtlərinə əlavə olunan maddələri: tətil günləri üçün fəhlələrə əməkhaqqı ödənilməsi, fəhlələrə mənzil, kerosin, neft və su verilməsi, əmək qabiliyyətini itirənlər üçün 3 ay müddətində əməkhaqqının yarısının saxlanması, tətilçilərin cəzalandırılmayacağına təminat verilməsini nəzərdə tuturdu. Neft sənayeçiləri 9 saatlıq iş günü, ayda 4 dəfə istirahət günü və ildə bir dəfə aylıq məzuniyyət verilməsi,



müdiriyyətin özbaşınalığının məhdudlaşdırılması, əmək haqqının artırılması, fəhlələrin evində axtarış aparılmasının ləğvi və s. tələbləri qəbul etməyə məcbur oldular.

Beləliklə, dekabrın 31-də Bakı fəhlələrinin ümumi tətili qalibiyyətlə başa çatdırıldı. İlk kollektiv müqavilə Bakı fəhlələrinin çox böyük nailiyyəti olub, onun maddi vəziyyətini xeyli yaxşılaşdırdı. Müştərək müqavilə nəticəsində neft şəhəri fəhlələrinin vəziyyəti nisbətən yaxşılaşdı. Bu, həmin dövr üçün böyük nailiyyət idi və zəhmətkeşlərin daha mütəşəkkil şəkildə təşkilatlanmasına geniş zəmin yaratdı.

Nəhayət, 1905-ci il oktyabrın 17-də konka (at dəmir yolu) işçiləri həmkarlar ittifaqı təşkilatını yaratdılar. Noyabr ayında ikinci bir həmkarlar ittifaqı meydana gəldi ki, bu da sıralarında mətbəə işçilərini birləşdirirdi. İlin sonuna qədər artıq mühəndis və texniklərin, həkimlərin, müəllimlərin, vəkillərin və sair peşə adamlarının həmkarlar ittifaqı təşkilatları fəaliyyət göstərirdi. 1906-cı ilin sonuna olan hesabata görə, Bakıda 18-20 həmkarlar ittifaqı təşkilatı mövcud idi. Bu təşkilatların üzvlərinin sayı 12 min 200 nəfəri ötmüşdü. Qafqazdakı həmkarlar ittifaqının 75 faizi Azərbaycanın paytaxtında cəmlənmişdi.

Bu vaxta qədər isə sahibkarlar külli-ixtiyar sahibi olmaqla əmək münasibətlərinin bütün şərtlərini özləri müəyyən edirdi, işçilər isə hüquqsuz vəziyyətə salınmışdı, özbaşınalıq hökm sürürdü. Beləliklə, həmkarlar ittifaqlarının fəaliyyətə başlaması ilə tədricən bu problem aradan qalxmağa başladı və işçilər arasında ittifaqların rəğbəti artdı, sosial baza genişləndi. Odur ki, “Mazut konstitusiyası” Azərbaycan həmkarlar ittifaqları tarixinin mühüm səhifəsini təşkil edir, təşkilatın yaranmasında, formalaşmasında və inkişafında əhəmiyyətli rola malik olub.

Bu gün vətəndaş cəmiyyəti institutlarından biri olan Azərbaycan həmkarlar ittifaqları səlahiyyətləri çərçivəsində olan bütün problemlərin həllini hökumətlə sosial dialoqda görür. AHİK hakimiyyətin bütün strukturları ilə əməkdaşlıq və sosial tərəfdaşlıq prinsipləri əsasında işləyir. Hər iki ildən bir hökumət, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında Baş Kollektiv Saziş imzalanır. Sazişin məqsədi tərəflərin mövqelərinin və fəaliyyət istiqamətlərinin uyğunlaşdırılmasıdır.

Həmkarlar ittifaqları Baş Kollektiv Sazişə istinad edərək əməkçilərin sosial-iqtisadi hüquqlarının qorunması, kütləvi işsizliyin qarşısının alınması və s. vəzifələrin yerinə yetirilməsində qarşıya çıxan maneələri dəf edə bilir.

Bu gün hər bir vətəndaşın layiqli yaşayış və iş yeri ilə təmin olunması Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindəndir. Dövlətimiz tərəfindən əmək münasibətləri iştirakçılarının hüquq bərabərliyinin təmin edilməsi, qanuni mənafelərinin qorunması, əmək müqaviləsi üzrə öhdəliklərinin icrasına hüquqi təminatın yaradılması istiqamətində sistemli və məqsədyönlü tədbirlər həyata keçirilir.

Bu da imkan yaradır ki, üzvlərinin əmək və sosial-iqtisadi hüquqlarının, qanuni mənafelərinin müdafiəsinin təşkilində, əmək münasibətlərinin tənzimlənməsində və ictimai sabitliyin qorunmasında həmkarlar ittifaqları daha səylə və məsuliyyətlə çalışsın.

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə “Sahibkarlar günü”nə və Azərbaycan Sahibkarlar Konfederasiyasının yaranmasının 25 illiyinə həsr olunmuş “Azərbaycanın sosial-iqtisadi inkişafının yeni dövrü” mövzusunda Konfransın iştirakçılarının MÜRACİƏTİ

*Möhtərəm cənab Prezident!*

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyası bu gün Zati-aliniz tərəfindən uğurla davam etdirilir. Məhz bu siyasət nəticəsində ölkəmizdə sabitlik təmin olunmuş, iqtisadiyyatımızın müasir bazar münasibətlərinə keçidi uğurla başa çatmışdır.

Zati-alinizin rəhbərliyi ilə aparılan genişmiqyaslı işlər nəticəsində sahibkarlar ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilmiş, sağlam bazar münasibətləri, azad rəqabət mühiti, özəl bölmə üçün əlverişli imkanlar formalaşdırılmışdır. Aparılan islahatlar dünyanın qabaqcıl iqtisadi mərkəzləri tərəfindən də yüksək qiymətləndirilir.

Məhz Sizin müdrik siyasətinizlə sahibkarlığa dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, regionlarda sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin artırılması, maarifləndirmə və işgüzar əlaqələrin inkişafı istiqamətində davam etdirilən məqsədyönlü tədbirlər nəticəsində özəl bölmənin ümumi daxili məhsulda payı 83 faiz, məşğulluqda payı isə 78 faizdən artıq olmuşdur. Belə yüksək nəticənin əldə olunması biz sahibkarları çox qürurlandırır. Sahibkarlara göstərdiyiniz diqqət və qayğını xüsusi minnətdarlıq hissi ilə vurğulayırıq.

Dünya birliyində öz layiqli yerini tutan, dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan Azərbaycan inkişaf etmiş ölkələrdən birinə çevrilmək hədəfinə doğru böyük inamla irəliləyir. Reallaşdırılan mühüm tədbirlər nəticəsində ölkəmizdə makroiqtisadi sabitlik qorunub saxlanılır, iqtisadiyyatın şaxələnməsi uğurla təmin olunur, özəl bölmənin inkişafı üçün daha əlverişli biznes və investisiya mühiti formalaşdırılır.

Sizin rəhbərliyinizlə 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi və 23 saatlıq lokal antiterror əməliyyatı nəticəsində respublika ərazisində separatizmə birdəfəlik son qoyularaq ölkəmizin konstitusiya quruluşunun tam bərpa edilməsi ilə dövlətimizin qüdrətinin artması inkişaf tariximizin yeni mərhələsinə qədəm qoymağımıza imkan yaratmışdır.

Siz Azərbaycan sahibkarlarının sonsuz məhəbbət bəslədiyi və daim əvəzolunmaz lider kimi tanıdığı rəhbərsiniz. Bu ilin fevral ayında keçirilmiş növbədənkənar Prezident seçkilərində Azərbaycan sahibkarları öz seçimlərini etdilər və birmənalı olaraq Sizin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyinizə səs verdilər.

*Möhtərəm cənab Prezident!*

Bu gün hər bir sahibkar anlayır ki, Azərbaycanın tərəqqisi və gələcək inkişafı üçün Sizin rəhbərliyiniz ilə həyata keçirilən genişmiqyaslı tədbirlər davam etdirilməlidir. Biz – Azərbaycan Sahibkarlar Konfederasiyasının yaranmasının 25 illiyi və “Sahibkarlar günü”nə həsr olunmuş Konfransın iştirakçıları Sizi əmin edirik ki, işğaldan azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda ən yeni texnologiyaların tətbiqi, yeni iş yerlərinin yaradılması, bərəkətli torpaqlarımıza yenidən həyatın qayıtması, əhalinin rifah halının yaxşılaşdırılması, ümumilikdə isə iqtisadiyyatımızın inkişafı istiqamətində əlimizdən gələni əsirgəməyəcəyik.

Azərbaycan sahibkarları daim dövlətin dəstəyini, qayğısını hiss edir və Sizin Sərəncamınızla hər il 25 aprel tarixinin ölkəmizdə “Sahibkarlar günü” kimi qeyd edilməsi bizim üçün böyük bir bayrama çevrilir.

Zati-alinizə möhkəm cansağlığı və müstəqil, demokratik Azərbaycanın daha da möhkəmlənməsi, xalqımızın xoşbəxt gələcəyi naminə yorulmaz fəaliyyətinizdə uğurlar arzulayırıq!

Tanrı Sizi, xalqımızı və Azərbaycanımızı qorusun!

Bakı şəhəri, 25 aprel 2024-cü il

# Sahibkarlıq fəaliyyəti sahəsində fərqlənən bəzi şəxslər “Tərəqqi” medalı ilə təltif edilib

## SAHİBKARLIQ FƏALİYYƏTİ SAHƏSİNDƏ FƏRQLƏNƏN ŞƏXSLƏRİN “TƏRƏQQİ” MEDALI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının iqtisadi inkişafına verdikləri töhfəyə və sahibkarlıq sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər “Tərəqqi” medalı ilə təltif edilsinlər:

Abdullayeva İlhamə Xanlar qızı
Abuşov İlkin Əlimövsüm oğlu
Ağazadə İlqar Bəhruz oğlu
Bədəlov Mustafa Soltan oğlu
Cavanşir Elman Bəşir oğlu
Əhmədova Afət Adil qızı
Hacıyev Sultanhəmid Hacı oğlu
Hüseynov Yaşar Mirzəxan oğlu
İsmixanlı Ramin Sultan oğlu
Məmmədov Emin Ruslan oğlu
Məmmədov Fuad Nadir oğlu
Məmmədov Seymur Mikayıl oğlu
Rzayev Emin Əjdər oğlu
Tabasaranskiy Kənan Fikrət oğlu.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 aprel 2024-cü il***



# ASK prezidenti İTİP-nin Direktorlar Şurasının 36-cı iclasında iştirak edib




Dünyanın 57-dək ölkəsindən rəqəmsal iqtisadiyyat liderləri və sahibkarlar öz dərin baxışları və innovativ ideyaları ilə İslam Ticarət və İnkişaf Palatasının (İTİP) Direktorlar Şurasının 36-cı iclasında bir araya gəliblər. İclasda İTİP-in Direktorlar Şurasının üzvü kimi ölkəmizi Azərbaycan Sahibkarlar Konfederasiyasının (ASK) nümayəndə heyəti təmsil edib.

Mayın 26-da İordaniyanın paytaxtı Əmman şəhərində İslam Ticarət və İnkişaf Palatasının təşkilatçılığı ilə illik əsasda keçirilən “Rəqəmsal iqtisadiyyatda investisiya forumu” öz işinə başlayıb. İki gün davam edən forumda iqtisadiyyatın rəqəmsallaşması və bu sahədə dünyadakı trendlər müzakirə edilib.

Panellərdə “Rəqəmsal iqtisadiyyata investisiyaların stimullaşdırılmasında hökumətlərin rolu”, “Rəqəmsal iqtisadiyyatın inkişafında Ticarət Palatalarının və Biznes İnstitutlarının rolu”, “E-ticarət”, “Üzv ölkələr üçün investisiya imkanları təqdimatları” mövzuları müzakirə edilib.

Mayın 27-də keçirilən Direktorlar Şurasının 36-cı iclasında İslam ölkələrinin biznes nümayəndələri müasir dünyanı xarakterizə edən tərəqqi və innovasiya şəraitində iqtisadi sektorları inkişaf etdirmək yollarını araşdırıblar.

Tədbir çərçivəsində İordaniya Ticarət və Sənaye Palatasının sədri Xalil Elhaj Tavfiqin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Azərbaycan Sahibkarlar Konfederasiyasının nümayəndə heyəti arasında görüş keçirilib.

Görüşdə Azərbaycanın gələcək illərdə forumda daha geniş heyətlə, xüsusilə iqtisadiyyatın rəqəmsallaşmasına maraq göstərən sahibkarlarla təmsil olunması perspektivi vurğulanıb.

Forumun təşkilatçısı olan İslam Ticarət və Sənaye Palatasının bu fəaliyyəti təqdir edilib və Azerbaycanda da bu nümunədə “Dayanıqlı kənd təsərrüfatı forumu”nun keçirilməsinin razılaşdırıldığı qeyd olunub. İordaniya Ticarət və Sənaye Palatası, Azərbaycanda baş tutacaq bu foruma indidən maraq göstərən yerli şirkətlərin olduğunu bildirib.

O cümlədən, ölkələrimiz arasında turizm potensialı, tikinti və əczaçılıq sahəsində muvafiq əməkdaşlıq imkanlarının mövcudluğu vurğulanıb və bu istiqamətdə qarşılıqlı biznes səfərlərinin həyata keçirilməsi barədə razılıq əldə edilib. Qərara alınıb ki, hər iki biznes təşkilatı əməkdaşlığa dair memorandum imzalasınlar.

Görüşdə həmçinin Azərbaycanda keçiriləcək mötəbər COP-29 tədbiri ilə bağlı İordaniyanın biznes nümayəndələrinə geniş məlumat verilib.

Həmçinin, Azərbaycan nümayəndə heyəti İslam Ticarət və İnkişaf Palatasının Baş katibi Yusif Xələvi ilə görüşüb. Görüşdə təşkilatlar arasındakı əlaqələr, Azərbaycanda illik əsasda “Dayanıqlı kənd təsərrüfatı forumu”nun keçirilməsi üçün müvafiq texniki məsələlər müzakirə edilib.

Sözügeden forumun keçirilməsinin təşkilata üzv ölkələr arasında əlaqələrin genişlənməsi, xüsusən də Azərbaycanın kənd təsərrüfatı sektoruna investisiyaların cəlb edilməsi və ölkəmizdə istehsal edilən məhsulların təşkilata üzv ölkələrin bazarlarına ixrac edilməsi potensialı haqqında fikir mübadiləsi aparılıb.

Eyni zamanda, forumda təşkilata üzv ölkələrin məhsullarının Azərbaycanın logistika imkanlarından istifadə etməklə Qafqaz və MDB ölkələrinə ixrac edilməsi imkanları təhlil edilib.

# Konfederasiyanın rəhbəri BƏT-in sessiyasında çıxış edib

Cenevrədə (İsveçrə) Beynəlxalq Əmək Təşkilatına (BƏT) üzv ölkələrin hökumət nümayəndələri və sosial tərəfdaşların iştirakı ilə Beynəlxalq Əmək Konfransının 112-ci sessiyası keçirilib.

Beynəlxalq Əmək Konfransında Azərbaycanı hər il olduğu kimi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Konfederasiyasından ibarət üçtərəfli nümayəndə heyəti təmsil edib.

Konfransın iyunun 5-də keçirilmiş sessiyasında Əmək və əhalinin sosial müdafiəsi naziri cənab Sahil Babayev və Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti cənab Məmməd Musayev çıxış ediblər.




Konfederasiya prezidenti bildirib ki, hazırda dünyada müşahidə olunan müharibələr, iqlim dəyişiklikləri, miqrasiya, köç problemləri, sosial bərabərsizlik, milyonlarla insanın yoxsulluq səviyyəsindən aşağı yaşaması, yetərli qidaya əlçatanlığının olmaması və digər bu kimi məsələlər yalnız bir ölkənin, bir regionun problemi deyildir. Hər bir ölkə, cəmiyyət, təşkilat və fərd bu çətinliklərin aradan qaldırılmasında öz məsuliyyətini anlamalı və öz töhfəsini verməlidir.

"Təəssüf ki, biz bu yanaşmanı hər zaman müşahidə etmirik. Bəzən ayrı-seçkilik, ikili standartlar problemlərin həlli istiqamətində birgə addımların atılmasının qarşısını alır. Azərbaycan olaraq təəssüf ki, öz müasir tariximizdə bundan əziyyət çəkmişik. Beynəlxalq hüquqa görə Azərbaycan Respublikasının suveren ərazilərinin işğal altında olmasına dünya, ən azından onun bir qismi 30 ilə yaxın müddətdə göz yummuşdur. Yalnız Azərbaycan dövləti və xalqı öz mübarizəsindən əl çəkməmiş, işğalı öz gücünə sonlandırmış, torpaqlarını azad edərək, ədaləti bərpa etmişdir", – deyə M.Musayev vurğulayıb.

Onun sözlərinə görə, torpaqlarımızın işğalı dövründə bir milyondan çox insan məcburi köçkün həyatına məhkum olmuş, yoxsulluq, səfalət içində yaşamış, Azərbaycan iqtisadiyyatına, onun infrastrukturuna milyardlarla dollarlıq ziyan vurulub. İki müharibə nəticəsində minlərlə Azərbaycan gənci şəhid olub.

"Bütün bunlar Baş direktorun da öz Hesabatında qeyd etdiyi İctimai Sazişin (Social Contract) – beynəlxalq dövlətlərarası hüququn tətbiq edilməməsi ilə əlaqədar olmuşdur. Bu kimi neqativ hallardan əziyyət çəkən azərbaycanlılar bununla belə hüquqa, ədalətə, bərabərliyə və həmrəyliyə inamını itirməmişdir", – deyə Konfederasiya rəhbəri qeyd edib.

O, qlobal problemlərin həllində dialoqun və əməkdaşlığın ən effektiv mexanizm olduğunu bildirib. Bundan əlavə, Konfrans iştirakçılarını bu il ölkəmizdə keçiriləcək COP29 tədbirinə dəvət edərək, artıq COP29-da birgə və aktiv iştirakla bağlı Beynəlxalq İşəgötürənlər Təşkilatı ilə razılıq əldə olunduğunu vurğulayıb.

Azərbaycan özəl sektor işəgötürənlərini təmsil etmək məqsədilə Beynəlxalq Əmək Konfransında Azərbaycan Sahibkarlar Konfederasiyası Konfederasiyanın prezidenti Məmməd Musayev, vitse-prezidentləri Jalə Hacıyeva və Vüqar Abbasov, Direktorluğun məsul şəxsləri Xəqan Hümmətzadə və Adil Qurbanovdan ibarət tərkibdə nümayəndə heyəti ilə iştirak edir.

# Azərbaycan – Özbəkistan İşgüzar Şurasının növbəti iclası keçirilib

Mayın 21-də Quba şəhərində II Azərbaycan-Özbəkistan Regionlararası Forumu çərçivəsində Azərbaycan – Özbəkistan İşgüzar Şurasının növbəti iclası keçirilib.

İclasda, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti cənab Məmməd Musayevlə yanaşı, Özbəkistan Respublikası Ticarət və Sənaye Palatasının sədr müavini cənab Umid Pazilxanov və hər iki tərəfdən İşgüzar Şuranın ümumilikdə 22 üzvü iştirak edib.

Tədbiri açan Konfederasiya prezidenti ölkə prezidenti İlham Əliyev tərəfindən aparılan uğurlu iqtisadi və sosial islahatlar barədə geniş məlumat verib. O, hər iki ölkənin dövlət başçıları arasında güclü dostluq münasibətlərinin olduğunu qeyd edərək, iqtisadi göstəricilərin artım trendi göstərdiyini vurğulayıb.





Özbəkistanın Ticarət və Sənaye Palatasının sədr müavini Umid Pazilxanov iki ölkə arasında sosial-iqtisadi əməkdaşlığın günü-gündən daha da gücləndiyini qeyd edib.

U.Pazilxanov Azərbaycan-Özbəkistan İşgüzar Şurasının növbəti iclasının cari ilin avqustunda Özbəkistanda keçirilməsini təklif edib.

Daha sonra "Mətanət-A" şirkətinin investisiya layihələrinin satınalma rəhbəri Aygün Əkbərova, "Uzeltexsanoat" Birliyinin sədri Mirziyod Yunusov, Azərbaycan Nəqliyyat Ekspeditor Şirkətləri Assosiasiyasının sədri Kamran Həbibov, Azərbaycan Turizm Peşəkarları Təşkilatının sədri Ceyhun Aşurov çıxış ediblər.

Çıxışçılar, turizm sahəsində qarşılıqlı əməkdaşlığın perspektivləri, kənd təsərrüfatı, istehsal sahəsində əməkdaşlıq, Özbəkistan və Azərbaycanın regionlarında investisiya imkanları haqqında müzakirələr aparıblar.

# Azərbaycan Sahibkarlar Konfederasiyasının Polşa Respublikası üzrə nümayəndəsi təyin olunub

Tural Şahsuvar oğlu Rüstəmov 2024-cü il, 8 aprel tarixində Azərbaycan Sahibkarlar Konfederasiyasının Polşa Respublikasındakı nümayəndəsi vəzifəsinə təyin edilmişdir.

T. Rüstəmov 25 oktyabr 1982-ci ildə Bakı şəhərində anadan olub. 2000-ci ildə Bakı şəhəri İdman Olimpiya Liseyini bitirib. 2007-ci ildə Milli Neft Akademiyasını (Bakı) bitirib. 2018-ci ildə Odessa Politexnik Universitetinin (Odessa, Ukrayna) Beynəlxalq İqtisadi Münasibətlər fakültəsində idarəetmə ixtisası üzrə ikinci ali təhsil alıb.

2001-2002-ci illərdə Azərbaycan Silahlı Qüvvələrində xidmət edib. Karyerasına 2005-ci ildə başlayıb, Qazaxıstan, Küveyt, Qətər, Almaniya kimi ölkələrdə telekommunikasiya sahəsində Hoy, Ericsson, Huawei, ZTE, Ukrtelecom, Ooredoo şirkətlərində rəhbər vəzifələrdə çalışıb.

O, 2019-cu ildə Polşada telekommunikasiya sahəsində fəaliyyət göstərən "Bilge Europe" şirkətini təsis etmişdir, hazırda onun baş direktorudur.

# Azərbaycan Sahibkarlar Konfederasiyasının Belarus Respublikası üzrə nümayəndəsi təyin olundu

Vasif Sultan oğlu İsmayılov 2024-cü ilin 15 martında Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Belarus Respublikasındakı nümayəndəsi vəzifəsinə təyin edilmişdir.

Vasif İsmayılov 1972-ci ildə indiki Ermənistanın Göyçə mahalının Şəfəq kəndində dünyaya göz açıb. Dövlət İdarəçilik Akademiyasının İnzibati idarəetmə fakültəsini və Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirib. O, 2017-ci ildə Azərbaycan Respublikasının xaricdə ilk – Azərbaycanın Belarus Respublikasındakı Ticarət Evinin təsisçisi olmuşdur, hazırda da onun rəhbəridir.

V.İsmayılov Minskdə və Mogilyovda çoxsaylı binalar, 2013-cü ildə Belarusun Azərbaycandakı səfirliyinin komplekslərini inşa etmişdir. O, həmçinin 2017-ci ildə Azərbaycanda tikinti kompleksinin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidenti tərəfindən “Tərəqqi” medalına, 02.02.2024-cü ildə Azərbaycan Respublikası Prezidentinin 4289 nömrəli Sərəncamı ilə “Heydər Əliyevin 100 illiyi (1923-2023) yubiley medalına layiq görülmüşdür.

Belarus və Azərbaycan arasında ticari-iqtisadi əlaqələrin və investisiya əməkdaşlığının inkişafına verdiyi böyük töhfəyə görə Vasif İsmayılov “Şərəf” ordeninə layiq görülmüşdür. Bu qərar Belarus Prezidentinin 21 noyabr 2019-cu il tarixli Fərmanında öz əksini tapmışdır.

Vasif İsmayılov 1998-ci ildən bu günədək “Ulu Göyçə” şirkətinin rəhbəri kimi fəaliyyət göstərir.

2003-cü ildən Azərbaycan Sambo Federasiyasının I vitse-prezidenti, 2024-cü ilin fevralından Azərbaycan Boks Federasiyasının vitse-prezidenti vəzifəsinə seçilib.

# Bolqarıstanın biznes təşkilatı ilə memorandum imzalandı



Bolqarıstan Sənaye Kapitalı Assosiasiyası ilə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında anlaşma memorandumu imzalanıb.

Memorandumu Assosiasiyanın İdarə Heyətinin üzvü Kiril Jelyazkov və Konfederasiyanın prezidenti Məmməd Musayev imzalayıb.

Sənədə əsasən, iqtisadi əlaqələrin genişləndirilməsi üçün qurumlar arasında birgə əməkdaşlıq, hər iki ölkədə mövcud olan investisiya layihələri, təlimlər, biznes missiyalar, sərgilər və s. haqqında məlumatlar bölüşüləcək, biznes səfərlər təşkil ediləcək, qarşılıqlı maraq doğuran layihələrin birgə işlənməsi həyata keçiriləcəkdir.

# ASK-nın Turizm və xidmət üzrə iş komissiyasının sədri Samsunda keçirilən İkiztəpə Sağlamlıq Zirvəsində çıxış etdi




Türkiyədə dahi Atatürk şəhəri olan Samsunda İkizTəpə Sağlamlıq Zirvəsi baş tutub.

İkiztəpədə aparılan arxeoloji qazıntılar zamanı min illər əvvəl baş beyində əməliyyat aparıldığı və həmin əməliyyatdan sonra uzun müddət yaşadığı müəyyən olunub. Qaradəniz sahilində yerləşən Samsun Türkiyədə tibb şəhəri kimi səciyyələnməyə başlayıb. Samsunda böyük hospital, klinika mərkəzləri, məşhur avadanlıq və əczaçılıq sənayesi müəssisələri mövcuddur və onların sayı artmaqda davam edir.

Hazırda İkiztəpə Sağlamlıq Zirvəsi bu inkişafın dünyaya göstərilməsi və tibb sənayesinin peşəkarlarını birləşdirən qlobal şəbəkə xarakteri daşıyır.

ASKON Samsun şöbəsinin rəhbəri Ahmet Alp Doğru bildirib ki, 23 ölkədən 200-dən çox iştirakçı var. Dünyanın qocaldığını və tibbi xərclərin artdığı dünyada Türkiyə müəyyən xəstəliklərin müalicəsində, xüsusən də cərrahiyyədə dünyanın ilk beşliyində gəlir. Samsun kənd təsərrüfatı sahəsində lider olsa da, tibbi sənayedə önə keçməyə çalışır. Sağlıq sektorunun illik gəliri isə təkcə Samsunda 6,5 milyard dollar təşkil edir.

Sağlamlıq zirvəsində ölkəmizi Azərbaycan Sahibkarlar Konfederasiyasının Rəyasət Heyətinin üzvü, Turizm və xidmət üzrə iş komissiyasının sədri Ruslan Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

R.Quliyev bildirib ki, artıq Azərbaycan ikinci ildir ki bu zirvədə iştirak edir və bu dəfə daha böyük nümayəndə heyət ilə qatılıb. Həmçinin ölkəmiz iki stendi sərgidə iştirak edir. Azərbaycan vətəndaşlarının Samsunun tibbi potensialından istifadə etməsinə mane olan əsas səbəb isə logistika imkanlarınən məhdudluğudur. Samsuna Azərbaycandan birbaşa reysin olmaması insanların işini çətinləşdirir. “Bugün masada olan başlıca müzakirə birbaşa logistikanın qurulmasıdır”, – deyə R.Quliyev bildirib.

Qeyd edək ki, dünyada tək sağlamlıq turizmi 10 trilyon dollardır. Ümumilikdə sektorum payı isə daha böyükdür və payı artmaqda davam edir.

# Türkiyə Respublikasının Ticarət Nazirliyi və Şərqi Anadolu İxracatçılar Birliyinin nümayəndə heyəti Naxçıvana səfər edib

Türkiyə Respublikasının Ticarət Nazirliyinin departament rəhbəri Mustafa Yavuzun rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında ikigünlük səfərdə olub.

Səfər çərçivəsində qonaqlar ümummilli liderimizin Naxçıvan şəhərindəki abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin təşəbbüsü, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin, Azərbaycanın Türkiyədəki Ticarət Nümayəndəliyinin dəstəyi, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin və Naxçvan MR Sahibkarlar Konfedrasiyasının təşkilatçılığı ilə “Azərbaycan-Türkiyə ticarət əlaqələri: Naxçıvanın ixrac imkanları” mövzusunda görüş keçirilib. Görüşdə hər iki tərəfdən rəsmi şəxslər və sahibkarlar iştirak ediblər.

# MÜNDƏRİCAT

Bizim MEHRİBAN . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 2

Sahibkarlar Günü və Azərbaycan Sahibkarlar Konfederasiyasının fəaliyyətinin
25 illiyi ilə əlaqədar təbriklər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 8

IOE-nin İcraçı direktoru: "Yaşıl bacarıqlara tələbin artımı təklif artımını üstələyir" . . . . . 20

Yaşıl maliyyə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 26

"Yaşıl biznes"in iqtisadiyyata təsiri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 30

AQSİA sədri: "Qadın sahibkarların qurduqları bizneslər daha çox
inkişaf yönümlüdür" . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 36

"Yaşıl iqtisadiyyat"da suyun önəmi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 38

"Yaşıl iqtisadiyyat" çağırışının tarixi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 44

"Yaşıl iqtisadiyyat" və iqlim dəyişiklikləri ilə mübarizə Azərbaycan
startaplarının diqqətində . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 46

Cəbrayıl Əliyev: "Bərpa olunan enerji sahəsində beynəlxalq şirkətlərlə
müqavilələr imzalanıb" . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 50

İstehsal olunduğu yer: Ağdam, Qarabağ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 54

Mustafa Bədəlov: "Azərbaycan məhsullarını dünyanın bütün bazarlarında
görmək istəyirik" . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 58

"Toxumçuluq kənd təsərrüfatının bünövrəsini təşkil edir" . . . . . . . . . . . . . . . . . . . . . . . 62

Lazımsız polietilen paketlər lazımlı yeşiklərə necə çevrildi? . . . . . . . . . . . . . . . . . . . . . 64

Davamlı inkişaf: yaşıl iqtisadiyyat kontekstində . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 66

İstiqrazların tarixi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 71

Şərqdə ilk kollektiv saziş: "Mazut konstitusiyası" . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 74

ASK Xəbərləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 78

# Yaşılı sev, Çevrəni qoru!

30 il birlikdə böyüdük!

VEYSƏLOĞLU
ŞİRKƏTLƏR QRUPU

